# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 204 (8520) ÇƏRŞƏNBƏ AXŞAMI, 6 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# İLHAM ƏLİYEV Cəbrayılı işğaldan azad etdi

## Biz haqlıyıq, biz zəfər çalacağıq!

### Prezident İlham Əliyevin xalqa müraciəti

*Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.*

*AZƏRTAC dövlət başçısının müraciətini təqdim edir.*

- Əziz həmvətənlər!

Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!

Dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir.

***Ardı 2-ci səh.***

## İLHAM ƏLİYEVin şərtləri

*Ali Baş Komandan təcavüzkar dövlətə, şəxsən Paşinyana atəşkəs üçün son fürsət verir:*

- Çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə.
- Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib.
- Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib.
- Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil.
- Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz, əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik.

## Prezident İlham ƏLİYEV: "Bu gün Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad edib"




Bu gün Azərbaycan Ordusu Cəbrayıl şəhərini və rayonunun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, oktyabrın 4-də bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində yazıb.

## Prezident İlham ƏLİYEV: "Bu gün Azərbaycan Ordusu daha bir neçə kəndi işğaldan azad edib"




Bu gün Azərbaycan Ordusu Tərtər rayonunun Talış kəndini, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndini azad etmişdir. Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, oktyabrın 3-də bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində yazıb.

## Prezident İlham ƏLİYEV: "Bu gün Azərbaycan Ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad edib"

Bu gün Azərbaycan Ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində bildirib.

## Ali Baş Komandan hərbçiləri təbrik etdi

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev oktyabrın 4-də Birlik komandirləri - general-mayor Mayis Bərxudarovu, general-mayor Hikmət Mirzəyevi və onların rəhbərlik etdikləri şəxsi heyəti Cəbrayıl şəhərinin və rayonunun 9 kəndinin işğaldan azad olunması münasibətilə təbrik edib. Onlara tapşırıq verib ki, Ali Baş Komandanın təbriklərini korpusların bütün şəxsi heyətinə çatdırsınlar.

Mayis Bərxudarov və Hikmət Mirzəyev Ali Baş Komandana öz təşəkkürlərini bildirib, Prezidenti əmin ediblər ki, qarşıya qoyulmuş bütün vəzifələri bundan sonra da şərəflə yerinə yetirəcəklər.

***Prezidentin Mətbuat xidməti***

## "Biz işğal olunmuş bütün ərazilərdə Azərbaycan bayrağını qaldıracağıq"

### Prezident İlham Əliyev "Əl-Ərəbiyə" televiziya kanalına müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də "Əl-Ərəbiyə" televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

*- Əvvəllər soyuq müharibə olmuş bu münaqişə indi Azərbaycanı və Ermənistanı alova bürüyüb. Bu müharibə keçmişdən qaynaqlanır və indi artilleriya mərmilərinin səsi eşidilir. Dağlıq Qarabağ yenidən gündəmə gəlib, müharibə Qarabağdan və beynəlxalq tərəflərin müdaxilələrindən kənara doğru genişlənir, regional müharibəyə çevrilməklə bağlı xəbərdarlıqlar mövcuddur. Münaqişənin həll yolu, beynəlxalq müdaxilələr bizim Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə müzakirəmizin mövzusu olacaq. Canlı yayımımıza Bakıdan Prezident İlham Əliyev qoşulur. Xoş gəlmisiniz cənab Prezident.*

- Təşəkkür edirəm.

*- Cənab Prezident, biz son günlərdə inkişaf edən hadisələrdən, Ermənistan və Azərbaycan arasında olan böhrandan başlayacağıq. Bu eskalasiyanın başlanğıcı necə oldu?*

***Ardı 3-cü səh.***

## "Bizim mövqeyimiz dəyişməzdir"

### Prezident İlham Əliyev Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

**- Cənab Prezident və Ali Baş Komandan İlham Əliyev, "TRT Haber"ə xoş gəldiniz. Zaman ayırdığınız üçün təşəkkür edirəm. İşğal altındakı torpaqlarınızdan bu günədək nə qədəri geri alınıb. Hərəkat bu anda hansı mərhələdədir və planladığınız çərçivədə gedirmi?**

- Bəli, hər şey plan üzrə gedir. Bu günə qədər qarşımızda duran bütün vəzifələr icra edilmişdir. Azərbaycan Ordusu uğurla irəliyə gedir. Bir çox yaşayış məntəqələri, bir şəhər, bir neçə kənd işğaldan azad edildi. Hazırda müxtəlif istiqamətlərdə şiddətli döyüşlər gedir.

Bildiyiniz kimi, dünən Cəbrayıl şəhəri işğaldan azad edildi və Cəbrayıl rayonunun bir neçə kəndi də işğaldan azad edildi. Ümid edirəm ki, bundan sonra da Azərbaycan Ordusu öz missiyasını uğurla icra edəcək və Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq. Bizim əsas məqsədimiz bundan ibarətdir. Bu məqsəd tarixi ədaləti təmin edəcək.

***Ardı 4-cü səh.***

## *Mehriban ƏLİYEVA:* "Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Əziz həmvətənlər! Rəşadətli Ordumuz əzəli Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün uğurlu əks-hücum əməliyyatı apardığı bir vaxtda düşmən öz məkrli niyyətlərini göstərməkdən əl çəkmir. Qızğın döyüşlərin davam etdiyi bütün həftə ərzində Ermənistan vicdansızcasına feyk xəbərlər tirajlayır. Bu şiddətli hücumda beynəlxalq birliyi fəal surətdə yanlış məlumatlandıran erməni diasporu xüsusi rol oynayır. Bu gün biz hamımız, həqiqətən, tarixi hadisələrin şahidləriyik! Lakin biz baş verənləri sadəcə kənardan müşahidə edə bilmərik.

Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq. Deməli, biz hamımız erməni yalanını ifşa etmək üçün maksimum səy göstərməyə borclu olan əsgərlərik. Mən sizin hər birinizi erməni təbliğatının feyklərini ifşa etməyə və erməni təcavüzü haqqında həqiqətləri bütün mümkün platformalarda beynəlxalq birliyə çatdırmağa çağırıram! Azərbaycanı özünün Vətəni hesab edən hər kəs səsini ucaltmalı və ermənilərin yalanını təkzib etməlidir! Uca Tanrı bizim Ordumuzu, xalqımızı və Vətənimizi qorusun!"



## Mehriban ƏLİYEVA: "Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun!"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində ordumuzun cəbhədə qazandığı qələbələrlə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Bütün Azərbaycan xalqını və bizim qələbələrimizə sevinən hər kəsi səmimi-qəlbdən təbrik edirəm. Vətən yolunda canından keçmiş qəhrəman şəhidlərimizə Allah rəhmət eləsin! Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

# Torpaqların işğaldan azad olunması uğrunda Vətən müharibəsi davam edir

# Biz haqlıyıq, biz zəfər çalacağıq!

## Prezident İlham Əliyevin xalqa müraciəti

*Əvvəli 1-ci səh.*



Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Hesab edirəm ki, bu gün Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır.

Bilirsiniz, bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır.

Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar.

Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq. Biz ermənilər tərəfindən bizim tarixi adlarımızı dəyişdirib tarixi saxtalaşdırmaq, eyni zamanda Azərbaycan xalqının tarixi-mədəni irsini silmək cəhdlərinə son qoyduq. Bizim yaşayış məntəqələrinin tarixi adları bərpa edilir və bərpa ediləcəkdir.

Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir.

Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Dünən bizim qədim yaşayış yerimiz - Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşları saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşları töküb. Ancaq o məğlubiyyət göz yaşları idi, o faciə göz yaşları idi.

Bu gün Azərbaycan xalqı sevinc içindədir. Cəbrayıllılara və bütün Azərbaycan xalqına bu gün azad edilmiş yaşayış məntəqələrinin adlarını sadalamaq istərdim. Bu gün şanlı Azərbaycan Ordusu aşağıdakı yaşayış məntəqələrini azad edib: Cəbrayıl şəhəri, Karxulu kəndi, Şükürbəyli kəndi, Yuxarı Maralyan kəndi, Çərəkən kəndi, Daşkəsən kəndi, Horovlu kəndi, Decal kəndi, Mahmudlu kəndi, Cəfərabad kəndi.

Bu kəndlərin sakinləri, sizə müraciət edirəm, sizin həsrətinizə son qoyulur və bizim digər bütün qaçqın, köçkün soydaşlarımız bilsinlər ki, biz onları da onların dədə-baba torpaqlarına qaytaracağıq. Güc yolu ilə! Biz istəyirdik ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun, səbir göstərirdik. Danışıqlarda həmişə ədalətli mövqedə olmuşuq, bizə mənsub olanı istəmişik. Başqasının torpağında heç vaxt gözümüz olmayıb. Amma demişik ki, bu, bizimdir, xalqımızındır, millətimizindir, bizə qayıtmalıdır, danışıqlar yolu ilə qayıtmalıdır. Amma bu danışıqlar faktiki olaraq münaqişənin dondurulmasına gətirib çıxarmışdır. Yəni buna hesablanmışdır. Otuz il ərzində danışıqlar gedə bilərmi?! Otuz il ərzində Azərbaycan xalqını belə vəziyyətdə saxlamaq olarmı?! Otuz il ərzində biz ümidlə yaşayırdıq ki, beynəlxalq birlik bu məsələni həll edəcək. Bu məsələnin həlli ilə məşğul olan ölkələr, beynəlxalq təşkilatlar öz sözünü deyəcək. Dünyanın ən ali beynəlxalq orqanı - BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərəcək. Bu qətnamələr 27 ildir kağız üzərindədir. İyirmi yeddi il ərzində biz bütün dövrlərdə - danışıqların bütün dövrlərində konstruktiv mövqe göstərmişdik, ədalətli mövqe göstərmişdik. Ancaq bunun müqabilində nə gördük? Təcavüzkar daha da azğınlaşıb. Təcavüzkarın tamahı daha da böyüyüb, bizim dədə-baba torpağımıza göz dikib. Nəticədə işğal edilmiş bütün torpaqları qondarma "Dağlıq Qarabağ respublikası"na aid edib, yeni xəritələr dərc edib və bu xəritələrdə işğal edilmiş bütün ərazilər Dağlıq Qarabağ kimi təqdim edilir. Ondan sonra nə oldu? Ondan sonra bəyan etdilər ki, bir qarış torpağı Azərbaycana qaytarmayacağıq.

Biz demişdik ki, axı bu, danışıqlar predmetinə zidd olan məsələdir. Axı danışıqlarda bizim əsas ümidverici məqamımız o idi və orada göstərilirdi ki, işğal edilmiş torpaqlar mərhələli yollarla Azərbaycana qaytarılacaq. Biz də buna razılıq vermişdik ki, mərhələli yollarla qaytarılsın, sülh yolu ilə qaytarılsın. Bir mərhələdə 5 rayon qaytarılsın, ikinci mərhələdə 2 rayon qaytarılsın, sonra azərbaycanlılar Dağlıq Qarabağa qayıtsınlar, Şuşaya qayıtsınlar, ondan sonra Azərbaycan və erməni xalqları birlikdə yaşasınlar, necə ki, vaxtilə biz yaşamışıq. Bu, ədalətli mövqedir. Bu, beynəlxalq hüququn bütün normalarına uyğun olan bir mövqedir. Biz nə istəmişik ki? Bunu istəmişik və buna haqqımız çatırdı və çatır. Amma nə gördük?! Gördük ki, Azərbaycan xalqının iradəsini sındırmaq istəyirlər. Gördük ki, bizə qarşı yeni müharibə açılır, bizi yeni müharibə ilə hədələyirlər. Gördük ki, iyul ayında heç bir səbəb olmadan bizim Tovuz şəhərimiz və digər yaşayış məntəqələrimiz atəşə tutuldu, hərbçilərimiz həlak oldu, mülki vətəndaş həlak oldu. Gördük ki, avqust ayında diversiya qrupu göndərildi və o diversiya qrupunun başçısı zərərsizləşdirildi, saxlanıldı. İndi ifadələr verir, deyir göndərilib ki, terror aktları törətsin. Budurmu danışıqlar prosesinə sadiqlik?! Sonra isə Ermənistanın baş naziri cəfəng fikirlər ortaya atır, tarixi saxtalaşdırır, öz xalqını, beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Bir il bundan əvvəl o, "Qarabağ Ermənistandır və nöqtə" deməklə bütün danışıqlar prosesinə zərbə vurdu, onu mənasız etdi. Danışıqların formatını dəyişdirmək cəhdləri - "Qondarma, oyuncaq xunta rejimi ilə Azərbaycan danışıqlar aparmalıdır" sözləri danışıqlar prosesinə tamamilə ziddir. Adekvat cavab aldımı? Mən Minsk qrupunun həmsədr ölkələrinə, həmsədr olan səfirlərə, digər beynəlxalq təşkilatlara, Avropa İttifaqının nümayəndələrinə dəfələrlə demişdim ki, Ermənistana təsir edin, sanksiyalar tətbiq edin, təzyiq edin. Belə olmaz. Əgər güclü təsir olmasa, Ermənistan daha da azğınlaşacaq, daha da quduracaq, yeni iddialar ortaya atacaq. Eşitmədilər məni. Mən istəyirdim bu məsələ sülh yolu ilə həll olunsun. Eşitmədilər. Hesab edirdilər ki, Azərbaycan xalqı və mən - Azərbaycan Prezidenti bu vəziyyətlə barışacağam?! Hesab edirdilər ki, bizim müqəddəs şəhərimiz olan Şuşa erməni tapdağında qalacaq, mən bununla barışacağam?! Azərbaycan xalqının tarixinə zərbə vuran erməni cəlladları ilə biz danışıqlarmı aparmalıyıq? Azərbaycan xalqı təhqir edildi, Şuşada qondarma rejimin başçısı özünə "andiçmə mərasimi" keçirmişdir. Baxım görüm, indi andiçmə mərasimi harada keçiriləcək, yas mərasimini keçirəcək! İndi qaçıb siçan kimi gizlənib. Çıxsın ortalığa! Ermənistanın baş naziri gedib Şuşada, Cıdır düzündə rəqs edir, hesab edir ki, biz bununla barışacağıq?! Səhv edir! Heç vaxt biz bununla barışmayacağıq. Qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentinin Şuşaya köçürülməsi nə deməkdir?! Yenə də Azərbaycan xalqını təhqir etmək cəhdidir. Cəbrayıla Ermənistandan yeni yolun çəkilməsi nə deməkdir?! O deməkdir ki, orada qanunsuz məskunlaşma aparılacaq. Artıq Livandan, başqa yerlərdən erməniləri gətirirlər, köçürürlər bizim qədim şəhərimizə, Şuşada yerləşdirirlər, televiziyada göstərirlər, beynəlxalq konvensiyaları pozurlar, Cenevrə Konvensiyasını tapdalayırlar. Bunlara söz deyən var?! Tapşırıq vermişəm bütün bizim xarici diplomatik orqanlara - məsələ qaldırın, BMT-də, ATƏT-də, Avropa İttifaqında, başqa təşkilatlara, deyin ki, bu, qanunsuzdur! Qanunsuz məskunlaşma cinayətdir! Buna reaksiya oldu?! Minsk qrupu bir açıqlama verdimi?! Vermədi! Avropa İttifaqı verdimi?! Vermədi! Dedi ki, bu, bizi maraqlandırmır. Maraqlandırmırsa, indi də maraqlandırmasın. İndi nə əl-ayağa düşmüsünüz? İndi nə hoqqalardan çıxırsınız? Azərbaycana qarşı iftiralar irəli sürülür, bəzi ölkələr, Avropa ölkələri bizi ittiham edirlər. Getsinlər güzgüyə baxsınlar. Bu ittihamların heç bir əsası yoxdur ki, kimsə imkan verməz Azərbaycan Dağlıq Qarabağı fəth etsin. Dağlıq Qarabağ bizimdir, bizim torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdırıq və qayıdacağıq!

Ona görə indiki vəziyyətdə birinci günahkar Ermənistan rəhbərliyidir. Eyni zamanda bu məsələyə biganə yanaşan və daim Ermənistanın tərəfini saxlayan və bu işğalı əbədi etmək istəyən bəzi ölkələrin dairələridir. Azərbaycan özü bu məsələni həll edir və mən 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq. Baxaq kim-kimdir! İndi nə oldu? Paşinyan hər gün bir dünya liderinə zəng edir. Hər gün! Mən heç kimə zəng etməmişəm, heç bir liderə zəng etməmişəm. Təmaslarım olub, mənə zəng ediblər. Amma o, adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, ağlamasın, onların ayağına yıxılmasın. Bax budur bunun sonu. Əgər bizimlə normal dildə danışsaydı, bizim müqəddəs şəhərimizi mundarlamasaydı, əlbəttə, biz ümidlərlə yaşayıb çalışardıq ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun. Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!

Ermənistan rəhbərliyi yaxşı düşünsün, hələ ki, gec deyil. Bizə yeddi şərt irəli sürür. Sən kimsən ki, bizə şərt qoyasan?! İndi baxım görüm nə şərt qoyursan bizə! Yıxılıb diz çöküb yalvarırsan ki, atəşkəs bərpa olunsun. Atəşkəs Ermənistanın baş nazirinin xahişi ilə 2 il ərzində bərpa olunmuşdu. Məndən xahiş etmişdi ki, daxildə vəziyyət ağırdır, oradan-buradan məni sıxırlar, mənə vaxt verin, mən bu məsələni həll edəcəyəm, mən yeni fikirlərlə gəlmişəm. Mən keçmişdə nə olub hamısının üstündən xətt çəkmişəm, imkan verin, vaxt verin. Dedim yaxşı. Nə oldu? Bir ildən sonra çıxış edib deyir ki, "Qarabağ Ermənistandır". İndi desin "Qarabağ Ermənistandır". İndi mənə olan zənglər və zənglər əsnasında gedən söhbətlər əlbəttə ki, konfidensial xarakter daşıyır və bəzi hallarda indi soruşurlar bəs sizin şərtiniz nədir? Mənim şərtim birdir - çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz, əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik. Halbuki indi şiddətli döyüşlər getdiyi zaman bunu etmək çətindir. Çünki biz dayansaq, onlar dayanmayacaq. Amma hər halda bunun üzərində işləmək olar. Yoxsa ki, siz dayanın, onlara vaxt verin. Nəyə vaxt verək? Vaxt verək ki, güc toplasınlar? Vaxt verək ki, yenə də adam toplasınlar bizə hücum etsinlər? Bizi belə sadəlövh sayırlar bunlar? Vaxt verin ki, bunlar gəlsinlər danışıqlara. Mən nə lazımdır dedim, vəssalam.

Bu gün Cəbrayılın işğaldan azad edilməsi Ermənistana, onun havadarlarına dərs olmalıdır. Mən hadisələrdən əvvəl demişdim. Orada təxribat törətdi, dərs verdik, dərs olmadı. Burada təxribat törətdi, dərs verdik, dərs olmadı. Nəhayət, bu dəfə təxribat törətdi, dərs verdik, indi dərs oldu.

Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğruldduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

---

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli Prezident, əziz İlham Əliyev!

Böyük kədər və narahatlıqla sülhün, beynəlxalq hüquq normalarının yenidən pozulması və təəssüflər olsun ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yeni hərbi əməliyyatlarda onlarca günahsız insanın qətlə yetirilməsi xəbərlərini eşitdim.

Monteneqro ilə Azərbaycan arasında ümumi dövlətlərarası münasibətlərin möhkəmləndirilməsinə yönəlmiş açıq və konstruktiv söhbətlərimiz haqqında düşünərək, Dağlıq Qarabağdakı uzunmüddətli ağrılı münaqişə və onun sülh yolu ilə həllinə yönəlmiş səylərinizi mənə xüsusi diqqətlə təqdim etdiyiniz dəyərli görüşlərimizi xatırladım.

Ölkələrimiz arasındakı yaxın münasibətlərə hörmət əlaməti olaraq, dostluq əlaqələrimizin sübutu kimi 2013-cü il martın 12-də Çetinye şəhərində Azərbaycan Respublikası və Monteneqro arasında dostluq münasibətləri və tərəfdaşlıq haqqında Bəyannamə imzaladıq. Bununla da Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı əsasında, hamı tərəfindən tanınmış prinsiplərə və beynəlxalq hüquqa uyğun olaraq sülh yolu ilə həll olunmasının vacibliyini birlikdə bəyan etdik.

Fürsətdən istifadə edərək, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə əməl olunmasının vacibliyini vurğulamaqla yanaşı, silahlı münaqişənin tezliklə sülh yolu ilə həllinə nail olunacağına ümid etdiyimi bildirmək istəyirəm.

Zati-aliləri, Sizə və bütün Azərbaycan xalqına möhkəm cansağlığı, əmin-amanlıq, rifah arzulamaqla, dərin hörmət və ürəkdən gələn salamlarımı çatdırıram.

*Hörmətlə,*

***Filip VUYANOVİÇ,***
***Monteneqronun 2003-2018-ci illərdə Prezidenti***

---

## Dmitri PESKOV: "Rusiyanın Dağlıq Qarabağdakı vəziyyətlə əlaqədar Azərbaycan və Türkiyə ilə dialoqu yüksək səviyyədə və daimi əsasda həyata keçirilir"

Rusiyanın Dağlıq Qarabağdakı vəziyyətlə əlaqədar Azərbaycan və Türkiyə ilə dialoqu yüksək səviyyədə və daimi əsasda həyata keçirilir.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bəyan edib.

Kremlin nümayəndəsi əlavə edib ki, bu, prezidentlərin iş qrafikinin münasibliyindən asılıdır.

"Bu, heç də o demək deyil ki, Rusiya tərəfi işgüzar əlaqələrdə hansısa kəsir hiss edir. Əksinə, RF XİN-in rəhbəri S.Lavrov Azərbaycan və Türkiyədən olan həmkarları ilə daim əlaqədə olur", - deyə Kremlin nümayəndəsi bildirib.

O qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsi mövzusu üzrə Rusiya-Türkiyə və Rusiya-Azərbaycan dialoqu yüksək səviyyədə və daimi əsasda həyata keçirilir.

D.Peskov zərurət yaranacağı halda Rusiya Prezidenti Vladimir Putinin Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Dağlıq Qarabağdakı vəziyyətlə bağlı telefon danışıqları aparacağını istisna etməyib.

---

## Prezidentin Hərbi məsələlər üzrə köməkçisindən çağırış



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu döyüş tapşırıqlarının uğurlu icrasını təmin edərək uzun illər işğal atında olan torpaqlarımızı azad edir, ərazi bütövlüyümüzü bərpa edir.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev AZƏRTAC-a bildirib ki, Ordumuz düşmənə sarsıdıcı zərbələr endirir və hər gün müsbət nəticələr əldə olunur.

Sözsüz ki, bu qürurverici tarixi anlar bizim böyük sevincimizə səbəb olur, ərazi bütövlüyümüzün qısa zamanda bərpa olunacağı günü yaxınlaşdırır. Lakin unutmamalıyıq ki, ölkəmizdə hərbi vəziyyət və karantin rejimi qüvvədədir. Vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək məqsədilə xahiş olunur ki, hər kəs müəyyən olunmuş qayda-qanuna ciddi riayət etsin.

Bir qədər təmkinli olaq, səbir nümayiş etdirək, Qələbə bizimlədir - Qarabağ Azərbaycandır!

---

## Azərbaycandakı xarici hərbi attaşelər və beynəlxalq təşkilatların nümayəndələri əməliyyat şəraiti haqqında məlumatlandırılıb

Oktyabrın 5-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi tərəfindən Azərbaycanda akkreditə olunan xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün növbəti brifinq keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, brifinq iştirakçılarının diqqətinə işğal olunmuş ərazilərdə həyata keçirilən əməliyyatların gedişatı və azad olunmuş ərazilər, düşmən qüvvələrinə vurulmuş ziyan barədə məlumat verilib.

Bundan əlavə, qonaqlara təmas xəttindən xeyli uzaqda yerləşən Azərbaycanın şəhər və rayonlarına düşmənin raket və artilleriya zərbələri endirməsi barədə də ətraflı məlumat çatdırılıb.

Düşmənin açdığı atəş zərbələri nəticəsində dinc əhali və mülki infrastruktura dəyən ziyan, eləcə də düşmən ordusunun öz hərbi qulluqçularına qarşı göstərdiyi qeyri-insani münasibət və hərəkətlər barədə faktlar da diqqətə çatdırılıb.

---

## Azərbaycanın Baş prokuroru xarici ölkələrin Baş prokurorlarına və Ədliyyə nazirlərinə müraciət ünvanlayıb

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev ABŞ, Kanada, Avstraliya, Almaniya, Rusiya, Gürcüstan, Ukrayna, Belarus, Özbəkistan, Uruqvay, İraq, İran, Argentina, Braziliya, Bolqarıstan və Polşanın Baş prokurorlarına, eləcə də Livan, Yunanıstan, Suriya və Fransanın Ədliyyə nazirlərinə rəsmi müraciət edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciətdə Ermənistan Respublikasının rəhbərliyinin dövlət terroru siyasətinə bağlılığının sübutu olaraq sentyabrın 27-dən etibarən Ermənistan tərəfindən atəşkəs rejiminin kobud şəkildə pozulmaqla əsasən dinc əhalinin sıx yaşadığı ərazilər, xəstəxanalar, məktəblər, uşaq evləri ağır artilleriyadan atəşə tutularaq mülki infrastruktura külli miqdarda ziyan vurulduğu, oktyabrın 4-dən başlayaraq döyüş bölgəsindən uzaqda yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə, o cümlədən strateji sənaye əhəmiyyəti daşıyan Beyləqan və Mingəçevir şəhərlərinin, yaşayış məntəqələrinin raket və mərmilərlə atəşə tutulduğu, nəticədə ölən və yaralananların olduğu diqqətə çatdırılıb.

Bildirilib ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum tədbirlərinin görülməsi nəticəsində erməni silahlı qüvvələrinin öz mövqelərini itirmələri səbindən yeni canlı qüvvə toplamaq məqsədilə Ermənistan xarici ölkələrdə yaşayan erməniləri silahlı qarşıdurmada iştirak etməyə çağırıb. Kütləvi informasiya vasitələrində təxminən 1000-ə yaxın etnik erməninin Azərbaycan Respublikasının ərazisinə gəlmələri və ya gəlmək istədikləri barədə məlumatlar yayılıb.

Qeyd olunub ki, BMT Təhlükəsizlik Şurasının 2178 (2014) saylı qətnaməsində "xarici terrorçu döyüşçülər" termini ilə digər ölkələrdə terror aktlarının təşkilində, həyata keçirilməsində iştirak edən şəxslər müəyyənləşdirilib.

Xarici dövlətlər nəzərə almalıdırlar ki, bu kimi "erməni könüllüləri" döyüş bacarıqlarını əldə etdikdən sonra yaşadıqları dövlətlər üçün real təhlükə mənbəyinə çevrilə bilərlər.

Həmçinin müraciətdə qeyd olunan ölkələrdə çoxsaylı erməni diasporasının mövcud olmasını, həmin diasporanın nümayəndələri tərəfindən "erməni könüllülərinin" daşınmasının təşkil olunması nəzərə alınmaqla ölkə vətəndaşlarının kütləvi şəkildə Ermənistan Respublikasını ziyarət etmələrinə xüsusi diqqət yetirilməsi, eyni zamanda xarici ölkələrin ərazisindən terroristlərin Azərbaycan Respublikasına daşınmasının qarşısının alınması üçün preventiv tədbirlərin görülməsini və həmin şəxslərin cinayət məsuliyyətinə cəlb olunması xahiş edilib.

# “Biz işğal olunmuş bütün ərazilərdə Azərbaycan bayrağını qaldıracağıq”

## Prezident İlham Əliyev “Əl-Ərəbiyə” televiziya kanalına müsahibə verib

*Əvvəli 1-ci səh.*



- Sentyabr ayının 27-də Ermənistan bizim hərbi mövqelərimizə və mülki şəxslərimizə hücum etdi. Mülki şəxslərimiz bu hücumdan əziyyət çəkmişdir. Mülki şəxslərimiz arasında qurbanlar var. Bu səhərə olan məlumata əsasən, 22 mülki şəxs öldürülmüş və 73-ü yaralanmışdır. Əfsuslar olsun ki, bu gün bizdə yenə sadə kəndlilərimiz arasında onlarla yaralı və qətlə yetirilənlər var. Biz cavab tədbiri görməli idik və bizim cavabımız adekvat olmuşdur. Biz əks-hücuma başladıq və bu əks-hücum nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən Ermənistanın atəş mövqelərini susdura bildik. Biz ərazilərin bir qismini, bir neçə kəndi azad edə bildik və bu gün biz 27 il Ermənistanın işğalı altında olan Cəbrayıl şəhərini azad etdik. Bizim uğurlu hərbi əməliyyatımız davam edir. Biz torpaqlarımızı azad etmək və ərazi bütövlüyümüzü bərpa etmək üçün tamamilə qətiyyətliyik.

**- Prezident Əliyev, açıq-aşkar görünür ki, Azərbaycan və Ermənistan arasında hadisələrin gedişi nəzarətdən çıxır, bu hərbi əməliyyatların genişlənməsinin hər hansı bir həddi varmı?**

- Hadisələrin nəzarətdən çıxdığını düşünmürəm, vəziyyət Azərbaycan Ordusunun nəzarəti altındadır. Biz hazırda hücum əməliyyatını həyata keçiririk, bizim məqsədimiz ərazilərimizi azad etməkdir. Mən vasitəçilərə təklif etdim və Ermənistan xalqına da müraciət etdim ki, işğala görə öz hökumətini məsuliyyətə cəlb etsinlər və işğalı dayandırsınlar. Ermənistan buna razı olarsa, demək olar ki, 30 il ərzində qanunsuz olaraq öz nəzarətində saxladığı işğal edilmiş əraziləri boşaltmağa başlasa, müharibə dayanacaq. Bizə müharibə lazım deyil. Biz 1992-ci ildən bəri danışıqlar prosesində iştirak edirdik. Demək olar ki, bu 30 il ərzində danışıqlar masasında sıfır irəliləyiş olmuşdur. Ermənistan ərazilərimizdən qoşunların tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən Birləşmiş Millətlər Təşkilatının qətnamələrini icra etmək istəmirdi. Əksinə, onların hərbi-siyasi rəhbərliyi yeni torpaqları işğal etməyə cəhd edirdi. Onlar Azərbaycana qarşı hücuma keçməyə cəhd edirdilər və iyul ayında onlar faktiki olaraq yeni hərbi hücuma keçdilər. Beləliklə, biz özümüzü, insanlarımızı müdafiə etməli idik və dünyanın bütün ölkələri tərəfindən tanınan, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyümüzü bərpa etməli idik.

**- Prezident Əliyev, əgər Ermənistan Sizin təqdim etdiyiniz bu təşəbbüsə cavab verməsə, bu eskalasiya davam edəcək və mülki şəxslərin həyatı üçün qorxular olacaq və bunun bədəli çox yüksək olacaq.**

- Ermənistan təkcə mülki əhalinin yaşadığı kəndləri ağır artilleriyadan istifadə etməklə atəşə tutmaqla yox, eyni zamanda, işğal olunmuş ərazilərdə əcnəbilərin qanunsuz məskunlaşmasını təmin etməklə Cenevrə Konvensiyanı kobud şəkildə pozur. Biz ərazilərimizin azad olunmasını istəyirik, biz iki ölkə arasında olan münaqişənin həllini tapmağa imkan yaratmaq üçün mandatı olan vasitəçilərə çox güvənirdik. Lakin danışıqlar masasında konstruktiv yanaşma nümayiş etdirmək əvəzinə, Ermənistan iyul ayında bizə qarşı hərbi hücuma keçdi və biz onlara adekvat cavab verdik. Onlar terror aktları törətməyi planlaşdıran diversiya qrupunu göndərdilər və bu diversiya qrupunun başçısı yaxalanmışdır. İndi o, ifadə verir və sentyabr ayında onlar bizim kəndlərimizi və şəhərlərimizi artilleriya bombardmanına tutdular. Münaqişə bölgəsinə yaxın yaşayan sıravi azərbaycanlıların 500-dən çox evi tamamilə dağıdılmışdır və ya onlara ziyan dəymişdir. Buna görə Ermənistan bu təcavüzkar hərəkətləri dayandırmalıdır, onlar qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını üzərlərinə öhdəlik götürməlidirlər. Onlar işğal olunmuş ərazilərdən qoşunların çıxarılması ilə bağlı vaxt cədvəlini bizə təqdim etməlidirlər. Onların “Qarabağ Ermənistandır” deyən baş naziri indi deməlidir ki, “Qarabağ Ermənistan deyil” və bundan sonra əlbəttə ki, biz bu düşmənçiliyə son qoymağa və atəşkəs rejimini bərpa etməyə hazır olacağıq.

**- Lakin Prezident Əliyev, “Əl-Ərəbiyə” vasitəsilə Ermənistan prezidenti danışıqlar haqqında danışdı və o dedi ki, münaqişə danışıqlar yolu ilə həll olunmalıdır. Siz buna nə cavab verərdiniz?**

- Mən razıyam. Mən həllin danışıqlar vasitəsilə olduğunu düşünürəm. Lakin danışıqların məğzi olmalıdır. Ermənistanın “Qarabağ Ermənistandır” deməsi, - onların baş naziri bunu söyləyib, - münaqişənin həlli prinsiplərini faktiki olaraq məhv etdi. Çünki həmsədr ölkələri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa olan ATƏT-in Minsk qrupu - onlar danışıqlar zamanı illər ərzində münaqişənin həlli üçün prinsipləri hazırlayıblar və regionumuzda dayanıqlı sülhə nail olmaq üçün birinci addım işğal olunmuş ərazilərin boşaldılmasıdır. İki il bundan əvvəl dövlət çevrilişi və Corc Soros tərəfindən maliyyələşdirilmiş “inqilab” nəticəsində hakimiyyətə gəlmiş Ermənistanın baş naziri “Qarabağ Ermənistandır” deyəndə o danışıqların məğzini məhv edir. Danışılası heç bir şey qalmır. Buna görə Ermənistanda hakimiyyətdə olan baş nazir öz destruktiv davranışı, hərbi toqquşmaya gətirib çıxarmış hərəkətləri barədə ciddi şəkildə düşünməlidir. Biz 28 ildir ki, danışıqlar prosesində idik və mənim Ermənistanın iki sabiq prezidenti ilə danışıqlar təcrübəm var idi. Biz həll yolunu tapmaq üçün nisbətən məqbul şəkildə işləyirdik, biz kiçik addımlar atırdıq. Biz vasitəçilərlə birlikdə münaqişənin həlli üçün əsas prinsipləri işləyib hazırlayırdıq. Sonra iki il bundan əvvəl siyasi həyatda heç bir təcrübəsi olmayan, bütün həyatı boyu hətta kiçik bir şirkətin rəhbəri olmayan, geosiyasət, beynəlxalq münasibətlər haqqında heç bir anlayışı olmayan, küçədən olan bir şəxs hakimiyyətə gəlir və öz ölkəsini dağıtmağa başlayır. İndi Ermənistan böhran vəziyyətindədir. O, əsas siyasi partiyanın rəhbərini həbs edir. O, mənim müxtəlif dövrlərdə danışıqlar üzərində çalışdığım iki sabiq prezidentə qarşı cinayət araşdırmasına başlayır. O, tamamilə despotik bir rejim yaradır və danışıqları məhv edir və biz nə etməliyik? O, azərbaycanlılara qarşı təhqiramiz bəyanatlar verir, o, təhrikedici addımlar atır və vasitəçilərin özlərini, yumşaq desək, bu qəribə davranış çox çaşdırmışdır. O, danışıqlar prosesini məhv edir. Ona görə mən hesab edirəm ki, danışıqlara geri qayıtmaq üçün birinci Ermənistanın baş naziri “Qarabağ Ermənistan deyil” deməlidir, çünki “Qarabağ Ermənistandır” ifadəsi yalandır, Qarabağ Azərbaycandır! O, torpaqların sahibi olan bizə onların qaytarılmasını təmin edən iyirmi il ərzində işlənib hazırlanmış prinsiplərə sadiq qaldığını deməlidir. Bu çirkin hərbi hücuma keçdikdən sonra o, bizə şəhərlərimizdən qoşunların çıxarılması üzrə vaxt cədvəlini verməlidir və belə olan halda biz savaşı dayandırmağa hazırıq. Əks halda, biz bunu güc yolu ilə edəcəyik, biz ərazi bütövlüyümüzü güc yolu ilə bərpa edəcəyik və ona yerini göstərəcəyik.

**- Prezident Əliyev, tərcümə olduğuna görə müdaxilə edə bilmirdim, lakin cavabınızla bağlı şərh vermək istədiyim üç məsələ var. Birincisi, Siz Ermənistanın böhran vəziyyətində olduğunu dediniz. Lakin biz erməni xalqının öz rəhbərliyini dəstəklədiyini görürük və onlar ölkə rəhbərliyinin onları necə müdafiə etməsini alqışlayırlar. İkincisi odur ki, Ermənistanın “Qarabağ Ermənistan deyil” deməsi ərazilərdən çıxması üçün yeganə şərtdir, yoxsa danışıqlar masasına qayıtmaq üçün başqa şərtlər və ya ilkin şərtlər var? Üçüncüsü, vasitəçilərin haqqında danışdığı və ya çaşqınlıq yaşadığı ölkələr hansılardır?**

- Ölkələr haqqında artıq mən dedim, ATƏT-in Minsk qrupu. ATƏT-in Minsk qrupunun həmsədr ölkələri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Bu qrupun nümayəndələri ilə son illər ərzində təmaslarımda bizim fikir mübadiləsi aparmaq imkanımız oldu və nə mən, nə də onlar danışıqların irəli aparılması üçün nəyin edilməsinin mümkün olduğunu bilmirdik. Çünki bildiyiniz kimi, danışıqlar prinsipləri və danışıqlar formatı müəyyən olunmuşdur. Bu, Azərbaycan tərəfindən birtərəfli qaydada müəyyən olunmamışdır. Bu, vasitəçilər tərəfindən təklif olunmuşdur və iki ölkə - Azərbaycan və Ermənistan tərəfindən qəbul olunmuşdur. Danışıqların formatı Azərbaycan və Ermənistandır, bu, iki ölkə arasında münaqişədir. Ermənistanın baş naziri bu formatın qəbuledilməz olduğunu və Azərbaycanın Ermənistanın özü də daxil olmaqla heç bir dünya ölkəsinin tanımadığı qondarma “Dağlıq Qarabağ respublikası” ilə danışıqlar aparılmalıdır dedi. Bu, danışıqları pozmaq üçün qəsdən edilmiş bir hərəkət idi, çünki o, bilirdi ki, nə biz, nə də vasitəçilər bunu qəbul etməyəcək. Vasitəçilər - Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa bunu rədd etdilər. Sonra o dedi ki, “Qarabağ Ermənistandır”. Bunu onun sələflərindən heç biri əvvəllər deməmişdi. Onların heç biri. Çünki bu, danışıqların sonu deməkdir. Çünki danışıqların mahiyyəti ərazini sülh yolu ilə, danışıqlar vasitəsilə Azərbaycana qaytarmaq və sonra Dağlıq Qarabağda azərbaycanlı və erməni icması arasında normal birgəyaşayışı təmin etməkdir. Çünki müharibədən əvvəl, Ermənistan bizim ərazilərimizi işğal etməzdən əvvəl, Dağlıq Qarabağ əhalisinin 25 faizi azərbaycanlılar idi. Lakin bu gün Dağlıq Qarabağla yanaşı, erməni əhalinin mövcud olmadığı, 700 mindən çox azərbaycanlının yaşadığı Dağlıq Qarabağ ətrafındakı yeddi rayon işğal altındadır. Onların hamısı didərgin düşüb, evlərinin hamısı dağıdılıb. Bütün tarixi abidələrimiz, o cümlədən məscidlərimiz erməni barbarları tərəfindən dağıdılıb və indi biz irəliləyişə yaxınlaşdığımız bir vaxtda Ermənistan hökumətində dəyişiklik olur, siyasətlə heç bir əlaqəsi olmayan yeni insanlar, yeni komanda hakimiyyətə gəlir, bu destruktiv bəyanatları verir və addımları atır, bizə qarşı hərbi təcavüzə başlayır. Biz nə etməli idik? Biz özümüzü müdafiə etməli idik. Biz məhz bunu etdik və ərazi bütövlüyümüz bərpa olunanadək biz bunu edəcəyik.

**- Prezident Əliyev, Rusiya və Fransa Türkiyə üzərindən Suriyadan gələn muzdlularla bağlı sizə qarşı ittihamlar irəli sürür. Siz buna necə cavab verərsiniz?**

- Biz bunu tamamilə rədd edirik. Son on gün ərzində, ötən həftə Fransa Prezidenti mənə iki dəfə telefon zəngi edib. Mən ona dedim ki, bizə dəlil verin. Bizim ərazimizdə guya suriyalı döyüşçülərin olmasına dair heç bir dəlil yoxdur. O, mənə sentyabrın 27-də zəng edəndə, mən ondan soruşdum və o vaxtdan bu yana məndə heç bir dəlil yoxdur. Əgər belə dəlilləri varsa, niyə bizə təqdim etmədilər? Sonra o, mənə bir neçə gün əvvəl zəng edəndə bu məsələni yenidən qaldırdı. Dedi ki, onlarda kəşfiyyat məlumatı var. Mən dedim onu bizimlə paylaşın. Heç bir dəlil və sübut təqdim etmədən ölkəni ittiham etmək doğru deyil və bu gün mən bu qəbuledilməz ittihamla bağlı Fransadan bir dəlil belə almamışam. Azərbaycan torpağında əcnəbi döyüşçülər yoxdur və mən Fransa Prezidentinə dedim ki, bizim ordumuz demək olar ki, yüz min nəfərdən ibarətdir. Bizim indi döyüş zonasında etdiyimiz internetdə göstərilir. Bizim müasir dronlarımızın erməni tanklarını və hava hücumuna qarşı sistemlərini necə dağıtdığını hər kəs görə bilər. Ordumuz bir kəndin ardınca o birini azad edir. Uzun illər ərzində işğal altında olan torpaqlarda bayrağımız qaldırılır. Beləliklə, bu ittihamlar tamamilə əsassızdır.

Sizə deyə biləcəyim digər bir məsələ ondan ibarətdir ki, ermənilər başqa bir feyk xəbər yayıblar ki, Türkiyəyə məxsus F-16 Ermənistanın Su-25 təyyarəsini vurub. Bu, feyk xəbər idi. Bu feyk xəbər mediaya təqdim olundu. Siyasətçilər, avropalı siyasətçilər bu feyk məlumatı istifadə etməyə başladılar və indi sübut olunanda ki, bu, baş verməyib, heç kim üzr belə istəmədi. Mən bizi ittiham edənlərdən üzrxahlıq tələb edirəm. Mən onlardan məsuliyyətli olmağı, söylədiklərinə nəzarət etməyi tələb edirəm. Biz ittihamlara dözəcək ölkə deyilik. Biz təhqirə dözəcək ölkə deyilik. Əgər biz düşündüyümüzü deməyə başlasaq, zənnimcə, həmin ölkələrdə çoxlu çaxnaşma olacaq. Onlar Azərbaycandan əl çəkməlidirlər, onlar regiondan əl çəkməlidirlər. Biz burada öz torpağımızdayıq. Bizim torpağımız işğal olunub. Əgər Fransa Dağlıq Qarabağ üçün öz müqəddəratını təyinetmə istəyirsə, qoy onlar demək olar ki, sakinlərinin yarısı ermənilərdən ibarət olan Marsel şəhərini onlara versinlər və onlara Dağlıq Qarabağ respublikası elan etməyə icazə versinlər və qoy onlara müstəqillik versinlər. Qoy Korsikaya müstəqillik versinlər, qoy basklara müstəqillik versinlər. Niyə onlar bizdən Dağlıq Qarabağ üçün müstəqillik tələb edirlər? Onların bunu bizdən tələb etməyə nə haqqı var? Onlar bu ittihamları dayandırmalıdırlar. Azərbaycana hücum etməyi və nüfuzumuza xələl gətirməyi dayandırmalıdırlar. Əgər biz muzdlular və terrorçular barədə danışmağa başlasaq, düşünürəm ki, bizi günahlandıranlar özləri çox utancverici vəziyyətə düşəcəklər. Yaxşı olar ki, onlar bizi günahlandırmazdan əvvəl güzgüyə baxsınlar.

**- Bəziləri hesab edir ki, bu böhran genişlənsə, sizin torpaqlarınız savaş meydanına çevriləcək və bu, sizin xeyrinizə olmayacaq. Bu, bir növ sizin torpağınızda marionetlər müharibəsinə bənzəyir. Siz qorxmursunuz ki, bu, regionlar arasında mübarizə olar?**

- Xeyr, marionetlər müharibəsi yoxdur. Azərbaycan müstəqil ölkədir. Bizim müstəqilliyimiz bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınır. Azərbaycanın beynəlxalq arenada çox güclü mövqeyi var. Mən bizim nailiyyətlərimizlə bağlı sizə cəmi iki misal gətirə bilərəm. Bir neçə il bundan əvvəl 155 ölkənin dəstəyi ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasına seçildi. Bu, bizim müstəqil siyasətimiz sayəsində və ölkəmizin beynəlxalq ictimaiyyətin çox məsuliyyətli üzvü olması sayəsində oldu. Keçən il biz Bakıda 120 ölkənin iştirakı ilə Qoşulmama Hərəkatının sammitini keçirdik və Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi üzərinə götürdü. Bu şərəfli vəzifə 120 ölkənin yekdil qərarı ilə Azərbaycana həvalə oldu. Marionet ölkə bu dəstəyi ala bilərmi? Marionet ölkələr miskindir. Heç kim onlara hörmət etmir. Heç kim onlara diqqət yetirmir. Bu gün Azərbaycanın sözü dünya üçün əhəmiyyət kəsb edir. Bu gün regionda Azərbaycan olmadan heç bir siyasi, iqtisadi, enerji, nəqliyyat layihəsi həyata keçirilə bilməz və bizə marionet deyənlər özləri marionetdir. Qoy onlar güzgüyə baxsınlar. Onlar ölkələrə yuxarıdan aşağı baxmağa öyrəşiblər. Biz belə vəziyyətdə deyilik. Biz öz ləyaqətimizi müdafiə edirik, biz öz müstəqilliyimizi müdafiə edirik. Dünyada heç bir ölkənin bizim işlərimizə müdaxilə etməyə haqqı yoxdur və onlar bunu başa düşməlidirlər. Öz ərazi bütövlüyünü bərpa etmək Azərbaycanın maraqlarına xidmət edir. Azərbaycanın bir milyon insanı öz doğma torpaqlarına qayıdacağı vaxtı gözləyir və biz hökumət olaraq bunu təmin edəcəyik. Biz insanlarımızı öz vətəninə qaytaracağıq, şəhərlərimizi bərpa edəcəyik, kəndlərimizi bərpa edəcəyik. Biz işğal olunmuş bütün ərazilərdə Azərbaycan bayrağını qaldıracağıq.

**- Prezident Əliyev, Avropa deyir ki, sizinlə Ermənistan arasında olan bu böhranın hərbi həll yolu yoxdur. Siz Avropanın bu mövqeyinə necə cavab verərdiniz?**

- Mən çox eşidirəm münaqişənin hərbi yolla həlli yoxdur. Birincisi, mən bununla razı deyiləm. İkincisi, yaxşı, əgər hərbi həll yolu yoxdursa, bizə qeyri-hərbi həll yolu verin, bizə diplomatik həll verin. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl edin. Onlar dünyanın ən ali beynəlxalq qurumu tərəfindən qəbul olunub və bu qətnamələr erməni qoşunlarının işğal olunmuş ərazilərdən heç bir şərt olmadan çıxarılmasını tələb edir. Biz 1992-ci ildən bu yana danışıqlar aparırıq və bu 28 il ərzində hər hansı diplomatik həll olubmu? Vasitəçilər və ya digər beynəlxalq təşkilatlar bizə siyasi həll təqdim ediblərmi? Xeyr. Onlar bu münaqişəni dondurulmuş etdilər. Lakin o dondurulmuş deyil. Biz nə qədər gözləməliyik? Daha 30 il? Ermənilər bizim torpağımızda oturmağa və bizim insanlarımıza öz evlərinə geri qayıtmağa icazə verməməyə nə qədər davam edəcəklər? Əgər beynəlxalq ictimaiyyət beynəlxalq qətnamələrin yerinə yetirilməsini təmin edə bilmirsə, Azərbaycan bunu özü edəcək. Bu da baş verir. Mən bir daha münaqişənin həllinə kömək etmək istəyən bütün tərəflərə, həmçinin Ermənistan rəhbərliyinə deyirəm ki, nə qədər gec deyil işğala indi son qoyun. Bəyanat verin ki, siz həll prinsiplərini qəbul edirsiniz, Azərbaycanın ərazi bütövlüyünü qəbul edirsiniz, işğal olunmuş bütün ərazilərdən çıxmaqla bağlı bizə vaxt cədvəli verəcəksiniz və Azərbaycan ərazisində “Qarabağ Ermənistandır” deyən Ermənistanın baş naziri Azərbaycan xalqı qarşısında üzr istəməli və deməlidir “Qarabağ Ermənistan deyil” və onda biz dayanarıq.

**- Prezident Əliyev, son olaraq, Ermənistanın ünvanına dediklərinizdən sonra bizim xəbər kanalı vasitəsilə erməni xalqı və Ermənistandakı bütün rəsmilərə demək istədiyiniz başqa bir şey varmı?**

- Bilirsiniz, bir neçə gün əvvəl mən Ermənistanın hücumu nəticəsində yaralanmış Azərbaycan əsgərlərinə baş çəkdim və onlarla söhbət edərkən mən erməni xalqına müraciət etdim. Mən başa düşdüm ki, onlar üçün mənim dediklərim adi bir şey deyil. Bu, bəlkə də onların eşitmək istədiyi yeganə şey deyildi. Çünki onlar az qala ermənilər tərəfindən öldürülmüşdülər və onların qarşısında əyləşərkən, onlara və bizim üçün belə qəhrəmanlar yetişdirmiş valideynlərinə minnətdarlığımı ifadə edərkən mən dedim ki, müraciətim həm də erməni xalqınadır. Öz hökumətinizi etdiklərinə görə məsuliyyətə cəlb edin, övladlarınızı Azərbaycana göndərməyin, öz övladlarınızı işğal olunmuş ərazilərə göndərməyin. Bu gün qondarma “Dağlıq Qarabağ ordusu”nun 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Bu işğala son qoyun. Azərbaycan ərazisini tərk edin. Öz torpağınızda yaşayın və onda bizdə sülh olacaq. Biz yenidən Azərbaycan və erməni xalqlarının əvvəlki normal əlaqələrini bərpa etməyə çalışacağıq. Biz çalışarıq. Bu, asan olmayacaq, lakin biz çalışarıq qonşu olaq, yanaşı yaşayaq. Bu, necə deyərlər, mənim erməni xalqına sözümdür. Ermənistan hökumətinə deyəsi sözüm yoxdur. Mən onların nə etməli olduğunu artıq dedim. Əgər onlar atəşkəs istəyirlərsə, mən artıq dedim, bizim qarşımızda üzr istəyin, bizə çıxmaqla bağlı vaxt cədvəli verin, sadəcə sözlər yox ki, biz bunu dayandıracağıq və danışıqlar aparacağıq. Bu, işləməyəcək. Onların hansı ərazini nə vaxt azad edəcəkləri ilə bağlı vaxt cədvəli - birinci gün, ikinci gün, üçüncü gün. Bizim müqəddəs Şuşa torpağında öz bandası ilə rəqs etməklə və “Qarabağ Ermənistandır” deməklə azərbaycanlıların hisslərini təhqir etmiş Ermənistanın baş naziri üzr istəməli və deməlidir ki, “Qarabağ Ermənistan deyil”. Mənim sözüm budur.

**- Azərbaycan Prezidenti İlham Əliyev, bizə Bakıdan qoşulduğunuza görə təşəkkür edirik.**

- Təşəkkür edirəm!

# Bizim mövqeyimiz dəyişməzdir

## Prezident İlham Əliyev Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibə verib

*Əvvəli 1-ci səh.*

Eyni zamanda bu beynəlxalq qanunlara da hörmət əlaməti kimi qəbul edilməlidir. Çünki Dağlıq Qarabağ və işğal edilmiş digər torpaqlar Azərbaycanın tarixi torpaqlarıdır. Beynəlxalq hüquq baxımından da bu torpaqlar Azərbaycan dövlətinə məxsusdur.

**- Atəşkəs çağırışlarına cavab verərkən heç bir ölkə liderinə zəng etmədiyinizi, sadəcə, danışmaq istəyənlərlə vəziyyəti dəyərləndirdiyinizi bildirdiniz. Ermənistanın baş naziri Paşinyanın isə adəti üzrə yalvardığını, bir çox dövlət başçısına zəng etdiyini vurğuladınız. Keçmiş təcrübələriniz əsasında bu dəfə başqa ölkələrin atəşkəs çağırışlarının nəticə verəcəyini düşünürsünüzmü?**

- Atəşkəs müəyyən şərtlərlə təmin edilməlidir. Çünki bu günə qədər bizə ünvanlanan çağırışlar, sadəcə bundan ibarətdir ki, atəşkəsi təmin edin, müharibəyə ara verin, ondan sonra müzakirələr davam etsin. Hansı müzakirələr davam edəcək, müzakirələr nəyin əsasında davam edəcək, bunlar bizə deyilmir. Biz bu müzakirələrdə artıq 30 ilə yaxındır ki, iştirak edirik və ümidlərlə iştirak edirdik. Əgər ümidlərimiz olmasaydı, təbii ki, bu müzakirələrdə iştirak etməzdik. Hər zaman müzakirələr mövcud olan prinsiplər əsasında gedirdi. Bu prinsiplərin arasında Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsi vardır. İşğal altında olan bölgələrin mərhələli şəkildə azad edilməsi, bizə qaytarılması, ondan sonra da sülhün təmin olunması məsələsi müzakirə mövzusu idi. Amma bugünkü Ermənistan bütün əvvəldən, bəri başdan əldə edilmiş prinsipləri pozaraq bizə qarşı yeni hücum təşkil etdi. Təbii ki, biz əks-hücum əməliyyatına keçib öz torpaqlarımızı Azərbaycan əsgərinin gücü ilə azad edirik. Ona görə sadəcə atəşkəsin bərpa edilməsi məsələsi müzakirə mövzusu ola bilməz. Bizim tələblərimiz var. Mən bunu artıq rəsmən bəyan etmişəm. Bizə çox ciddi zəmanətlər verilməlidir. Beynəlxalq vasitəçilər bizə bu zəmanətləri təsdiq etməlidirlər. Eyni zamanda Ermənistanın işğal edilmiş torpaqlardan çıxmaq qrafiki, yəni cədvəli bizə verilməlidir, hansı gün hansı bölgədən çıxacaq. Təbii ki, o zaman müharibə dayanacaq. Çünki biz istəyirik ki, bu məsələ sülh yolu ilə həll olunsun, amma həll olunsun. Bəzi vasitəçilər istəyirlər ki, sadəcə atəşkəs olsun. Atəşkəs isə 1994-cü ildən qüvvədədir. Bu illər ərzində niyə bu məsələ həll olunmadı? Birləşmiş Millətlər Təşkilatının qərarları niyə icra edilmədi? Təcavüzkar dövlətə sanksiyalar niyə tətbiq edilmədi? Bütün bu suallar havada qalır. Bu suallara cavab yoxdur. Bu gün Azərbaycanın şanlı Ordusu öz uğurlu əməliyyatlarını keçirərkən, bizim dədə-baba torpaqlarımızı azad edərkən bu çağırışlar gəlir ki, nəbadə irəliyə getməyin, ara verin. Müharibənin öz qaydaları, öz qanunları var. Hər günün öz əhəmiyyəti var, önəmi var. Biz ara versək, qarşı tərəf toparlanacaq, əlavə qüvvə yığacaq. Onsuz da onların çıxışlarında göstərilir ki, Ermənistanın xaricində yaşayan erməniləri də onlar bu müharibəyə cəlb edirlər. Beləliklə, bu müharibəni regional müstəvidən çıxarıb qlobal müharibəyə çevirmək istəyirlər. Ona görə bizim atəşkəslə bağlı sözümüz birdir. Biz buna hazırıq. Amma müəyyən şərtlər var ki, onları da mən açıqlamışam.

**- Açıqlamısınız. Zəmanət verilirsə dediniz, hansı zəmanəti nəzərdə tutursunuz?**

- Birinci zəmanət. Ermənistanın baş naziri bir il bundan əvvəl bizim torpaqlarımızda demişdi ki, "Qarabağ Ermənistandır", Azərbaycan xalqından üzr istəməlidir. İkincisi, o deməlidir ki, Qarabağ Ermənistan deyil. Üçüncüsü, Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir. Dördüncüsü, bəyan etməlidir ki, hansı gündə, hansı bölgədən Ermənistan silahlı qüvvələri çıxır. Bu şərtlər Minsk qrupunun həmsədrləri tərəfindən təsdiq edilməlidir. O halda təbii ki, atəşkəs bərpa olunacaq və beləliklə, bu məsələ müzakirə yolu ilə həll olunacaq, Azərbaycan xalqı öz doğma torpaqlarına qayıdacaq. Amma biz bilməliyik ki, bu, nə zaman olacaq. Çünki biz 30 ildir ki, gözləyirik, 30 il bizə verilən vədlər, deyilən sözlər həyatda reallaşmır, gerçəkləşmir. Azərbaycan xalqı artıq buna dözə bilmir, Azərbaycan dövləti dözə bilmir. Bizə konkret, real tarix deyilməlidir ki, onlar nə zaman hansı bölgədən çıxacaqlar.

**- İndi dediyiniz 30 il ərzində bu günə qədər bir çox söz verildi. Bundan sonra veriləcək sözə necə güvənəcəksiniz?**

- Elə onun üçün mən söyləyirəm ki, sözdən başqa, bizə konkret tarix verilməlidir. Əgər o tarixdə, - bilmirəm veriləcək, verilməyəcək, - veriləcək tarixdə Ermənistan silahlı qüvvələri bəlli olan bölgələrdən çıxmazsa, o zaman biz də atəşkəsə riayət etməyəcəyik.

**- Qarşıdurmalar daha böyük müharibəyə, böyük regional böhrana yol aça bilərmi? Narahatlığınız varmı?**

- Bunu onsuz da Ermənistan istəyir. Onların çirkin əməlləri buna hesablanıb. Biz hesab edirik ki, buna yol vermək olmaz. Bu müharibə Azərbaycanla Ermənistan arasında olan müharibədir. Bu müharibəni biz başlamamışıq. Biz bu müharibənin səbəbkarı deyilik. Biz, sadəcə olaraq, özümüzü müdafiə edirik və öz torpaqlarımızı geri istəyirik. Bizim Ermənistan torpaqlarında gözümüz yoxdur. İyul ayında Ermənistan-Azərbaycan sərhədində ermənilər tərəfindən başlanan qarşıdurmalar nəticəsində Azərbaycan Ordusu Ermənistan torpağına keçmədi, halbuki ora keçə bilərdik. Onlara çox güclü zərbələr endirdik və onlar da geri çəkildi. Bizim qarşımızda heç bir maneə, heç bir əngəl yox idi. Biz onu etmədik. Çünki mən söylədim ki, bizim Ermənistan Respublikasının torpaqlarında hər hansı bir hərbi hədəfimiz yoxdur. Ermənistan isə bu gün Azərbaycana Ermənistan ərazisindən hücum edir. Bax, dünən Gəncəyə zərbələr Ermənistan ərazisindən vuruldu, Mingəçevirə zərbələr vuruldu. Bizim orada böyük stansiyamız var. Mərmilərdən biri stansiyanın yanına düşdü. Doğrudur, onların mərmiləri elə mərmilərdir ki, - siz mühümmat deyirsiniz mərmilərə, - onların bəziləri partlamadı. Bəzilərini isə bizim hava hücumundan müdafiə qurğularımız havada məhv etdi. Onlar bizi bu təxribata çəkirlər ki, biz də Ermənistana hücum edək, Ermənistana zərbələr endirək. Ondan sonra da çıxıb bütün dünyaya desinlər ki, Azərbaycan bizə hücum edir, gəlin Ermənistanı xilas edin, yəni Ermənistanın canını qurtarın.

**- Ermənistanın beynəlxalq hüquqla çərçivələnmiş sərhədlərində bu hücumlar davam edərsə, vaxt gələrsə, yenə bugünkü mövqeyinizi qoruyacaqsınız, yoxsa..?**

- Bunu demək hələ tezdir. Biz qarşıdurmaların gedişinə baxacağıq. Hər halda bizə vurulan hər bir zərbənin mənbəyi bizim üçün qanuni hədəfdir, legitim hədəfdir. Biz bu hədəfləri vurmağa məcbur olacağıq. Bu gün Azərbaycan Ordusu yalnız hərbi hədəfləri vurur. Bu videogörüntülərdə artıq hər kəs üçün aydındır, hər kəs bunu görə bilir. Biz yalnız Ermənistanın işğalçı ordusuna qarşı döyüşürük. Mülki əhaliyə qarşı heç vaxt döyüşməmişik. Bu gün də etmirik və etməyəcəyik.

**- Qaşaltı Qaraqoyunluda gördüm, ikisi uşaq olmaqla, beş Azərbaycan vətəndaşı qətlə yetirildi. Azərbaycan Ordusunun 27 sentyabr erməni hücumlarına cavab verməsi ilə başlayan hərəkatın son hədəfi artıq bəllidir: Dağlıq Qarabağın Ermənistanın işğalından qəti şəkildə azad edilməsi, təmizlənməsi, boşaldılması. Siz ilk gündən etibarən dediniz ki, bundan sonra döyüşlər ancaq Azərbaycanın işğal altındakı torpaqlarından Ermənistanın qeyd-şərtsiz çıxması ilə dayandırılacaq. Hələ də eyni mövqedəsiniz, düzgünmü anlayıram?**

- Bəli, mənim mövqeyimdə hər hansı bir dəyişiklik yoxdur. Biz bu məsələni tarixi ədalət əsasında həll etməliyik. Tarixi ədalət onu deyir ki, Qarabağ qədim Azərbaycan torpağıdır və bütün tarixi sənədlər, bütün tarixi abidələrimiz bunu göstərir. Eyni zamanda biz həmişə müzakirə masasında çox müsbət davranış nümayiş etdirmişdik və müzakirə masasında olan təkliflər də bu məsələnin həllini mümkün edir. Orada göstərilir ki, mərhələli həll olmalıdır. İlk mərhələdə ermənilər beş bölgədən çıxır, sonrakı mərhələdə daha iki bölgədən çıxır, ondan sonra vaxtilə Dağlıq Qarabağın ərazisindən qovulmuş azərbaycanlılar Dağlıq Qarabağa qayıdır, o cümlədən Şuşaya qayıdır, iki toplum çərçivəsində artıq həyat bərpa edilir, Ermənistan-Azərbaycan arasındakı sərhəd açılır, ticarət başlanır, ondan sonra insanlar bir-biri ilə təmasa girirlər və beləliklə, sülh gələcək. Yəni bu, bizim mövqeyimizdir və bu, beynəlxalq vasitəçilərin, həmsədrlərin də münasibətidir. Ermənistan bunu qəbul etmir. Bundan əlavə, Ermənistanın müdafiə naziri bir neçə ay öncə demişdir ki, biz yeni torpaqlar uğrunda yeni müharibəyə başlamalıyıq.



**- Qısa adı ATƏT olan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk qrupunun 3 həmsədr ölkəsi var - Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa. Sizə atəşkəs çağırışı etdilər. Cavabınız dəyişdimi? Şərtiniz yerinə yetirilmədiyi təqdirdə, yəni işğal altındakı torpaqlardan ermənilərin çəkilmədikləri müddətdə hər hansı atəşkəs ehtimalı varmı?**

- Bizim mövqeyimizdə hər hansı bir dəyişiklik yoxdur. Mən bunu sizə bu gün bir daha dedim. Hətta biz ona da hazırıq ki, əgər bizə erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması tarixləri verilərsə, o zaman atəşkəs üzərində çalışmaq olar. Amma onu da bilməliyik ki, atəşkəsi bərpa etmək o qədər də asan məsələ deyil. Çünki atəşkəs birtərəfli bərpa edilmir və bu anda çox ciddi şiddətli döyüşlər gedir. Hər iki tərəf yerlərdə olan əsgər və zabitlərə təlimat verməlidir. Biri buna əməl edəcək, o biri əməl etməyə bilər. Yəni o, çox çətin bir prosesdir. Ancaq əgər o çıxma tarixi bizə verilərsə təbii ki, biz bu təlimatı verəcəyik. O zaman Minsk qrupunun həmsədrləri və digər ölkələr, mümkün olan ölkələr buna qoşularsa, atəşkəs bərpa oluna və beləliklə, bu döyüşlərə son qoyula bilər.

**- Mümkün olan ölkələr deyərkən nəyi nəzərdə tutursunuz?**

- Türkiyəni. Türkiyə güclü bir dövlətdir, dünya miqyasında böyük potensiala malik olan ölkədir, bizim qonşumuzdur, Ermənistanın qonşusudur, Cənubi Qafqazın qonşusudur. Ona görə təbii ki, Türkiyə bu işlərdə fəal olmalıdır və mən fürsətdən istifadə edərək bizim bütün türk qardaşlarımıza öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istəyirəm, başda əziz qardaşım, cənab Prezident Rəcəb Tayyib Ərdoğan olmaq şərtilə. Türkiyənin ilk saatlardan bizə göstərdiyi dəstək xüsusi önəmə malikdir. Bu, təkcə öz qardaşlarına verilən dəstək deyil. Odur ki, biz - bütün Azərbaycan xalqı buna görə dərin təşəkkür hissi ilə yaşayırıq. Eyni zamanda bu döyüşlərin daha böyük müstəviyə çıxmaması üçün Türkiyənin qəti münasibəti çox önəmlidir. Çünki Türkiyə dedi ki, biz Azərbaycanın yanındayıq, sona qədər Azərbaycanın yanındayıq. Azərbaycan haqq yolundadır, haqq-ədalət Azərbaycanın tərəfindədir və bu, bir çox başqa aktorlara da xəbərdarlıq oldu. Ona görə bundan sonrakı sülh prosesində Türkiyə mütləq olmalıdır. Təbii ki, sülh prosesi başlanacaq, müharibə daim aparıla bilməz və bu, nə qədər tez olsa, o qədər də yaxşıdır. Məhz bizim fikrimiz bundan ibarətdir və beləliklə, artıq bu bölgədə uzunmüddətli dayanıqlı sülh təmin edilə bilər.

**- Cənab Prezident, Minsk qrupunun həmsədrləri deyərkən Fransanı ayrı bir yerə qoyursunuz.**

- Fransa özünü ayrı yerə qoyur, mən qoymuram. Bütün prosesdə biz həmsədrlərə eyni gözlə baxmışıq və mən dəfələrlə rəsmi çıxışlarımda demişdim ki, hər bir ölkə ilə Azərbaycanın ayrı münasibətləri var, təbii ki, bu münasibətlərin səviyyəsi fərqlidir. Amma eyni zamanda bu məsələdə biz bu ölkələri bir-birindən ayırmırıq və bu ölkələr deməliyəm ki, bütün proses boyunca son olaylara qədər vahid bir mövqedən çıxış edirdi, bitərəf idi, yəni tərəf tutmurdu. Halbuki biz bilirdik ki, bəlkə də bunların ürəyində tərəftutma var. Bu da təbiidir. Amma rəsmi addımlarda və bizimlə təmaslarda heç zaman bunu göstərmirdilər.

**- Fransa prezidenti Makronu üzr istəməyə dəvət etdiniz.**

- Bəli, təbii, çünki bizə qarşı ittiham irəli sürdü. Olmayan şeyləri üstümüzə atdı. Bu, bizim ölkəmiz üçün qəbuledilməzdir.

**- Hansı ittihamları?**

- Deyib ki, Azərbaycan Türkiyə ilə birlikdə bölgəyə terrorçuları gətirib. Onun açıqlamasında bu var. Ondan sonra bir açıqlamasında demişdir ki, "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik". Dağlıq Qarabağ bizim torpağımızdır. Bir dövlət öz torpaqlarını fəth edə bilərmi? Yəni həmsədr bilmirmi ki, bu torpaqlarda qanunsuz olaraq ermənilər oturub bizim bütün tarixi abidələrimizi, məscidlərimizi, qəbirlərimizi, evlərimizi yerləyeksan ediblər. Ağdamın, Füzulinin görüntülərinə baxın. Bizim yarıdağılmış məscidlərimizdə donuz, inək saxlayır. Bütün müsəlmanları təhqir edir. Görmürlərmi bunu? Ona görə "Azərbaycan Dağlıq Qarabağı fəth etmək istəyir və biz buna icazə vermərik" sözləri qəbuledilməzdir. Ona görə Fransa özü-özünü artıq bu bərabər üçlüyün xaricinə qoyur və biz buna səssiz qala bilmərik.

**- Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının bu məsələ ilə bağlı tarixi qərarları var.**

- Təbii, özü səs vermişdi. Özü 1993-cü ildə səs vermişdi, yəni öz səsinə hörmət etsin.

**- İcazənizlə, daha bir neçə sualım olacaq. İstər cəbhə xəttinə uzanan quru yolları üzərində, istər olduğumuz şəhər və kəndlərə baxdığımızda, istərsə də paytaxt Bakıda dünən axşam gördük ki, Azərbaycan bayrağının yanında Türkiyənin bayrağı dalğalanır. Evlərdə, iş yerlərində, avtomobillərdə, hər yerdə. Türkiyədə də bənzər bir mənzərə var, bəlkə xəbərlərdə görmüsünüz. Cəbrayıldakı zəfərdən sonra Türkiyənin dörd bir yanında küçələrə axışıb qardaş Azərbaycana böyük dəstək nümayişləri var idi.**

- Doğrudur. Biz qürur duyuruq. Bu, təbiidir. Bizim qardaşlığımız əbədidir və bizim qardaşlığımız bütün sınaqlardan keçib. Bilirsiniz ki, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər dünya ölkələri üçün örnəkdir. Mən dəfələrlə bu mövzu ilə bağlı öz sözlərimi demişdim. Əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla təşkil olunan birgə mətbuat konfranslarında dəfələrlə demişəm ki, bu gün dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olan ikinci ölkə yoxdur və bu, sadəcə olaraq, söz deyildi. Bu, ürəkdən gələn duyğulardır. Bizim birliyimiz bizim tariximizə əsaslanır, ortaq etnik köklərə, dilimizə, dinimizə, qardaşlığımıza əsaslanır. Əziz qardaşım Tayyib bəylə tarixi xidmətimiz odur ki, biz çox güclü bir təməl üzərində müasir Türkiyə-Azərbaycan birliyini yaratdıq. Türkiyə bayraqları onsuz da Azərbaycanda hər yerdə var, Azərbaycan bayraqları da Türkiyədə. Biz bir-birimizi bir-birimizdən ayırmırıq, birlikdəyik. Bu hadisələr bir daha onu göstərdi ki, bizi ən çox dəstəkləyən, birinci dəstəkləyən Türkiyə olmuşdur, birmənalı şəkildə, qəti şəkildə. Türkiyə Prezidentinin çox cəsarətli və qəti açıqlamaları bir çox ölkələrə xəbərdarlıq oldu - kənarda durun, qarışmayın, Azərbaycan tək deyil, Türkiyə yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır! Bütün mövzularda, bütün kürsülərdə biz bir-birimizi dəstəkləyirik və bizim birliyimiz əbədi olmalıdır.

**- Bu arada Pakistanı da xatırlatmaq istəyirəm. Onların da bayraqlarını hər bir yerdə görürəm. Rusiya harada durur Sizcə? Çünki Rusiya xüsusi bir önəmə sahibdir.**

- Mən fürsətdən istifadə edərək bizim digər dost-qardaş ölkələrə də təşəkkürümü bildirmək istəyirəm. Türkiyədən sonra bizə ikinci dəstək verən ölkə Pakistan oldu, ondan sonra Əfqanıstan oldu, ondan sonra daha bir neçə ölkə bizə öz dəstəyini göstərdi. Onların hər birinə, o ölkələrin prezidentlərinə təşəkkürümü bildirirəm. Bu çətin dönəmdə təbii ki, onların həmrəyliyi, dəstəyi bizim üçün çox önəmlidir və bizə mənəvi güc verir.

Rusiya bizim qonşumuzdur. Rusiya ilə münasibətlərimiz uğurla inkişaf edir. Bu gün bir çox sahələrdə Rusiya ilə Azərbaycan arasındakı münasibətlər çox yüksək səviyyədədir. Hər iki ölkə bu münasibətlərə strateji tərəfdaşlıq münasibətləri kimi yanaşır və bu, birgə imzalanmış müqavilələrdə də öz təsdiqini tapır. Bu məsələ ilə bağlı Rusiya çox məsuliyyətli və böyük ölkə kimi davranır. Rusiyadan müsbət mesajlar gəlir və hər hansı bir tərəfi dəstəkləmək müzakirə mövzusu deyil. Halbuki Ermənistan buna çox ümid edirdi. Ermənistanın bu toqquşmanı bölgənin xaricinə çıxarmaq məqsədi də Rusiyanı buraya cəlb etməkdir. Ermənistan Azərbaycana hazırda Ermənistan ərazisindən niyə hücum edir? Məhz ona görə ki, biz də hücum edək, o da Rusiya ilə, başqa ölkələrlə birgə iştirak etdiyi Kollektiv Təhlükəsizlik Təşkilatı Müqaviləsinin baş katibliyinə müraciət etsin və desin ki, Azərbaycan bizə hücum edir, gəlin bizə yardım edin. İyul ayında, niyə onlar bu təxribatı Ermənistan-Azərbaycan sərhədində törətdilər? Tovuz Qarabağ bölgəsindən uzaq məsafədə yerləşir. Orada onların hansı hədəfləri var idi - bir hədəfi ki, biz hücum edək, biz dövlət sərhədini keçək, - mən dedim bizdə belə bir fürsət var idi, - və ondan sonra müraciət etsin o təşkilata ki, gəlin bizimlə bərabər Azərbaycana qarşı vuruşun. Yəni Rusiyanı bu işlərə cəlb etmək istəyir və bu, növbəti təxribatdır, mən əminəm ki, buna müvəffəq olmayacaq.

**- İyul ayında Ermənistan Tovuza hücum edərkən daha başqa bir şeyi hədəfləmiş ola bilərdimi? Misal üçün, hədəfdə enerji təhlükəsizliyini zəiflətmək ola bilərdimi? TANAP, Bakı-Tbilisi-Ceyhan xətləri ağlıma gəlir.**

- Bəli, təbii ki, o da ola bilərdi. Bir neçə hədəfi var idi. Çünki ondan öncəki dönəmdə bəyan etmişdilər ki, əgər Dağlıq Qarabağ ətrafında döyüşlər olarsa, onlar bizim strateji infrastruktur layihələrimizi vurmağa hazırdırlar - Səngəçal Neft-Qaz Terminalı və boru xətti. Ona görə Tovuz bölgəsində hücumun bir məqsədi də o idi ki, onlar test edirdilər, haraya qədər girə bilərlər. Çünki orada onların əsas məqsədi dövlət sərhədini keçmək, Azərbaycan torpaqlarını işğal etmək və həmin TANAP boru xəttinə yaxınlaşmaq, yaxud da ki, onu nəzarətə almaq idi. Ancaq bu, alınmayanda geri çəkildilər, bütün vasitəçilərdən imdad dilədilər. Mən də söylədim ki, Ermənistan torpaqlarında bizim hədəfimiz yoxdur. Ona görə dörd gündən sonra hücum dayandı.

Başqa bir səbəb ola bilər. Mən bununla bağlı öz fikirlərimi bildirmişdim. Hazırda Ermənistanda çox dərin böhran yaşanır, həm siyasi, həm iqtisadi. Bu böhran nəticəsində Ermənistanda siyasi əlaqələr pozulub. Çünki indi Paşinyan hakimiyyəti əsas müxalifət liderlərini həbsə atdırır. Misal üçün, əsas müxalifət partiyasının sədrini deputat toxunulmazlığından məhrum etdi, həbsə atdı. İki keçmiş prezidentə qarşı cinayət işi açıldı. Söz azadlığı, sərbəst toplaşma azadlığı yoxdur. Konstitusiya Məhkəməsini zor gücü ilə məhv etdi, öz adamlarını gətirdi. Ona görə Ermənistanın daxilində artıq çox ciddi bir narahatlıq var. Paşinyan ictimai fikri yayındırmaq üçün bu hücumu təşkil edir. Rusiyanı cəlb etmək, strateji infrastrukturumuzu məhv etmək, daxildəki vəziyyəti sabitləşdirmək və Azərbaycan torpaqlarının bir qismini işğal etmək və ondan sonra müzakirələrdə öz mövqeyini gücləndirmək.

**- Hörmətli Prezident, icazənizlə son iki sualımı vermək istərdim. İndi bu cür münaqişə, savaş və böhranların olduğu bölgələrdə qara təbliğat da meydana çıxır. Ermənistan hücumlarını başladığı gündən etibarən bu mövzuda - qara təbliğat mövzusunda nə kimi müşahidələriniz oldu. Dəyərləndirmənizi xahiş edə bilərəmmi?**

- Bilirsiniz, Azərbaycana qarşı qara təbliğat bir dəqiqə, bir saniyə dayanmır. Bunun bir neçə səbəbi var. Birincisi, erməni lobbisi bizə qarşı daim hərəkətdədir. Azərbaycanı qaralamaq, bizim üstümüzə ləkə atmaq, bizim imicimizi korlamaq səyləri dayanmır. Dünyanın bir çox ölkələrində erməni lobbiləri var. Bu, heç kəs üçün sirr deyil. Müntəzəm olaraq mütəmadi qaydada bizə hücum edirlər. Olmazın yalanlarını, iftiralarını uydururlar. Bu münaqişə dönəmində təbii ki, erməni lobbisi bütün gücünü səfərbər edib və bizə qarşı yeni qara təbliğat səylərini ortaya qoyubdur. Ancaq bizə yapışmır. Mən demişəm, dəlil verin, sübut verin, fakt verin. O cümlədən Fransa prezidentinə, - o, mənə telefonla iki dəfə zəng etmişdi, - dedim ki, fakt verin. Sentyabrın 27-dən artıq 8 gün keçir.

**- Makron nə deyir?**

- Heç nə demir, deyir ki, bizdə kəşfiyyat məlumatı var. Dedim verin bizə, haradadır bu kəşfiyyat məlumatı? Yoxdur bu, ola da bilməz.

**- Sizin kəşfiyyatınız Ermənistanla bağlı nə deyir?**

- Hansı mövzuda?

**- Əlinizdəki kəşfiyyat materiallarında Ermənistandakı xarici güclərdən bəhs edilir. Livandan, Suriyadan gələn...**

- Bizdə təbii ki, belə məlumatlar var və bu məlumatlar əsaslıdır, artıq onlar dəqiqləşdirilir. Biz çox məsuliyyətli dövlət olduğumuz üçün rəsmi bəyanatlarda buna toxunmuruq. Təbii ki, mediada, ondan sonra siyasətçilər, politoloqlar arasında belə məlumatlar dolaşır. Amma biz bunu gərək təsdiqləyək. Bizdə əvvəldən kəşfiyyat məlumatı var idi ki, Dağlıq Qarabağa terrorçular gətirilib yetişdirilir, onlara təlim keçilir.

**- Hansı terror qruplaşmaları?**

- PKK terror qruplaşmaları. Bu barədə çoxlu məlumatlar var idi. Hələ bir neçə il bundan öncə biz bu məsələni beynəlxalq platformalarda qaldırırdıq. Onlar təlim alır və istisna edilmir ki, bu gün də var. Sadəcə olaraq, mənim əlimdə yüzdə yüz fakt olandan sonra bunu deyəcəyəm. Bu gün ehtimal çox böyükdür. Amma Ermənistandan və bəzi başqa ölkələrdən fərqli olaraq biz 100 faiz təsdiqini tapmamış məlumatı ortaya atmırıq.

Bir misalı da gətirə bilərəm, bizə qarşı iddia qaldırdı ki, Türkiyənin F-16 təyyarəsi Ermənistanın SU-25 təyyarəsini vurdu. Dedim ki, sübut verin. Bizdə məlumat var, bunu bütün bu qara təbliğatın üzvləri ortaya atdılar. İndi özləri gördülər ki, bu, yoxdur. Amma bir adam bizdən üzr istədimi? Xeyr. Bizə böhtan atdılar, ləkə vurdular, ondan sonra gördülər ki, bu, yalandır. Amma üzr istə.

**- Bəli, silahlı pilotsuz uçuş aparatlarının Azərbaycan Ordusunun sərəncamına verilməsi yanılmıramsa, bu hərəkatın gedişinə çox təsir etdi.**

- Doğrudur. Bunun çox böyük təsiri var. Maşallah, bu silahlı uçuş aparatları dünyanın ən yüksək səviyyəsində olan aparatlardır və onların Azərbaycan Ordusunda olması bizim ordumuzu böyük dərəcədə gücləndirmişdir. Bu aparatlar bizə böyük imkanlar yaratdı və eyni zamanda canlı qüvvə itkisinin çox da böyük olmamasına gətirib çıxardı. Çünki əgər bu imkanlar bizdə olmasaydı, Ermənistanın Dağlıq Qarabağda və işğal edilmiş torpaqlarda 30 il ərzində qurduğu istehkamları, tankları, topları, yaylım atəş qurğularını məhv etmək daha çətin ola bilərdi. Daha çox insan həlak ola bilərdi. Ona görə bu mükəmməl texnoloji intellektual məhsul Türkiyə xalqının potensialını göstərir. Biz o ölkəyik ki, bizim Türkiyə kimi müttəfiqimiz var. Biz çox xoşbəxt ölkəyik ki, bizim Türkiyə kimi müttəfiqimiz, qardaşımız var. Əlbəttə ki, Türkiyənin bizə göstərdiyi mənəvi dəstək, eyni zamanda Türkiyə müdafiə sənayesinin məhsullarının bizdə olması bizi gücləndirir və bunu bütün dünya görür. Bu gün Türkiyə Ordusu NATO-da ikinci ordudur. Heç kim türk ordusunun qabağında dura bilməz. Bunu hər kəs gördü, hər kəs anladı. Biz də Türkiyə Ordusunun daha kiçik modelini qururuq və inşallah, bərabər quracağıq. Bizim də qarşımızda bölgədə heç kim dura bilməz. Bizim və Türkiyənin işi haqq işidir. Biz özümüzü müdafiə edirik, öz vətəndaşlarımızı müdafiə edirik, öz ərazi bütövlüyümüzü saxlamaq istəyirik. Bizim başqa ölkənin torpağında gözümüz yoxdur. Amma bizə mənsub olan bizə qalmalıdır. Otuz ildir ki, ermənilər bizim qədim torpağımızı istismar edirlər. İnsanlara o torpaqlara qayıtmağa icazə vermirlər. Beynəlxalq vasitəçilər biganə qalır, məhəl qoymur. Belə olan halda Azərbaycan özü bunu edəcək.

**- Gəncəyə hücumda bir erməni vətəndaşınızın yaralandığı məlumatını paylaşdım. Bu arada cəbhədə gecə və gündüz müşahidə aparmaq imkanımız oldu, komandirlər Sizin onlara telefonla zəng etdiyinizi bizə söylədilər.**

- Bəli, təbii ki, bu, Ermənistanın terrorçu ölkə olmasını bir daha göstərir. Yəni bu Cenevrə Konvensiyasına daban-dabana zidd olan bir hərəkətdir. Yəni mülki əhalini, şəhərləri vurmaq qəbuledilməzdir. Gəncə şəhəri döyüş bölgəsi deyil. Gəncə şəhərinin içərisində hər hansı bir top, tank yoxdur. Niyə bunu vurursan? Yəni nifrətə görə. Azərbaycana, Türkiyəyə qarşı nifrət onların qanındadır. Əfsuslar olsun ki, Ermənistanın gənc nəsli də bu nifrət əsasında tərbiyə edilir. Ancaq bu, bizi yolumuzdan döndərə bilməz. Bilirsiniz, Tərtər şəhərini demək olar ki, dağıdıblar. Tərtər şəhərində bizim vətəndaşlar kişi kimi, mərd-mərdanə durublar. Deyiblər ki, öldü var, döndü yoxdur, torpağımızdan heç yerə getməyəcəyik. Nə qədər mərmi düşüb? Gün var idi ki, təkcə Tərtər şəhərinə iki min mərmi düşdü. O da balaca bir şəhərdir, böyük şəhər deyil.

O ki qaldı, mənim komandirlərə telefonla zəng etməyimə, təbii ki, onlar tarixi ədaləti bərpa edirlər. Onlar öz həyatlarını risk altında qoyurlar. Onlar qəhrəmandırlar və onlar torpaqlarımızı xilas edirlər, azad edirlər, qaytarırlar. Madagizin işğaldan azad edilməsi çox böyük strateji önəm daşıyır. Qəsəbə o qədər böyük olmasa da, bunun strateji önəmi çox böyükdür. Oranı götürmək çox çətin bir işdir. Bunu hər bir hərbçi deyər. İnanılmaz çətin bir işdir. Amma o götürüldü, Madagizdə indi Azərbaycan bayrağı qaldırıldı və həmin gün o qəsəbəyə tarixi adı qaytarıldı - Suqovuşan. Bu, bizim tarixi adımızdır.

Cəbrayıl şəhərini götürmək böyük qəhrəmanlıq tələb edir. Çünki bir daha demək istəyirəm ki, bu 30 il ərzində, atəşkəs rejimi dönəmində orada bir neçə xətt istehkam quruldu, özü də çox möhkəm. Bir də ki, o bölgənin relyefi də təbii istehkamdır. Yəni Dağlıq Qarabağ dağlarda yerləşir. Yəni biz aşağıdan yuxarıya gedirik. Bunun nə qədər çətin olduğunu hər kəs anlayar. Ona görə Azərbaycan əsgəri, Azərbaycan zabiti, generalı şücaət, rəşadət, cəsarət göstərir, canı, qanı bahasına ərazi bütövlüyümüzü təmin edir. İnşallah, sona qədər irəliyə gedəcəyik.

**- Qarabağ, işğal edilən torpaqlar yenidən Azərbaycana qaytarılandan sonra orada yaşayan ermənilərə nə deyəcəksiniz?**

- Mən artıq öz sözümü dedim. Mən bir neçə gün bundan öncə bizim yaralı əsgərlərimizin yanına getdim, hərbi hospitalda onlarla görüşdüm. Onlara təşəkkürümü bildirdim və eyni zamanda onlarla görüş əsnasında erməni xalqına müraciət etdim. Anlayırdım ki, onların yanında bunu demək o qədər də asan deyil, çünki onlar ermənilər tərəfindən vurulub. Amma dedim ki, bizim erməni xalqı ilə işimiz yoxdur. Erməni xalqı öz hökumətini məsuliyyətə cəlb etməlidir. Öz hökumətinin yarıtmaz, çirkin siyasətinin nəticəsində bu döyüşlər baş verdi. Bizim mövqeyimiz dəyişməzdir. Torpaqlarımız azad olunandan, işğala son qoyulandan sonra Dağlıq Qarabağda yaşayan ermənilər və oraya qayıdacaq azərbaycanlılar bir yerdə yaşayacaqlar. İki toplum çərçivəsində, bir ölkə ərazisində. Bu gün Azərbaycanda minlərlə erməni var. Siz də qeyd etdiyiniz kimi, Gəncədə Ermənistanın hücumu nəticəsində yaralanmış insanlardan biri də milliyyətcə ermənidir. Burada ermənilər yaşayır. Onlara söz deyən yoxdur. Onlar bizim vətəndaşlarımızdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur. Erməni xalqı öz hakimiyyətinin əsiridir. Təəssüflər olsun ki, Paşinyan hakimiyyəti iqtidara gələndə çox vədlər verdi. Biz də ümid edirdik ki, artıq o köhnə kriminal rejim tarixə atıldı. Amma bunun yerinə yeni rejim gəldi, o rejim ki, artıq öz xalqını bəlaya saldı. O rejim ki, indi bizim mülki insanlarımızı, əsgərlərimizi öldürür. Mən tam əminəm ki, erməni və Azərbaycan xalqları barışacaq. Bu gün bir çox ölkələrdə ermənilər və azərbaycanlılar bir yerdə yaşayırlar. Gürcüstanda, orada 300 minə yaxın azərbaycanlı, 200 minə yaxın erməni var. Bəzən onlar bir kənddə yaşayırlar. Onların arasında problem yoxdur. Türkiyədə, Rusiyada, - Rusiya vətəndaşı olan azərbaycanlıların sayı 700 minə yaxındır, - bir yerdə yaşayırlar. Heç bir problem yoxdur. Nə üçün burada yaşamasınlar? Onsuz da yaşayıblar bir yerdə. Mənim xatirəmdədir, 1982-ci ildə mərhum atamla birlikdə Dağlıq Qarabağa - Şuşaya getmişdik. Bizim böyük şairimiz Vaqifin məqbərəsi açılırdı. Bu məqbərənin açılışı mərasimində erməni və Azərbaycan şairləri şeirlər deyirdilər, Azərbaycan dilində, erməni dilində. O, bir dostluq bayramı idi. Yəni o, mənim şahidi olduğum mənzərədir. Bizim Bakı şəhərində ermənilər yaşayırdı. Yəni bizim heç bir problemimiz yox idi. Biz istəyirik ki, yenə də birlikdə yaşayaq. Yenə də Ermənistanla yaxşı qonşular kimi yaşayaq. Dağlıq Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Biz onları belə tanıyırıq. Ümid edirəm ki, bu işğalçı siyasətə son qoyulandan sonra bizim xalqlarımız barışacaq.

**- Mərhum atanızın sizə Dağlıq Qarabağla bağlı vəsiyyəti olubmu, olubsa nə idi?**

- Atamın yolu mənim üçün bir işıq yoludur. Onun siyasətini davam etdirmək mənim onun oğlu kimi və Prezident kimi borcumdur. Mən ilk dəfə prezident seçiləndə andiçmə mərasimində dedim ki, Heydər Əliyev yolu ilə gedəcəyəm, bu yoldan dönməyəcəyəm və bu yolun Azərbaycan üçün yeganə yol olduğunu demişdim. Bütün sahələrdə - istər xarici siyasət sahəsində, istər iqtisadiyyat, sosial, o cümlədən Dağlıq Qarabağ məsələsində bu yola sadiqəm. Çünki ona da təzyiqlər olmuşdur. Onun dövründə də təzyiqlər olmuşdu ki, Dağlıq Qarabağa müstəqillik verin, Dağlıq Qarabağ sizdən ayrıldı, sizdən qopdu. O, təzyiqlərə tab gətirdi, dözdü. Azərbaycan xalqının maraqlarına zidd olan heç bir sənədə qol qoymadı. Çünki o, xalqımızın Lideri idi. Qarabağ məsələsində mənim də mövqeyimdə heç vaxt tərəddüd olmamışdır. Mən 17 il bundan əvvəl nəyi demişəmsə, bu gün də deyirəm - Dağlıq Qarabağ bizim torpağımızdır, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir! Mən heç zaman imkan verməyəcəyəm ki, tarixi Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaradılsın. Bütün imkanlardan istifadə edib öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz buna yaxınlaşırıq.

**- Bir millətin iki dövlətindən Azərbaycanın Prezidenti cənab İlham Əliyevə çox təşəkkür edirəm. Belə bir vəziyyətdə, müharibə şəraitində bizi qəbul etdiniz. Bir Ali Baş Komandan olaraq sağ olun.**

- Mən təşəkkür edirəm və şadam ki, bizim söhbətimizin sonunda siz atamın çox məşhur kəlamını yada saldınız, Heydər Əliyevin sözləridir və indi bütün Türkiyə-Azərbaycan üçün bir işıq yoludur - "Bir millət, iki dövlət". Türkiyə-Azərbaycan - tək millət, iki dövlət.

**- Çox təşəkkür edirəm.**

- Sağ olun. Təşəkkürlər.

# Milli Məclisin Sədri Türkiyənin Azərbaycandakı səfiri ilə görüşüb



Oktyabrın 5-də Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoralla görüşüb. Bu barədə AZƏRTAC-a parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Milli Məclisin Sədri deyib ki, Ermənistanın Azərbaycana qarşı təxribatlarının başlamasının ilk dəqiqələrindən Prezident Rəcəb Tayyib Ərdoğan birmənalı mövqe ortaya qoydu, Türkiyə xalqının və dövlətinin Azərbaycanın yanında olduğunu bildirdi. “Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop şəxsən mənə zəng edərək öz dəstəyini ifadə etdi, Xarici İşlər naziri Mövlud Çavuşoğlu, Milli Müdafiə naziri Hulusi Akar öz mövqelərini ortaya qoydular”, - deyə Sədr diqqətə çatdırıb.

Milli Məclisin Sədri Azərbaycana verilən bu dəstəyə görə Türkiyə xalqına, dövlətinə və rəsmilərinə dərin təşəkkürlərini çatdırmağı səfirdən xahiş edib. Sədr Türkiyə Böyük Millət Məclisində təmsil olunan 4 siyasi partiyanın da Ermənistanın ölkəmizə qarşı təxribatlarını pisləyən Birgə Bəyanatla çıxış etməsini yüksək qiymətləndirdiyini ifadə edib. Milli Məclisin Sədri TBMM Sədrinə yazdığı məktubda siyasi partiyaların bu dəstəyinə görə təşəkkürünü bildirdiyini diqqətə çatdırıb. Qeyd edib ki, Türkiyənin ölkəmizə hərtərəfli dəstəyi Ulu Öndər Heydər Əliyevin dediyi kimi, “bir millət, iki dövlət” fəlsəfəsinə uyğundur.

Sahibə Qafarova Ermənistanın təxribatları ilə bağlı Türkiyənin televiziya kanallarının mütəmadi verilişlər hazırladığını, “TRT Haber”in ondan müsahibə aldığını da xatırladıb. Sədr Türkiyə Böyük Millət Məclisinin Parlamentlərarası İttifaqdakı nümayəndə heyətinin rəhbəri, deputat Ravza Kavakçının da telefon zəngini və ölkəmizə verdiyi dəstəyi yüksək qiymətləndirdiyini qeyd edib.

Bu görüşdən və Milli Məclisin Sədrinin sözlərindən dərin məmnunluq duyduğunu bildirən Erkan Özoral diqqətə çatdırıb ki, Qafqaz İslam Ordusunun 100 illiyinin və Azərbaycanın Dağlıq Qarabağın azad edilməsi uğrundakı zəfər yürüşünün onun səfir olduğu dövrə təsadüf etməsinə görə özünü çox şanslı hesab edir. Səfir Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəkkürlərini Türkiyə xalqına, dövlətinə və rəsmilərinə çatdıracağını qeyd edib. Bildirib ki, Azərbaycan Türkiyənin qardaşıdır, Türkiyə qardaşlıq borcunu yerinə yetirir və bundan sonra da bu istiqamətdə addımlarını atmağa davam edəcək.

Söhbətin sonunda ən qısa müddətdə Azərbaycan Ordusunun qələbə xəbərlərinin eşidiləcəyinə əminlik ifadə olunub.

# Milli Məclisin bu gün keçiriləcək iclasının gündəliyi açıqlanıb

Azərbaycan Milli Məclisinin oktyabrın 6-da keçiriləcək iclasının gündəliyi açıqlanıb.

AZƏRTAC xəbər verir ki, iclasın gündəliyinə 18 məsələ daxil edilib:

- “Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında” Azərbaycan Respublikası qanununun layihəsi barədə;
- “Azərbaycan Dəmir Yollarının 140 illiyi (1880-2020)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş);
- “Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin 10 illiyi (2012-2022)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş);
- Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş);
- “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş);
- Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş);
- “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş);
- “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş);
- “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş);
- Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş);
- Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” və “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş);
- Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş);
- Azərbaycan Respublikasının Əmək Məcəlləsində, “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Təhsil haqqında”, “Məktəbəqədər təhsil haqqında”, “Peşə təhsili haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş);
- Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş);
- “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş);
- “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş “Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı”nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında;
- “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş);
- “İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında” Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

# Milli Məclisin Regional məsələlər komitəsinin iclası keçirilib

Oktyabrın 5-də Milli Məclisin Regional məsələlər komitəsinin növbəti iclası keçirilib. İclası komitə sədri Siyavuş Novruzov açıb.

AZƏRTAC xəbər verir ki, sonra Dağlıq Qarabağ bölgəsində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində yaranmış vəziyyət barədə fikir mübadiləsi aparılıb. Ermənistanın Azərbaycana qarşı təxribatları pislənilib. Bildirilib ki, Azərbaycan Ordusunun yüksək döyüş hazırlığı nəticəsində bu təxribatların qarşısı uğurla alınıb. Azərbaycan əsgərləri yüksək şücaət nümayiş etdirərək Dağlıq Qarabağda hərbi baxımdan əhəmiyyətli yüksəklikləri ələ keçirib, Tərtər, Füzuli rayonlarının bir sıra kəndlərini, Cəbrayıl şəhərini və rayonun bəzi kəndlərini düşməndən azad ediblər. Komitə sədri bu münasibətlə Ali Baş Komandanı, xalqımızı, o cümlədən deputatlarımızı təbrik edib.

Deputatlar bu günlərdə Azərbaycanın döyüş bölgəsindən kənarda yerləşən Gəncə və Mingəçevir şəhərlərinin Ermənistan silahlı qüvvələri tərəfindən raket hücumuna tutulmasını şiddətlə qınayıblar, rəşadətli Azərbaycan Ordusunun düşmənə layiqli cavab verdiyini bildiriblər. Azərbaycanın işğal altında olan torpaqlarının Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tezliklə azad ediləcəyinə əminliklərini vurğulayıblar.

Sonra Siyavuş Novruzov iclasın gündəliyi barədə məlumat verib. Qeyd edilib ki, gündəlikdəki qanun layihəsi ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan adlandırılması haqqında qanun layihəsidir. Layihəyə əsasən Azərbaycan Respublikasının Tərtər rayonunun Çayçı kənd inzibati ərazi dairəsi tərkibindəki Madagiz kəndi Suqovuşan kəndi adlandırılır. Azərbaycan torpaqları işğaldan azad edilir, bu ərazilərdən biri də Magadiz kəndidir. Tarixi adı Suqovuşan olan bu kəndin adı da ermənilər tərəfindən dəyişdirilmişdi. Prezident İlham Əliyev tərəfindən Suqovuşanın tarixi adı bərpa edilir və bu, xalqımızın ürəyindən xəbər verən tarixi bir addımdır. Qeyd edilib ki, Milli Məclis Sədri Sahibə Qafarovaya parlamentin inzibati binasında mövcud olan görüş otaqlarının və iclas salonlarının adlandırılması haqqında imzaladığı sərəncama görə minnətdarlığımızı bildiririk. Bu gün biz bu məsələni Milli Məclisin Qarabağ zalında müzakirə edirik.

Sonra komitə sədrinin müavini Elşən Musayev, deputatlar Səttar Möhbalıyev, Tahir Rzayev, Cavid Osmanov, Səbinə Xasayeva, Malik Həsənov öz çıxışlarında Dağlıq Qarabağda baş verən son hadisələrə münasibət bildiriblər. Qeyd edilib ki, Azərbaycan bu gün öz əzəli, beynəlxalq səviyyədə tanınmış torpaqları uğrunda mübarizə aparır. Deputatlar bu haqq işində şanlı Ordumuza uğurlar diləyiblər.

Müzakirələrdən sonra qanun layihəsi parlamentin plenar iclasına tövsiyə edilib.

# Milli Məclisin Səhiyyə komitəsinin növbəti iclası keçirilib

Oktyabrın 5-də Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə komitəsinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Komitənin sədri Əhliman Əmiraslanov əvvəlcə torpaqlarımızın işğaldan azad olunması istiqamətində Ordumuzun uğurlarından söz açıb, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və siyasi iradəsi ilə beynəlxalq hüquq çərçivəsində aparılan zəfər yürüşünün davam etdiyini vurğulayıb.

İclasda Qarabağ uğrunda gedən döyüşlərdə həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Əhliman Əmiraslanov bildirib ki, komitə üzvləri könüllü olaraq bir aylıq maaşlarının Silahlı Qüvvələrə Yardım Fonduna köçürülməsi barədə yekdil qərar qəbul ediblər.

Səhiyyə komitəsinin iclasında “İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında” qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılıb. Gündəlikdəki məsələ barədə məlumat verən komitə sədri birinci oxunuş zamanı səslənmiş təkliflərə münasibət bildirib.

Sonra müzakirələr başlanıb.

İclasda ekspert qismində iştirak edən Tibb Universitetinin, Mərkəzi Klinik Xəstəxananın və Mərkəzi Gömrük Hospitalının təmsilçiləri - professorlar Nuru Bayramov, Kamran Musayev və tibb üzrə fəlsəfə doktoru Mircəlal Kazımi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin nümayəndəsi Vüqar Qurbanov qanun layihəsi ilə bağlı rəy və təkliflərini diqqətə çatdırıblar. Belə mükəmməl qanun layihəsi hazırladıqlarına görə Səhiyyə komitəsinin üzvlərinə təşəkkürlərini bildiriblər.

Daha sonra komitə sədrinin müavini Rəşad Mahmudov, deputat Kamaləddin Qafarov transplantasiya ilə əlaqədar müxtəlif məsələlərə toxunublar.

Çıxışları komitə sədri Əhliman Əmiraslanov yekunlaşdırıb. Qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# *Prezidentin köməkçisi Hikmət HACIYEV:* “Ermənistanın Azərbaycana qarşı son hücumları onun dövlət səviyyəsində həyata keçirdiyi terror siyasətinin göstəricisidir”

Biz Ermənistanın Azərbaycana qarşı son hücumlarını qəti şəkildə pisləyirik. Bu, Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi terror siyasətinin göstəricisidir. Bu əmrlər bilavasitə Ermənistanın siyasi-hərbi rəhbərliyinin tapşırığı ilə həyata keçirilir. Burada da beynəlxalq hüquqa əsasən, Ermənistan siyasi rəhbərliyində və qondarma qurumun rəhbərliyində olan şəxslər məsuliyyət daşıyır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri oktyabrın 5-də keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, ermənilər tərəfindən hədəfə alınan yerlər arasında hərbi obyektlər yoxdur. Bu hücumlar məqsədyönlü şəkildə həyata keçirilir, artıq uzaqmənzilli raketlərdən də istifadə edilir. Bu raketlər artıq Xızı şəhərinə qədər gəlib çıxıb. Bu, Ermənistan dövlətinin terrorçu əməllərini göstərir. Ermənistan tərəfi öz uğursuzluqlarını ört-basdır etmək üçün bu cür addımlar atır.

* * *

Xain düşmənimizdə hər hansı etik qayda yoxdur. Ölkəmizə qarşı müharibə siyasəti çox eybəcər şəkildə aparılır. Biz Ermənistanın Azərbaycana qarşı son hərbi təcavüzündə bunun bir daha şahidi olduq. Silahlı Qüvvələrimiz də onların layiqli cavablarını verir və verəcək.

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 5-də keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, Azərbaycan cəmiyyəti, vətəndaşlarımız ən güclü şəkildə səfərbərdir. Biz işğal altındakı torpaqlarımızın azad olunması istiqamətində fəaliyyətimizi davam etdiririk. Bu gün hər birimiz qürur hissi duyuruq. Ali Baş Komandanın rəhbərliyi ilə hər bir Azərbaycan vətəndaşı tarixi, hüquqi əsaslarla öz torpaqlarının işğaldan azad edilməsini istəyir. Bizim işimiz haqq işidir. Qarabağ bizimdir!

* * *

Ermənistanın uzaqmənzilli raketlərdən istifadə etməsi münaqişənin daha da gərginləşməsinə xidmət edən amillərdəndir.

AZƏRTAC xəbər verir ki, bunu oktyabrın 5-də keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

Prezidentin köməkçisi qeyd edib ki, bu raketlərin trayektoriyasına baxılmalıdır. Həmin raketlərin məsafəsi və trayektoriyası onların Xızıya qədər gəlib çıxdığını göstərir. Bu, açıq-aşkar Ermənistanın acizliyinin, çarəsizliyinin göstəricisidir. Ermənistan bu kimi təxribatlara öz uğursuzluğunu ört-basdır etmək üçün əl atır.

* * *

Bu gün hamımız səfərbərik. Hamımızın bir amalı var ki, işğal altında olan torpaqlarımız işğaldan azad edilsin.

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 5-də keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi bildirib ki, bu gün ermənilər döyüş meydanında ümidsiz və çarəsiz vəziyyətdədirlər. Son hadisələri hərbi və siyasi təxribat kimi qiymətləndiririk. Onlar üçüncü tərəfləri münaqişəyə cəlb etməyə çalışırlar. Azərbaycan tərəfi bunu çox gözəl bilir, bununla bağlı beynəlxalq təşkilatlara, ölkələrə də məlumat verib.

* * *

Azərbaycanın mülki əhalisinə qarşı hücumlara görə Ermənistanın siyasi-hərbi rəhbərliyi və qondarma rejimin rəhbərliyi məsuliyyət daşıyır. Bütün bunların törədilməsində məqsəd Azərbaycan xalqını təşvişə salmaqdır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri oktyabrın 5-də keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Prezidentin köməkçisi bildirib ki, bu, vandalizm aktıdır, barbarlıqdır. Ermənistanın istifadə etdiyi raketlər çox köhnədir və ona görə də hədəfə çata bilmir. Amma bəzi raketlər hədəfə çatır və mülki əhali zərər çəkir. Bu zərbələrin bir çoxu Ermənistan ərazisindən həyata keçirilir. Bu, beynəlxalq hüquqa ziddir və Ermənistan tərəfindən Azərbaycana qarşı növbəti müharibə, təcavüz aktıdır. Bu, Ermənistan rəhbərliyinin sivil qaydalardan nə qədər uzaq olduğunu bir daha göstərir. Onlar riyakarlıq nümayiş etdirərək Azərbaycanda mülki əhalini yenidən hədəfə alırlar.

* * *

Bu gün biz xain, alçaq düşmənlə üzüzəyik. Lakin hər bir Azərbaycan vətəndaşı möhkəmdir. Ermənistanın məqsədi Qarabağ cəbhəsindəki uğursuzluqlarını kompensasiya etməkdir. Onlar Azərbaycan vətəndaşlarına qorxu aşılamağı qarşılarına məqsəd kimi qoyublar, amma buna heç vaxt nail ola bilməyəcəklər.

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 5-də keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycana qarşı 30 ildir elan edilməmiş bu təcavüz siyasəti artıq elan olunmuş şəkildə davam edir. Bu gün hər bir



vətəndaşımız qəhrəmanlıq salnaməsi yazır. Bizim işimiz haqq işidir. Biz beynəlxalq hüququn norma və prinsipləri əsasında bu fəaliyyəti həyata keçiririk.

* * *

Xain düşmənimizdə hər hansı etik qayda yoxdur. Ölkəmizə qarşı müharibə siyasəti çox eybəcər şəkildə aparılır. Biz Ermənistanın Azərbaycana qarşı son hərbi təcavüzündə bunun bir daha şahidi olduq. Silahlı Qüvvələrimiz də onların layiqli cavablarını verir və verəcək.

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 5-də keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, Azərbaycan cəmiyyəti, vətəndaşlarımız ən güclü şəkildə səfərbərdir. Biz işğal altındakı torpaqlarımızın azad olunması istiqamətində fəaliyyətimizi davam etdiririk. Bu gün hər birimiz qürur hissi duyuruq. Ali Baş Komandanın rəhbərliyi ilə hər bir Azərbaycan vətəndaşı tarixi, hüquqi əsaslarla öz torpaqlarının işğaldan azad edilməsini istəyir. Bizim işimiz haqq işidir. Qarabağ bizimdir!

* * *

Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycana qarşı cinayət törətməkdə davam edir. Bu gün Ermənistan yenə Azərbaycanın mülki obyektlərini ağır artilleriyadan, raketlərdən, o cümlədən “Smerç” raketlərindən atəşə tutub.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, mülki insanlar arasında yaralananlar və həlak olanlar var. Ermənistan tərəfindən mülki əhalinin və obyektlərin hədəfə alınması məqsədyönlü şəkildə həyata keçirilir. Son günlər ərzində Ermənistan tərəfinin bu xain hərəkətləri nəticəsində mülki obyektlərə 10 mindən çox mərmi atılıb.

* * *

Ermənistan terrorçu dövlətdir, faşizm xisləti daşıyır. Azərbaycan Ermənistanın hücumlarının heç birini cavabsız qoymur və bu hücumlar adekvat cavabını alır.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib ki, hazırda bu atəşin qondarma “Dağlıq Qarabağ respublikası”nın rəhbəri Araik Arutunyanın əmri ilə işğal olunmuş ərazilərdən endirildiyi ilə bağlı məlumatlar yayılır. “Mən buradan Araik Arutunyana müraciət etmək istəyirəm. Araik Arutunyan, sən bunkerdə gizlənmişdin, Azərbaycan Ordusu səni orada da tapdı. Ordumuzun dəqiq zərbəsi nəticəsində Araik Arutunyan ağır yaralanıb. Digər separatçıları da eyni aqibət gözləyir”, - deyə Prezidentin köməkçisi qeyd edib.

* * *

Ermənistan silahlı qüvvələri kasetli bombalardan da istifadə edir.

İndi bütün dünyaya da əyandır ki, Qarabağ Azərbaycandır!

***Həbib MİSİROV,***
***"Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyinin sədr müavini***

# Xalq Orduya və Komandana güvənir, arxalanır



# Azərbaycan Ordusu tarixi vəzifəsini şərəflə yerinə yetirir

## İlham ƏLİYEV: "Biz öz torpaqlarımıza geri qayıdacağıq. Bu, bizim qanuni hüququmuzdur. Bu, bizim üçün tarixi vəzifədir"

Vətən müharibəsi Ordumuzun işğal altında olan torpaqlarımızı azad etməsi ilə davam edir. Hər gün cəbhədən Azərbaycan əsgərinin qələbə dolu müjdələri gəlir. Ermənistanın 1994-cü ildən bəri möhkəmləndirdiyi, keçilməz hesab etdiyi istehkamlar, ön xətt mövqeləri bir-birinin ardınca darmadağın edilir, işğal altında olan kəndlərimiz, strateji yüksəkliklər sürətlə düşməndən təmizlənir. Cəbrayıl şəhərində, Suqovuşan və digər neçə-neçə kəndimizdə artıq Azərbaycan bayrağı ucalır.

### Ermənistanın cəzalandırılması işğala son qoyulana qədər davam edəcək

Bu gün Ordumuz tarixi ədaləti inamla bərpa edir. Azərbaycan BMT TŞ-nin 30 ilə yaxındır icra etmədiyi 4 qətnaməsinin tələblərini özü inamla təmin edir, dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığına dair beynəlxalq hüququn şərtlərini işğal olunmuş ərazilərimizdə reallaşdırır. Ən əsası Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünün müstəsna hüququnu yerinə yetirir. Xəbərdarlıqlardan nəticə çıxarmayan, Azərbaycan torpaqlarında ikinci erməni dövləti qurmaq istəyən, son dövrlər təxribatlarını daha da artıran Ermənistan indi tarixinin ən ağır günlərini yaşayır, xilas üçün ona-buna yalvarır. Hərbi əməliyyatlar, Ermənistanı cəzalandırma tədbirləri isə işğala son qoyulana qədər davam edəcək.

Bu günlərdə "Əl-Cəzirə" və "Əl-Ərəbiyə" televiziya kanallarına müsahibə verən Prezident İlham Əliyev sualları cavablandırarkən bir daha problemin səbəblərini izah etdi, Ermənistanın işğalçılıq siyasətindən əl çəkməməsi, danışıqları pozması, son vaxtlar hərbi-siyasi təxribatları daha da artırması ilə bağlı ətraflı məlumat verdi. Dövlətimizin başçısı bir daha diqqətə çatdırdı ki, problemin indiyədək həll olunmamasının səbəbləri, Ermənistanın sülh istəməməsi, status-kvonun olduğu kimi qalmasına çalışması, BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməməsi, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlarda heç bir nəticə əldə edilməməsidir. BMT Təhlükəsizlik Şurasının 27 il əvvəl qəbul etdiyi qətnamələrin yerinə yetirilməsi üçün indiyədək Ermənistana heç bir təsir göstərilməyib. Lakin 1993-cü ildən bəri digər ölkələrə dair qəbul edilmiş qətnamələrin yerinə yetirilməsi üçün hansı təsir mexanizmlərinin işə salındığı tarixdən məlumdur. "Əl-Cəzirə" televiziyasına müsahibəsində buna münasibət bildirən Prezident İlham Əliyev deyib: "Münaqişənin həlli üçün hüquqi çərçivəmiz var, lakin təcavüzkara kifayət qədər praktiki təzyiq yoxdur. Beləliklə, biz burada beynəlxalq hüquq və reallıqda baş verənlər arasında ziddiyyət görürük. Ermənistan tərəfindən beynəlxalq hüquqa və normalara açıq şəkildə məhəl qoyulmaması beynəlxalq hüququn işləmədiyinin və ya selektiv üsulla işlədiyinin yaxşı göstəricisidir. Bildiyiniz kimi, bəzi hallarda Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün, bəlkə də bir neçə saat ərzində icra olunur. Lakin bizə gəldikdə qətnamələr uzun illərdir ki, kağız üzərində qalıb. Beləliklə, təcavüzkara praktiki təzyiqin olmaması münaqişənin nəyə görə bu qədər uzun çəkməsinin səbəblərindən biridir".

### Telefondan asılı qalan Paşinyanın ümidləri boşa çıxır

Beləliklə, bu gün cəbhə xəttində baş verənlər yalnız və yalnız Azərbaycanın özünün hüquqlarını bərpa etməsidir. Sentyabrın 27-də təxribatın qarşısının alınmasından bəri Ermənistanın hərbi texnikasına, hərbi infrastrukturuna və təchizatına ciddi zərbələr vurulub. Ümumiyyətlə, Azərbaycan problemin müharibə yolu ilə həllini heç vaxt istisna etməyib. Respublikamızın həyata keçirdiyi modern ordu quruculuğunun ən mühüm səbəbi elə budur. Bununla belə Bakı problemin danışıqlar yolu ilə həllinə həmişə müsbət yanaşıb. Lakin Ermənistanın yeni rəhbərliyi təcavüzkar siyasətə daha da rəvac verməklə danışıqlar prosesini kökündən baltaladı. Hakimiyyətə gəldikdən sonra Dağlıq Qarabağ probleminin həlli ilə bağlı danışıqların mahiyyət və məzmununa zidd bəyanatlarla çıxış edən baş nazir N.Paşinyanın daha sonra formatın dəyişdirilməsi, danışıqlara separatçı rejimin cəlb olunması kimi qəbulolunmaz təkliflərlə çıxış etməsi bütövlükdə danışıqlar prosesinin gələcəyini sual altında qoydu. Daha sonra onun "Qarabağ Ermənistandır" deməsi, Azərbaycanın qarşısında qoyduğu 7 şərt, "Yeni ərazilər üçün yeni müharibə" konsepsiyasını irəli sürməsi, Şuşada separatçı rejimin andiçmə mərasiminin keçirilməsi, bu ilin iyulunda dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycana hücum edilməsi, bu ilin avqust ayından başlayaraq işğal olunmuş ərazilərimizdə Livan ermənilərinin yerləşdirilməsi göstərdi ki, bundan sonra sülh danışıqlarının aparılmasının faydası yoxdu.

Ermənistanın avqust ayında Goranboy istiqamətində törətmək istədiyi diversiya, könüllü hərbi birliklərin yaradılmasına başlaması isə yeni müharibəni tamamilə labüd etmişdi. Prezident İlham Əliyev bu barədə dünya ictimaiyyətini vaxtında xəbərdar etmişdi. Sentyabrın 27-də baş verən növbəti təxribatdan sonra Prezident İlham Əliyevin etdiyi xəbərdarlığa uyğun olaraq Azərbaycan hərbi yolla Ermənistanı cəzalandırmağa başladı.

İşğalçılığı və son təxribatları indi Ermənistana baha başa gəlməkdədir. Telefonlardan asılı qalan Paşinyan ayrı-ayrı dövlətlərin rəhbərlərinə atəşkəsin əldə olunması, danışıqların bərpa edilməsi üçün yalvarmaqdadır. Lakin indi şərtləri Azərbaycan diktə edir. "Əl-Ərəbiyə" televiziyasına müsahibəsində Prezident İlham Əliyev bu barədə deyib: "Danışıqlara geri qayıtmaq üçün birinci Ermənistanın baş naziri "Qarabağ Ermənistan deyil" deməlidir, çünki "Qarabağ Ermənistandır" ifadəsi yalandır, Qarabağ Azərbaycandır! O, torpaqların sahibi olan bizə onların qaytarılmasını təmin edən iyirmi il ərzində işlənib hazırlanmış prinsiplərə sadiq qaldığını deməlidir. Bu çirkin hərbi hücuma keçdikdən sonra o, bizə şəhərlərimizdən qoşunların çıxarılması üzrə vaxt cədvəlini verməlidir və belə olan halda biz savaşı dayandırmağa hazırıq. Əks halda, biz bunu güc yolu ilə edəcəyik, biz ərazi bütövlüyümüzü güc yolu ilə bərpa edəcəyik və ona yerini göstərəcəyik".

### Makronun bəyanatları heç bir əhəmiyyət kəsb etmir

Azərbaycanın Ermənistanı cəzalandırmağa başlamasından sonra bir sıra dövlətlər məsələ ilə bağlı münasibətlərini bildirərək, atəşkəsə dəvət etdilər. Bu, beynəlxalq münasibətlər sistemində qəbul olunmuş diplomatik yanaşmadır. Olduqca sevindirici haldır ki, Azərbaycan çoxsaylı dövlətlərdən ən ali səviyyələrdə dəstək aldı. Prezident İlham Əliyevin ünvanına xarici ölkələrdən siyasi xadimlər dəstək məktubları ünvanlamaqdadırlar.

Ermənistana gəldikdə isə vəziyyət fərqlidir. Paşinyanın çoxsaylı zənglərinə rəğmən, hətta ermənilərin özünə yaxın hesab etdiyi dövlətlər belə gözlənilən siyasi dəstəyi ifadə etmədilər. Yalnız Fransa prezidenti E.Makron açıq şəkildə ermənipərəst mövqe tutdu ki, bu da ölkəsinin münaqişənin nizamlanması prosesindəki beynəlxalq mandatına tamamilə zidd idi. Makron bununla neytral vasitəçilik missiyasının tələblərini kobudcasına pozdu.

Xatırladaq ki, Makron ermənipərəst açıqlamalarından əvvəl Prezident İlham Əliyevə telefonla zəng etmişdi. Cənab İlham Əliyev telefon söhbəti zamanı bir daha özünün qətiyyətli və prinsipial mövqeyini ifadə etmiş və göstərmişdi ki, heç nə Azərbaycanı özünün milli maraqlarından çəkindirə bilməz. "Hər bir ölkənin öz mövqeyi ola bilər, bu, normaldır. Lakin əgər siz belə həssas məsələdə vasitəçisinizsə, bu mövqedən çıxış etməlisiniz. Əgər milli mövqeyinizdən çıxış etmək istəyirsinizsə, onda siz Minsk qrupunun həmsədrliyindən çıxmalısınız, istədiyinizi deyin, kimi istəyirsinizsə onu günahlandırın, baş verənlərlə bağlı sübutu olmayan xəbərlər verin və sözsüz ki, heç kim etiraz etməyəcək. Lakin əgər siz vasitəçisinizsə, neytral olmalısınız, vasitəçi olmalısınız. Əks halda, vasitəçilik bizim tərəfimizdən qəbul edilməyəcək", - deyə Prezident İlham Əliyev "Əl-Cəzirə" televiziyasında bildirib.

Görünür, Makron Azərbaycanı Fransanın əsrlər boyu əsarətdə saxladığı və təsirlərinin olduğu hansısa ölkə ilə dəyişik salıb. Fransanın bundan sonra Minsk qrupunun həmsədri kimi qalması mümkün olmayacaq. Lakin iş orasındadır ki, Azərbaycanın qələbəsi bütövlükdə Minsk qrupunun özünün fəaliyyətinə son qoyacaq.

Ordumuz tarixi vəzifəsini şərəflə, ləyaqətlə yerinə yetirməkdədir. Azərbaycanın qarşısında duruş gətirə bilməyən Ermənistan isə zəifliyinin əlaməti olaraq döyüşlər getməyən şəhərləri, mülki insanları atəşə tutur, bu kimi təxribatlarla döyüş meydanını dəyişmək, üçüncü dövlətləri münaqişəyə cəlb etmək istəyir. Bütün bunlar Ermənistanın işğalçılığının son akkordlarıdır. Düşmənin diz çökdürülməsinə sayılı günlər qalır. Artıq Ermənistanı köç dalğası bürüyüb. Respublikamızın 1993-cü ildə yaşadığını indi ermənilər yaşayır. 30 ilə yaxındır kef çəkdikləri, murdarladıqları Qarabağ torpaqlarından indi pərən-pərən düşüblər.

Qeyd edək ki, Prezident İlham Əliyev Türkiyənin "TRT Haber" televiziya kanalına müsahibəsində də bu barədə geniş danışıb.

Ermənistana bu müharibədə elə bir zərbə vuruldu ki, yarası heç vaxt sağalmayacaq. Ona görə Paşinyan hökumətinin yeganə çıxış yolu İlham Əliyevin şərtlərini qəbul etməkdir. Əks təqdirdə Azərbaycan öz ərazi bütövlüyünü güc yolu ilə bərpa etməkdə davam edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Makronun bəyanatları beynəlxalq hüquq normalarına ziddir

Azərbaycan Silahlı Qüvvələrinin erməni işğalçılarına endirdikləri ağır zərbələr və torpaqlarımızın təcavüzdən azad olunması uğrunda aparılan haqlı mübarizə nədənsə Fransanın prezidenti Makronun yuxusunu ərşə çəkib. O, son günlərdə saxta faktlara əsaslanaraq səsləndirdiyi bəyanatlarla siyasi savadsızlığını, dövlət başçısına yaraşmayan hərəkətlərə yol verməklə nəinki özünə, sülhsevər bəşəriyyətə hörmətsizlik edir.

Bu bəyanatlar, Makronun açıq şəkildə Ermənistanın təcavüzkarlarını, terrorçularını müdafiə etməsi, yalana, şantaja arxalanıb, dövlət başçısına yaraşmayan fikirlər söyləməsi və Azərbaycanı atəşkəsi dayandırmağa səsləməsi beynəlxalq hüquq normalarına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, ATƏT-in Minsk qrupunun mandatına tamamilə ziddir.

Makronun təcavüzkarı müdafiə etməsi və terrorçunun yanında olması ali dəyərlərə, insanlığa xəyanət olmaqla, haqqa-ədalətə, ilk növbədə, Fransa dövlətinin adına ləkədir.

Fransa prezidentinin seçkilər ərəfəsində ermənilərin səsini almaq üçün göstərdiyi cəhdlər - işğalçıya haqq qazandırmağı, bu mübarizədə Azərbaycanı, Türkiyəni, eləcə də haqqa, ədalətə dəstək verən ölkələri günahlandırması təcavüzün bir formasıdır. Elə bilirəm fransız xalqı öz təcavüzkar rəhbərinin çirkin əməllərinə qiymət verəcəkdir. Azərbaycan Prezidenti bu günlərdə Makronun ona telefon zəngində kimin haqlı, kimin haqsız olduğunu ermənipərəst dövlət rəhbərinə xatırladıb, bildirib ki, atəşkəsi erməni tərəfi pozub, onlar mülki



əhalini qətlə yetiriblər, kəndlərimizi, şəhərlərimizi dağıdıblar. Məhz bundan sonra Silahlı Qüvvələrimiz əks-hücuma keçiblər, əraziləri işğalçılardan təmizləməyə başlayıblar.

Sözsüz ki, bu sözlər, gətirilən tutarlı faktlar, qeyd olunan hadisələr Makron kimi ermənipərəst bir insanı qane edə bilməz. Bu onun öz işidir. Azərbaycan Prezidenti, xalqımız artıq Fransanı ATƏT-in Minsk qrupu mandatında görmür, ona ümid etmir. Biz Ali Baş Komandanımıza, Şanlı Ordumuza, gücümüzə və birliyimizə arxalanırıq. Qələbə bizimlədir və torpaqlarımızı azğın düşməndən azad edəcəyik. Son günlərdə düşmənin məhv edilməsi, Cəbrayıl şəhərinin və bir çox kəndlərimizin təcavüzkarlardan təmizlənməsi, zəfər yürüşü, əsgər və zabitlərimizin, xalqımızın yüksək əhvali-ruhiyyəsi buna sübutdur.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin xalqımıza son müraciəti bir daha göstərdi ki, torpaqlarımız düşməndən tam azad olunmayınca təcavüzkarlara aman verilməyəcək, haqq uğrunda mübarizəmiz davam etdiriləcəkdir.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Milli və siyasi həmrəyliyin təntənəsi

## Siyasi partiyalar Vətən müharibəsində Prezident İlham Əliyevi dəstəkləyir, dövlət başçısının ətrafında sıx birləşdiklərini bəyan edirlər



Haqq savaşını davam etdirən Azərbaycan Ordusu şərəfli yol keçir, tariximizdə yeni səhifələr açılır. Ermənistan qoşunlarının işğalı altında olan şəhərlərimiz, kəndlərimiz və vacib strateji yüksəkliklər ard-arda azad edilir, torpaqlarımızda üçrəngli bayrağımız dalğalandırılır.

İlham Əliyevin müzəffər ordusu düşmənə və bütünlükdə dünyaya öz əzəmətini, qətiyyətini nümayiş etdirir. Yüksək döyüş ruhu, əzmkarlıq bizi sürətlə böyük qələbəyə yaxınlaşdırır.

### Xalq-hakimiyyət birliyinin təcəssümü

Azərbaycanın haqq savaşı milli birliyimizlə yanaşı, siyasi həmrəyliyi də möhkəmləndirib. Siyasi partiyaların mütləq əksəriyyəti bir araya gələrək Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşiblər.

Xatırladaq ki, hələ bu il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş hərbi təxribatla əlaqədar müstəqillik tariximizdə ilk dəfə olaraq ölkədə fəaliyyət göstərən siyasi partiyaların 43-ü birgə bəyanat yayaraq cənab İlham Əliyevə birmənalı dəstəklərini ifadə etmişdilər.

Sentyabrın 27-də isə Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı ilə əlaqədar ölkəmizdəki 52 siyasi partiyadan 50-si Ali Baş Komandanın ətrafında sıx birləşdiklərini bəyan etdilər. Partiya sədrlərinin imzaladıqları bəyanatda qeyd edilir ki, rəhbəri olduqları siyasi təşkilatların hər bir üzvü Azərbaycan Ordusunun zəfər yürüşünə, haqq savaşına dəstək verməyə, əldə silah döyüşlərdə iştirak etməyə hazırdır.

Oktyabrın 3-də ölkədə fəaliyyət göstərən 50 siyasi partiya rəhbərlərinin iştirakı ilə Prezident Administrasiyasında "Milli həmrəylik - siyasi dialoqun nəticəsi" adlı görüşün keçirilməsi də bu prosesin tərkib hissəsi idi.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin rəhbərliyi ilə keçirilən tədbirdə ölkənin siyasi partiyalarının rəhbərləri bir araya gəlməklə, Azərbaycanda yaşanan milli və siyasi həmrəyliyi bir daha nümayiş etdirdilər.

Şöbə müdiri Ədalət Vəliyev qeyd edib ki, mütləq çoxluğu təşkil edən siyasi partiyaların bir araya gəlməsi, Prezidentin ətrafında sıx birləşmələri məmnunluq doğurur. Bütün bunlar bir daha təsdiq edir ki, cənab İlham Əliyevin rəhbərliyi ilə vətəndaş cəmiyyətinin daha da gücləndirilməsi, siyasi plüralizm istiqamətində inkişaf, partiyalarla, siyasi institutlarla dialoqun daha da möhkəmləndirilməsi prosesi uğurlu nəticələr verir. Bu amil yeni siyasi münasibətlərin formalaşdığını təsdiqləyir: "Siyasi sabitliyə, etibarlı münasibətlərə və davamlı inkişafa xidmət edən bu addım milli həmrəyliyin, xalq-hakimiyyət birliyinin təcəssümüdür".

### Azərbaycan müasir tarixinin ən məsuliyyətli və qürurlu dövrünü yaşayır

Cəbhədə yaşanan hadisələr, əldə olunan uğurlar, Prezident İlham Əliyevin mövqeyi, diplomatik müstəvidə qazanılan nəticələr, habelə Ermənistan hökumətinin qeyri-adekvat addımlarının geniş müzakirə olunduğu görüşdə bildirilib və vurğulanıb ki, Azərbaycan dövləti və xalqı müasir tariximizin və haqq mübarizəsinin ən məsuliyyətli və ən qürurlu mərhələsini yaşayır. Bu günlərdə milli həmrəyliyə xidmət edən hər bir addım və layihə böyük əhəmiyyətə malikdir.

Ermənistanın siyasi hakimiyyəti xalqının diqqətini ölkə daxilindəki sosial-iqtisadi problemlərdən, pandemiyanın yaratdığı sosial çətinliklərdən yayındırmaq məqsədilə cəbhədə təxribat törədib. Bu, bir daha göstərir ki, Ermənistan hökuməti 30 ildir sürən münaqişənin həllində maraqlı deyil. Bu məqsədlə mütəmadi olaraq cəbhə xəttində atəşkəsi pozur. Ermənistan baş nazirinin qəbuledilməz bəyanatları, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi müzakirələrində konstruktiv mövqe nümayiş etdirməməsi, "Qarabağ Ermənistandır" kimi sərsəm bəyanatları danışıqların pozulmasında əsas amillərdir.

Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Ali Baş Komandanın Vətənimizin ərazi bütövlüyünün və vətəndaşların təhlükəsizliyinin qorunması, Ermənistanın ölkəmizə qarşı genişmiqyaslı terror təxribatlarının qarşısının alınması məqsədilə həyata keçirdiyi bütün siyasi və hərbi tədbirləri yekdilliklə dəstəklədiklərini və onun yanında olduqlarını bildiriblər.

### Dialoq davam etdiriləcək

Son bir neçə ay ərzində siyasi dialoqun bərqərar olunmasında, etibarlı münasibətlərin formalaşmasında və siyasi partiyaların fəaliyyəti üçün dövlət tərəfindən göstərilən dəstək haqqında məlumat verən Ədalət Vəliyev mövcud istiqamətdə əməkdaşlığın mütləq davam etdiriləcəyini diqqətə çatdırıb. Parlamentin fəaliyyətinə xüsusi toxunan Ədalət Vəliyev VI çağırış Milli Məclisdə müxalifət partiyalarının təmsil olunmasını ölkəmizdə demokratik münasibətlərin və siyasi dialoqun mövcudluğunu sübut edən əsas göstəricilərdən biri kimi xarakterizə edib.

Ümumiyyətlə, son vaxtlar siyasi sistemin komponentləri arasında yeni müzakirələrin - dialoqun başlaması yüksək qiymətləndirilir və siyasətçilər hesab edirlər ki, Prezident Administrasiyasında parlamentlə və siyasi partiyalarla əlaqələr üzrə yeni şöbənin yaradılması əslində ölkədə siyasi ab-havanı müsbət yöndə xeyli dəyişib. Bununla ölkə Prezidenti daha aktiv parlament fəaliyyəti və daha çox inkişaf edən partiya demokratiyası modelinin formalaşması istiqamətində gözləntilərini ortaya qoyub.

Bu məqsədə nail olmaq üçün siyasi qüvvələr arasında məhz açıq dialoq mühitinin yaranması zəruri şərt idi. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin qısa müddətdə və ağır pandemiya şəraitində demək olar ki, bütün siyasi partiyalarla təmasa keçməsi və konstruktiv müzakirələr aparması uğurlu nəticə verir. Demək olar ki, hazırda ölkəmizdə yeni etibarlı siyasi dialoq mühitinin formalaşması təmin edilib.

Hazırda da bütün siyasi qüvvələr üçün bərabər şəraitin yaradılması məqsədilə partiya sədrlərinin fəaliyyətinin təşviqi istiqamətində müvafiq tədbirlər görülür. Sabit siyasi mühitin dəstəklənməsi və partiyaların bölgələrdə normal fəaliyyətinin təmin olunması üçün mütəmadi qaydada yerli icra hakimiyyəti başçıları ilə görüşlər keçirilir.

Siyasi dialoqun dəstəklənməsinin ölkəmizdə demokratiyanın inkişafında mühüm rol oynadığını vurğulayan Ədalət Vəliyev Azərbaycan xalqının ölkə rəhbərliyini daim dəstəklədiyini deyib, həmçinin milli və siyasi həmrəyliyin qorunması üçün bütün lazımi işlərin görüləcəyini vurğulayıb.

Göründüyü kimi, bu görüşlərin baş tutması, həm parlamentdə təmsil olunan, həm də parlamentdən kənarda fəaliyyət göstərən siyasi partiya rəhbərləri ilə silsilə görüşlərin keçirilməsi iqtidarın siyasi partiyalarla dialoq mühitinin formalaşmasında və möhkəmləndirilməsində maraqlı olduğunu bir daha təsdiqləyir.

Hər bir görüş dialoqun möhkəmləndirilməsinə dəstəkdir. Çünki bu görüşlərdə ölkədaxili münasibətlər, gerçək siyasi dialoq mühitinin yaradılması istiqamətində fikir mübadiləsi aparılır, Partiyaların ümummilli məsələləri müzakirə etməsi, vahid mövqe ortaya qoyması Prezident İlham Əliyevin siyasi islahatların daha da təkmilləşdirilməsi istiqamətində mütərəqqi addımlar atdığını bir daha təsdiqləyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Torpaqların işğaldan azad olunması uğrunda Vətən müharibəsi gedir





## İlham Əliyev Qarabağdan işğalçı ermәniləri iti qovan kimi qovur





Gənclərdən, hətta yaşa dolmuş insanlardan bu sözləri illərdir dəfələrlə, dönə-dönə eşidirdik: "Silah götürüb işğal altında olan torpaqlarımızı azad etməyə hazırıq. Prezidentimizin, Ali Baş Komandanın əmrini gözləyirik".

Bəlkə kiminsə ağlına gələ bilərdi ki, bunu onların heç də hamısı ürəkdən, tam məsuliyyəti ilə demir. Bəlkə də dilxoşluq edir, özünü yalançı patriot kimi göstərmək istəyir.

O məqam gəldi. Ali Baş Komandan əmrini verdi. Hamı, o cümlədən digər ölkələrin vətəndaşları da gördü ki, Azərbaycan xalqının bir deyimi ilə ifadə etsək, papaq altında necə oğullar yatırmış!

Azərbaycan əsgər və zabitləri 30 ildir ipə-sapa yatmayan, cilovlanmayan, işğalçılıq siyasətindən əl çəkməyən yağı düşmənə sarsıdıcı zərbələr endirir. Yüzlərlə gənc könüllü olaraq döyüşə yollanmağı qərara almışdır, bunu təkidlə xahiş edir. Hələ neçə-neçə müxtəlif yaşlı insan ordu sıralarına qoşulmaqda israrlıdır.

Bu da təsadüfi deyil. Qəhrəman, vətənpərvər xalqın övladları da məhz bu cür olur. Müdrik xalqın müdrik də rəhbəri olur. Sərkərdə güclü olanda əsgər də güclü olur. "Sərkərdə igid olsa, heç getməz ordu bada" misraları ilə bitən el bayatımız yada düşür.

Bu gün igid oğullarımız, Vətən, torpaq müdafiəçiləri Prezident İlham Əliyevin sərkərdə olduğu, gündən-günə gücləndirdiyi, qayğı göstərdiyi, inandığı və güvəndiyi orduda xidmət edirlər. Həqiqətdir ki, adi insani münasibətlərdə olduğu kimi ən qlobal məsələlərdə də qarşılıqlı hörmət, ehtiram, etibar, inam ən böyük amildir. Azərbaycan xalqı, Azərbaycan əsgəri də bax beləcə öz Prezidentinə, Ali Baş Komandanına inanır, arxalanır, ondan örnək götürür.

Vətən torpağı yad tapdağında, yağı əlində qala bilməz! Ölkəmizdə rəhbər də, xalq da, əsgər də belə düşünür, belə deyir. Bu gün Azərbaycan öz Prezidenti ətrafında bir yumruq kimi birləşib. Bu gün xalqımız öz Prezidenti ilə, onun cəsarəti, qətiyyəti, dönməzliyi ilə qürur duyur.

Məhz belə olanda düşmən doğma torpağımızdan it kimi qovulur. Daim terror törətməyə can atan, qatillik vərdişindən əl çəkməyən, qan tökməyə həris olan düşmən siçan kimi gizlənir, qaçır. Hiyləgər xislətli düşmən yenə sülh danışıqları istəyir. Bu cür vandallar, torpaq oğruları sülhün qədrini hardan bilər?! Onlar insan dilində danışmağı bacarmadığı kimi, insan dilini də başa düşmürlər axı.

Prezident İlham Əliyev bu il oktyabrın 4-də Azərbaycan xalqına müraciətində demişdir: "Paşinyan hər gün bir dünya liderinə zəng edir. Hər gün! Mən heç kimə zəng etməmişəm, heç bir liderə zəng etməmişəm. Təmaslarım olub, mənə zəng ediblər. Amma o, adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, ağlamasın, onların ayağına yıxılmasın. Bax budur bunun sonu. Əgər bizimlə normal dildə danışsaydı, bizim müqəddəs şəhərimizi mundarlamasaydı, əlbəttə, biz ümidlərlə yaşayıb çalışardıq ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun. Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!"

Erməni faşistləri özləri də çox yaxşı bilirlər ki, bu torpaq onların deyil. Qarabağ bineyi-qədimdən tarixi Azərbaycan torpağıdır, Azərbaycanındır və Azərbaycanın olacaq. Ona görə də Azərbaycan oğlu bu torpaq uğrunda həyatından keçir və bunu özü üçün şərafət sayır. Torpaq uğrunda şəhidlik zirvəsinə yüksələnlər xalqımızın nəzərində ucadırlar, müqəddəsdirlər. Erməni əsgəri isə özgə torpağında urvatsız ölür. Sağ qalsa belə, heç bir hörmət-izzət sahibi olmur. Mənasız vuruşduğunu özü də bilir. Ona görə də silahını, papağını atıb gedir, siçan kimi qaçır, gizlənir. Belə də olmalıdır!

Prezidentimizin dediyi kimi: "Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Madagiz artıq Suqovuşandır



3 oktyabr 2020-ci il Azərbaycanın ulu tarixinə, zəfər salnaməsinə qələbə sevinci ilə yazıldı. 26 ildir düşmən tapdağında olan Suqovuşan kəndi Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad olundu. Kənddə şanlı Azərbaycan bayrağı ucaldıldı...

Bu şad xəbəri xalqa Prezident, Ali Baş Komandan İlham Əliyev şəxsi "Twitter" səhifəsindən çatdırdı. Daha sonra Ali Baş Komandan Madagiz kəndi və yüksəkliyinin işğaldan azad olunması münasibətilə 1-ci Ordu Korpusunun komandiri general-mayor Hikmət Həsənovu təbrik etdi. Bütün Azərbaycan xalqı bu qələbə xəbərinə sevindi, bayram etdi. Qələbə müjdəsinə təşnə olan xalqımız sevinc, fərəh hissini bölüşmək üçün küçələrə axışdı, binalardan, evlərdən alqış səsləri, zəfər nəğmələri ucaldı. Çox keçmədi ki, dövlət başçısının növbəti paylaşımı ilə sevincimiz ikiqat oldu. Prezident Madagizin tarixi adını bərpa etdiyini, kəndin əvvəlki kimi Suqovuşan adlandırıldığını elan etdi. Beləliklə, 26 ildən sonra tarixi həqiqət öz təcəssümünü tapdı...

Suqovuşan kəndi əvvəllər Ağdərə rayonunun inzibati ərazisinə aid olub. 1992-ci ildə Ağdərə ləğv edilərək ərazisi qonşu Ağdam, Tərtər və Kəlbəcər rayonları arasında bölüşdürülüb. Suqovuşan kəndi isə Tərtər rayonuna birləşdirilən kəndlərdən biridir.



Suqovuşan ilk dəfə 1991-1992-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunub. Lakin 1994-cü ilin aprel ayında mənfur ermənilər yenidən Suqovuşanı işğal edib. Ermənilər kəndi işğal etdikdən sonra burada hərbi hissələr yaradıb. Buradakı 49971 nömrəli hərbi hissə Ermənistan ordusunun Qarabağdakı ən yaxşı hərbi hissələrindən biri hesab olunurdu. Bundan başqa, erməni ordusunun "6-cı müdafiə rayonu" kimi qeyd etdiyi 33651 nömrəli hərbi hissə də Madagizdə yerləşirdi.

Hərbi ekspertlər bildirirlər ki, Suqovuşan irəliləmə və əraziyə nəzarət baxımından olduqca önəmli rola malikdir.

Gözəl, səfalı təbiəti olan bu kəndin ərazisində üç tarix-memarlıq abidəsi də qeydiyyata alınıb: Müqəddəs Yelisey monastrı, körpü və kilsə.

Kəndin yaxınlığında Suqovuşan su anbarı və su elektrik stansiyası da yerləşir. Eyni zamanda kənd həm Ağdərə, həm də Sərsəng su anbarına yaxındır. Ona görə bu ərazi yerli iqtisadi infrastrukturun mərkəzlərindən hesab olunur. Sərsəng Su Elektrik Stansiyasında istehsal olunan elektrik enerjisi Qarabağın elektrik enerjisinin 60-70 faizini təşkil edirdi. Burada istehsal olunun elektrik enerjisindən Ermənistana da verilirdi.

Suqovuşanda balıq zavodu da vardı, orada kürü istehsal olunurdu.

Bütün bunlar artıq həqiqi sahibinə - Azərbaycana aiddir!

Suqovuşanın düşmən tapdağından qurtulduğunu sevinc göz yaşları ilə qarşılayan kənd sakinləri doğma yurdlarına qayıdacaqları, ata-baba torpaqlarına ayaq basacaqları günü səbirsizliklə gözləyirlər...

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Vətən və bayraq sevgisi

İllərdir ki, düşmən əsarətində qalan torpaqlarımızda Qələbə sevinclərini dadmağa başlayan xalqımızda müzəffər yürüşə, yağı ilə cəngə qalxan Milli Ordumuzun Qələbəyə doğru irəliləməsi arxa cəbhədə də vətənpərvərlik duyğularını coşdurub...

Ermənistanın ulu Gəncəmizə atdığı raket tarixi binanı dağıtsa da, orada ölsək də, yaralansaq da, şərəf bildiyimiz üçrəngli bayrağımızı dağıntı-töküntülərin altından çıxarıb sinəmizə sıxan da bizik, şəhid olub ona bükülərək ana torpağa qurban gedən də!

Ermənistan ərazisindən Azərbaycanın Gəncə şəhərinin mülki əhalisinin raket atəşinə tutulması nəticəsində yaranan dağıntılardan çəkilən bir kadr Rusiya mediasında "Günün fotosu" seçilib. Rusiyanın məşhur "Dojd" (www.tvrain.ru) media orqanı saytın Ana səhifəsində bu şəkli yerləşdirərək, "Günün fotosu" elan edib.

Valeri Şarifulinin müəllifi olduğu həmin fotodan açıq-aydın görünür ki, Azərbaycan xalqı erməni təxribatından nəinki qorxmur, əksinə, üçrəngli bayrağını canı-qanı, nəfəsi kimi qoruyur! Gəncə sakininin Ermənistan terrorçu dövləti tərəfindən raket atəşinə tutulmasından dərhal sonra Azərbaycan bayrağını sinəsinə sıxıb dağıntılar altından çıxarması ictimai müzakirələrdə xalqımızın əzmkarlığının və mübarizliyinin simvolu kimi qiymətləndirilib.



Budur xalqımızın Vətənə və üçrəngli bayrağına sevgisi: "Sənlə olsun hər bir anım, mənim üçrəngli bayrağım!

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

## Soyuq zirzəmilər, zülmət gecələr və böyük qorxu

### Xankəndi tam boşalır, hərbi xidmətdən yayınan erməni gənclər isə intihar edir









Cəbhədə vəziyyəti gərginləşdirməklə diqqəti Ermənistan daxilindəki problemlərdən yayındırmaq işğalçı ölkədə uzun illər həyata keçirilən əsas taktikalardan biri olub. Lakin küçədən ölkə rəhbərliyinə gələn Nikol Paşinyana bu taktika indi baha başa gəlməkdədir. Cəbhədə davam edən hərbi əməliyyatlar Ermənistanın güclü Azərbaycan qarşısında duruş gətirməkdə aciz olduğunu əyani şəkildə üzə çıxardıb. Döyüşlər erməni tərəfinin çoxsaylı itkilərə məruz qalması, işğal altındakı əraziləri tərk etməsi ilə nəticələnir. Cəbhə xəttində baş verənlərlə bağlı erməni mediasında davamlı olaraq məlumatlar paylaşılır.

### Ermənistan ordusunda özbaşınalıq hökm sürür, döyüş ruhu aşağı düşüb

"Qrapark" qəzetinin Xankəndiyə ezam olunmuş müxbiri yazır ki, əhali müharibənin onlara böyük fəlakətlər gətirəcəyini yaxşı bilir: "Bir həftədir Stepanakertdəyik (Xankəndi-red.) Gecələr zülməti yaşayırıq, soyuq zirzəmilər insanlarla doludur. Şəhərdə işıq yoxdur. Baş verənlərdən erməni əsgər anaları çox narahatdırlar. Onlar Paşinyanın övladlarını ölümdən qurataracağını gözləsələr də, bunun əksi baş verdi. Paşinyan Azərbaycanla müharibənin acı nəticələrini hesablaya bilməyib. O dərk etməlidir ki, erməni cəmiyyəti müharibədən bezib. Oğulları özgə torpaqlarda ölən erməni əsgər analarının naləsi Stepanakerti bürüyüb. Paşinyana, Araik Arutunyana nifrət artır. Erməni ordusunda özbaşınalıq hökm sürür, döyüş ruhu aşağı düşüb və yeni nəsil mənasız müharibədə vuruşub ölmək istəmir".

"4rd.am" saytı yazır ki, elə bu günlərdə Ermənistanda hərbi xidmətə çağırılan gənc intihar edib. Hadisə Xankəndi yaxınlığında baş verib. Belə ki, Dağlıq Qarabağ bölgəsində yerləşdirilən hərbi hissələrdən birində xidmət edəcəyini öyrənən 28 yaşlı Arman Mixitaryan çıxış yolunu intiharda görüb. O, gizləndiyi zirzəmidə özünü asaraq həyatına son verib. Özünü öldürən Armanın cibindən məktub tapılıb. O, Dağlıq Qarabağa hərbi xidmətə göndərilməsinə etiraz olaraq intihar etdiyini yazıb.

### "Kimisi üçün müharibə, kimisi üçün isə biznesdir"

Rusiyanın "Dojd" telekanalı Xankəndidən reportaj hazırlayıb. Xankəndi sakini Naxşun Qriqoryan döyüş əməliyyatlarının ikinci günündə ərinin həlak olmasından danışıb. İndi o, dərhal orduya çağırılan qardaşı üçün qorxur.

N.Qriqoryan deyir ki, əri hərbçi olub və işğal altında olan Şuşada xidmət edib: "O, Şuşada xidmət edirdi və onu ön cəbhəyə göndərməməli idilər. Onu qanunsuz olaraq başqa yerə göndərdilər və onlar maşında gedərkən hamısını məhv etdilər. Şuşada daha təhlükəsiz idi, mənim ərim isə qanunsuz olaraq başqa yerə göndərildi və onu öldürdülər. Bu, necə ölkədir axı?"

Naxşun Qriqoryanı Ermənistana yola salan anası deyir ki, onun oğlunu da orduya çağırıblar və Azərbaycan Ordusuna qarşı vuruşmağa göndəriblər: "Mənim oğlum təzəlikcə hərbi xidmətdən qayıtmışdı və onu dərhal yenidən çağırdılar və hərbi posta göndərdilər".

Naxşun onu da əlavə edib ki, əri müharibənin ikinci günündə ölüb: "Biz onu dəfn edə bildik. Mən Cermuka gedirəm, anam isə burada ölmək üçün qalır. Qardaşımı atmaq istəmir. Burada kim nə istəyir, onu da edir. Kim üçün müharibə, kim üçünsə də biznesdir. Niyə gəncləri ölməyə göndərirlər?! Azərbaycanlılar onsuz da bizdən güclüdürlər, gəncləri isə ölümə göndərirlər".

### Hərbi texnikalar köhnəlmiş və istifadəyə yararsızdır

"Sputnik Armeniya" saytı yazır ki, əhali Xankəndini tərk etməkdə davam edir. İndi orada əsasən kişi əhalisinin bir hissəsi qalıb. Bildirilir ki, atəş gurultuları getdikcə daha yaxından və ucadan eşidilir. Şəhərin əhalisi qələbəyə ümidini itirib və separatçı hakimiyyətin tezliklə süqut edəcəyini gözləyir. Mənzillərdə işıq kəsilib, tez-tez həyəcan siqnalı verilir və hətta qalan kişi əhalisi də zirzəmilərdə gizlənməli olur.

Yazılır ki, Azərbaycan hərbi cəhətdən indi özünü daha rahat hiss edir və Qarabağ məsələsini güc yolu ilə həll edir. Davam edən müharibə göstərir ki, Azərbaycandan fərqli olaraq erməni ordusunda vəziyyət getdikcə ağırlaşır, hərbçilərə lazımi diqqət yetirilmir.

"İravnuk" qəzeti müharibədə yaralanan və Xankədidə hospitallardan birində müalicəsini davam etdirən erməni əsgər Aşot Movsisyanın fikirlərini dərc eləyib. Erməni əsgər jurnalistlə söhbətində yaşadıqlarının bir an öncə bitməsini və təkrar olunmamasını arzulayıb. Movsisyanın sözlərinə görə, hərbi əməliyyatlar zamanı ermənilər arasında heç bir koordinasiya yoxdur və komandirlər əsgərləri ön cəbhəyə göndərərək onlardan qalxan kimi istifadə edirlər. Döyüşlərdə onların ixtiyarına verilən hərbi texnikalar isə əsasən köhnəlmiş və istifadəyə yararsız vəziyyətdədir: "Qorxuncdur, heç xatırlamaq belə istəmirəm. Yeməyə də əsgərlər heç nə tapmır. Çox dəhşətli günlər yaşayırıq".

### Xankəndi boşalır

"Radio Sputnik" qeyd edir ki, Xankəndi şəhərinin və Dağlıq Qarabağın digər yaşayış məntəqələrinin sakinləri kütləvi şəkildə Ermənistana üz tuturlar. Təmas xəttinə yaxın yaşayış məntəqələri praktiki olaraq boşalıb. İnsanlar Xankəndinin mərkəzindəki mehmanxananın qarşısında toplaşırlar. Onlar ya avtobuslarla, ya taksi və təsadüfi maşınlarla Yerevana gedirlər. Qarabağdan getmək istəyən ermənilərdən biri deyib ki, çox qorxurlar, şəhərdə döyüşlər gözlənilir.

### Ermənistan tərəfindən 100-ə qədər PKK üzvü döyüşür

"The Heritage Foundation" nəzdində Ellison Xarici Siyasət Araşdırma Mərkəzinin direktoru Lük Koffi "Twitter" səhifəsində yazıb ki, Xankəndidə Ermənistan tərəfindən 100-ə qədər xarici silahlı döyüşür: "Son vaxtlar xarici silahlıların Dağlıq Qarabağdakı döyüşlərdə iştirakı ilə bağlı bir çox ittihamlar var. Çox yüksək vəzifəli və məlumatlı bir mənbədən 100-ə qədər xarici silahlının (mənə deyildiyi kimi, bəlkə də PKK) Xankəndidə olduğunu eşitdim. Xarici silahlıların varlığı - pis xəbərdir!"

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***









# Erməni faşistlərinin qurbanları mülki şəxslər və obyektlərdir

## Düşmən Gəncə şəhərini və Beyləqan rayonunu yenidən raket atəşinə tutub



Xəbər verdiyimiz kimi, oktyabrın 5-də səhər saatlarından etibarən Ermənistanın silahlı qüvvələri Beyləqan rayonunun və Gəncə şəhərinin mülki əhalisinin sıx yaşadığı məntəqələri ağır artilleriyadan atəşə tutmaqda davam edir.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, Gəncə şəhərinə atılmış raketlərin Gəncə beynəlxalq xəstəxanasının, 34 saylı orta məktəbin, Şah İsmayıl Xətai küçəsində yerləşən mebel fabrikinin yaxınlığına, "Yevlax avtovağzalı" kimi adlandırılan əraziyə və Mərkəzi bazara düşməsi nəticəsində 3 mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib, mülki infrastruktura külli miqdarda ziyan dəyib.

Eyni zamanda Beyləqan şəhərinə atılmış iki raket mərmisindən biri uşaq bağçasının həyətinə, digəri isə şəhər ərazisindəki boş sahəyə düşüb.

Faktla bağlı Gəncə Şəhər Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Hazırda prokurorluq əməkdaşları tərəfindən hadisə yerində zəruri istintaq tədbirləri həyata keçirilir.

İctimaiyyətə ətraflı məlumat veriləcək.

## Ermənilərin hədəf seçdiyi Gəncə əhalisini heç bir təxribatla qorxutmaq mümkün deyil









Ermənistanın silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisini hədəfə alması onu göstərir ki, düşmən yenə də beynəlxalq hüquqazidd addımlar atmaqla öz hiyləgər planlarını həyata keçirmək niyyətindədir. Artıq bir həftədən çoxdur ki, cəbhəboyu ərazilərimizdə mülki əhalimiz düşmənin hədəfinə çevrilib. Hədəf kimi seçilən ərazilər əhalinin sıx yaşadığı məntəqələr, şəhər və rayon mərkəzləridir.

Oktyabrın 4-də səhər saatlarında düşmənin Gəncəyə atdığı raketlər əhalidə təşviş yaratsa da, şəhərdə elə bir gərginlik yaşanmadı. Gəncəlilər bu təxribatı Dağlıq Qarabağ uğrunda gedən döyüşlərdə Azərbaycan Ordusunun qazandığı qələbələri erməni tərəfinin ört-basdır etmək cəhdi kimi dəyərləndirdilər.

Vətən müharibəsinin 8-ci günündə cəbhə bölgəsindən on kilometrlərlə uzaqda yerləşən Gəncənin raket atəşinə tutulması nəticəsində bir nəfər həlak olmuş, 32 nəfər mülki şəxs müxtəlif dərəcəli xəsarət almışdır. Yaralılar təcili olaraq xəstəxanalara yerləşdirilmiş və onlara yüksək səviyyədə tibbi yardım göstərilmişdir. Yüngül xəsarət alan vətəndaşlar isə tibbi müdaxilədən sonra evə buraxılmışlar.

Xəsarət alanların yerləşdirildiyi şəhər 3 saylı təcili tibbi yardım xəstəxanasında olduq, yaralılarla görüşüb söhbət etdik. Hamının fikri bu oldu ki, növbəti təxribat düşmənin döyüşlərdəki uğursuzluqlarının və çoxsaylı itkilərinin nəticəsidir. Bildirdilər ki, Gəncə əhalisi olduqca nikbindir. Hər kəs Azərbaycan Ordusunun qələbələrini diqqətlə izləyir və sevinir. Müharibənin getdiyi bir ölkədə isə belə təxribatlar gözləniləndir.

Biz xəstəxanada erməni millətindən olan, Gəncə sakini Karina Qriqoryanla da görüşdük. Dağıntı zamanı yaralandığından xəstəxanaya yerləşdirilmişdi. Bizi görcək söhbətə birinci özü başladı. Dedi ki, bütün ömrünü Gəncədə keçirib: "Azərbaycanlıların necə humanist olduqlarını bilirəm. Ermənilərin Dağlıq Qarabağı işğal edəndən özümü günahkar kimi hiss edirəm. İndi Azərbaycan Ordusunun uğurlarına hamı kimi mən də sevinirəm".

Sonra düşmənin atdığı raketlərin dağıntı törətdiyi ərazidə olduq. Raketin partladığı yerdə demək olar ki, hər şey dağılmışdı. Hətta küçədəki şam ağacları da qırıq-qırıq olmuşdu. Ətrafda yerləşən evlərin və mağazaların şüşələri, həmçinin barmaqlıqları qırılıb küçəyə səpələnmişdi.

Evinə ziyan dəymiş sakinlərdən biri də Şərqiyyə Quliyevadır. Raketin partlaması nəticəsində əlləri, alnı, eləcə də bədəninin kürək nahiyyəsi yaralanmışdı: "Həmin vaxt evdə idim. Qəflətən eşitdiyin dəhşətli partlayış məni diksindirdi. Sanki yer-göy dağıldı. Tez evdən küçəyə çıxdım. Nə baş verdiyini əvvəlcə anlamadım. Sonra gördüm ki, mənim evimlə yanaşı, bir neçəsi də dağılıb".

Şərqiyyə Quliyeva onu da əlavə etdi ki, biz ermənilərdən qətiyyən qorxmuruq: "Televiziyadan aldığımız qələbə xəbərləri bizi çox sevindirir. Bilirik ki, ordumuz işğal olunmuş torpaqlarımızı azad edir. Bugünkü təxribatı da ermənilərin uğurlarımızı həzm edə bilməmələrindən irəli gəlir".

Digər dağılmış evlərdən birinin sahibi Ələsgər İsgəndərov baş vermiş hadisə ilə bağlı bunları dedi: "Evdən bayıra təzəcə çıxmışdım. Bir də gördüm ki, göydən iki paraşüt aşağıya tərəf gəlir. Əvvəlcə elə bildim ki, desantlardır. Ancaq yerə düşəndə partlamağından bildim ki, bu, düşmən tərəfindən atılan raketdir. Raketin biri partlasa da, ikincisi partlamadı. Lakin partlayan raket yeri-göyü lərzəyə gətirdi".

Söhbət zamanı məlum oldu ki, Ələsgərin qardaşı Azad İsgəndərov Qarabağ müharibəsində şəhid olub. Qardaşının adını yaşatmaq üçün oğluna onun adını qoyub. İndi o da Vətən müharibəsində iştirak etmək üçün orduya yazılıb. Dedi ki, nə vaxt çağırsalar, cəbhəyə getməyə hazırdır. Təki, işğal olunmuş torpaqlarımız mənfur düşməndən azad edilsin: "O gün isə çox da uzaqda deyil. İnanırıq ki, işğal olunmuş torpaqlarımız güclü Ordumuzun və Ali Baş Komandanın qətiyyəti sayəsində tezliklə düşməndən azad ediləcək".

İkinci qrup Qarabağ müharibəsi əlili Telman Səlimov da ermənilərin törətdikləri bu vandalizm aktını pislədi. Dedi ki, onsuz da düşmənin son nəfəsidir: "Bilirlər ki, yaxın günlərdə bütün Qarabağ ərazisində Azərbaycanın üçrəngli bayrağı dalğalanacaq. Ona görə də belə təxribatlara əl atmaqla bizi sarsıtmaq istəyirlər. Lakin düşmən buna nail ola bilməyəcək. Çünki artıq cəbhədə bütün üstünlüklərə nail olmuşuq. Hər gün eşitdiyimiz şad xəbərlər onu deməyə əsas verir ki, qələbəyə çox qalmayıb".

Hadisə yerində öyrəndik ki, Fövqəladə Hallar Nazirliyinin əraziyə cəlb olunan müvafiq qüvvələri bir ünvanda baş verən yanğının qarşısını almış, üç ünvanda isə dağıntıların aradan qaldırılması ilə bağlı müvafiq tədbirlər görmüşdür. 2 nəfər dağıntılar altından çıxarılaraq xilas edilmişdir.

Bəli, törədilən hadisə dağıntılarla müşayiət olunsa da, gəncəlilər qələbə əhvali-ruhiyyəsindədirlər. Yaxşı bilirlər ki, ermənilərin törətdikləri bütün bu təxribatlar Qarabağda başlanan Vətən müharibəsinin əhatə dairəsini genişləndirmək, üçüncü dövləti bu münaqişəyə cəlb etməklə özlərinin xilas cəhdidir. Ancaq Azərbaycan nikbindir. Bu nikbinlik bir çox ərazilərimizin, xüsusilə Suqovuşanın və Cəbrayıl şəhərinin və bir neçə kəndin azad olunmasından sonra daha da artmışdır.

* * *

Yazı hazırlanan zaman Gəncə yenidən raket atəşinə məruz qalıb.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Baş Prokurorluq: "Ermənistanın və qondarma rejimin kriminal hərbi-siyasi rəhbərliyi birbaşa məsuliyyət daşıyır"

İşğalçı Ermənistan Respublikasının silahlı qüvvələri oktyabrın 4-də saat 12 radələrində bu ölkənin təcavüzkar hərbi-siyası rəhbərliyinin göstərişi ilə beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyasını və onun Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla mühüm dağıntılara səbəb ola bilən, müharibə üsullarından istifadə etməklə döyüş əməliyyatlarının aparıldığı bölgəyə aidiyyəti olmayan Xızı rayonunun Türkoba və Abşeron rayonunun Pirəkəşkül kəndlərinin yaşayış məntəqələrini və silahsızlaşdırılmış zonaları, habelə hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən obyektləri, o cümlədən mülki əhalini hədəfə almaqla böyük dağıdıcı qüvvəyə malik 2 ədəd uzunmənzilli ballistik raketdən istifadə edərək, həmin kəndlər istiqamətində intensiv atəşlər açmaqla Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə planlaşdırılmaqla aparılıb və terrorçuluq cinayəti törədilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, faktla bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma), 29, 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürməyə cəhd), 29, 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürməyə cəhd), 29, 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd), 186.3-cü (əmlakı qəsdən məhv etmə və ya zədələmə xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə), 279.3-cü (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri yaratma) maddələri ilə cinayət işi başlanılıb və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırılıb.

Prokurorluq əməkdaşları tərəfindən zərərçəkmiş şəxslərin və zərər dəymiş mülki infrastruktur obyektlərinin siyahısının dəqiqləşdirilməsi ilə bağlı istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

Baş Prokurorluq bəyan edir ki, Ermənistan silahlı birləşmələri tərəfindən hərbi hədəfli obyektlərin vurulması adı ilə döyüş bölgəsindən xeyli uzaqda yerləşən mülki əhalinin sıx yaşadığı ərazilərin və məntəqələrin ağır artilleriyadan atəşə tutularaq dinc əhaliyə qarşı cinayətlərin törədilməsinə görə Ermənistanın və işğal olunmuş Qarabağ bölgəsində yaradılmış qondarma rejimin kriminal hərbi-siyası rəhbərliyi birbaşa məsuliyyət daşıyır.

İctimaiyyətə yaxın vaxtlarda ətraflı məlumat veriləcək.

## Düşmənin Bərdə şəhərinə atdığı raket zərbəsi nəticəsində bir mülki şəxs həlak olub, üç nəfər xəsarət alıb

Məlum olduğu kimi, təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir. Oktyabrın 5-də səhər saatlarından etibarən düşmənin silahlı qüvvələri Goranboy, Göygöl, Beyləqan, Bərdə, Tərtər, Zərdab rayonlarının və Gəncə şəhərinin ərazisində əhalinin sıx yaşadığı məntəqələri atəşə tutub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, işğalçı ölkənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində Bərdə şəhərinin mərkəzi küçələrinə və mərkəzi xəstəxananın yaxınlığına düşmüş raket mərmisinin qəlpələrindən Mehdiyeva Şəhriyar İsa qızı həlak olub, üç nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib.

Faktla bağlı Bərdə Rayon Prokurorluğunda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

## "Azərbaycan" İstilik Elektrik Stansiyası: "Ermənistan ordusunun atdığı raket stansiyaya zərər vurmayıb"

"Bildiyiniz kimi, Azərbaycan Ordusunun sarsıdıcı zərbələri qarşısında duruş gətirə bilməyərək geri çəkilən düşmən mülki şəxsləri hədəfə alır və yaşayış məntəqələrimizi atəşə tutur.

Ermənistan silahlı qüvvələri oktyabrın 4-də saat 21:30 radələrində "Azərbaycan" İstilik Elektrik Stansiyasına raket atıb. Bu, düşmənin beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq, mülki əhalini hədəfə almasının növbəti bariz sübutudur".

Bu sözləri "Azərbaycan" İstilik Elektrik Stansiyasının direktoru Təhmasib Hüseynov AZƏRTAC-a müsahibəsində deyib.

Xoşbəxtlikdən raketin boş əraziyə düşdüyünü vurğulayan T.Hüseynov bildirib: "Raket atəşi nəticəsində stansiyamıza heç bir zərər dəyməyib. Düşmənin mülki əhalini xaincəsinə hədəfə alması sakinlərin, o cümlədən stansiyanın kollektivinin qələbə əzmini sarsıda bilməz. Xalqımız bir nəfər kimi, Ali Baş Komandanımızın ətrafında sıx birləşərək Ordumuzun əzəli torpaqlarımızı işğaldan tamamilə azad edəcəyi günü səbirsizliklə gözləyir".

## Ermənistan silahlı qüvvələri mülki obyektlərdə dağıntı və yanğınlar törətməkdə davam edir

Ermənistanın silahlı qüvvələri Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından və raketlərdən atəşə tutaraq mülki obyektlərdə dağıntı və yanğınlar törətməkdə davam edir.

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin atdığı mərmi Ağdam rayonunun Alıbəyli kəndində vətəndaşa məxsus həyətyanı təsərrüfat sahəsində yanğına səbəb olub. FHN-in hadisə yerinə cəlb olunmuş Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri tərəfindən yaxınlıqdakı tikililər yanğından mühafizə olunub.

Ağcabədi rayonunun Sarıcalı kəndində vətəndaşa məxsus fərdi ev yanıb, təsərrüfat sahəsi və yaxınlıqdakı ev yanğından mühafizə olunub.

Bərdə şəhərində mərminin düşməsi nəticəsində vətəndaşa məxsus ev və həyətyanı sahədəki köməkçi tikili yanıb. Bir nəfər həlak olub. Yaxınlıqdakı tikililər yanğından mühafizə olunub.

Qeyd edək ki, düşmənin artilleriya atəşləri nəticəsində müxtəlif obyektlərə, o cümlədən mülki obyektlərə, fərdi və çoxmənzilli yaşayış evlərinə, təsərrüfatlara, infrastruktur obyektlərinə dəyən ziyanın, zərbələr nəticəsində baş verən yanğınların dərhal aradan qaldırılması üçün FHN gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 - "qaynar" telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.




## Ermənistanın Gəncəni atəşə tutması nəticəsində yaralananlardan biri də 8 yaşlı qızcığazdır

Ermənistan silahlı qüvvələrinin Gəncəni artilleriya atəşinə tutması nəticəsində 1 nəfər ölüb, 32 nəfər yaralanıb. Xəsarət alanlardan biri də 8 yaşlı Banu İbrahimovadır.

AZƏRTAC-ın bölgə müxbiri Banu ilə onun müalicə aldığı xəstəxanada görüşüb. Başından yaralanan azyaşlı deyib ki, hadisə səhər saatlarında baş verib və ailəsi ilə birgə evdə olublar: "Səhər otaqda idik. Qardaşım, anam, nənəm, bir də mən. Mərmi atdılar, evimizə düşdü. Başımdan yaralandım".

Qeyd edək ki, erməni hərbçiləri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq döyüş əməliyyatlarının aparıldığı bölgəyə aidiyyəti olmayan, Azərbaycanın ikinci böyük şəhəri Gəncənin mülki əhalisinin sıx yaşadığı məntəqələrə zərbələr endirib.



## Erməni hərbçilərinin müharibə cinayətləri daha da artır

Erməni silahlı qüvvələri dünən yenidən Beyləqan, Bərdə və Tərtər şəhərlərində dinc sakinləri hədəf alıb.

AZƏRTAC xəbər verir ki, erməni hərbçiləri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq mülki əhalisinin sıx yaşadığı məntəqələrə zərbələr endirir. Artilleriya atəşi nəticəsində dinc sakinlərin evləri dağılır, infrastruktura ciddi ziyan dəyir.

Buna baxmayaraq, Azərbaycan Ordusunun qələbə xəbərləri rayon sakinlərində böyük ruh yüksəkliyi yaradıb. Hər bir insan müsəlləh əsgər kimi torpağımızın düşmən tapdağından azad edilməsi uğrunda döyüşə qatılmağa hazırdır.

Bərdə sakini Fərhad Əliyev: "Heç kim düşmənin raket atəşindən qorxmur. Düşmənlə bizim fərqimiz budur. Onlar ön xətdə də bizdən qorxurlar. Qorxaq olduqları üçün şəhərlərimizi atəşə tuturlar. Bir bərdəli kimi deyirəm ki, hamımız əldə silah savaşa getməyə, torpaqlarımızı düşməndən azad etməyə hazırıq".









Rayonda məskunlaşan Xocavənddən olan məcburi köçkün Rəşadət Hacıyev: "İki oğlum döyüşdədir. Mən də müharibə veteranıyam. Torpaqlarımızı erməni işğalçılarından azad etmək üçün döyüşə getməyə hazıram. Ermənistan ordusu terroristlərdən ibarətdir. Gücləri ancaq mülki əhaliyə atəş açmağa çatır. Bununla da vəhşiliklərini göstərirlər. Ancaq bu, çox çəkməyəcək. Azərbaycan Ordusunun cəbhədə uğurlu əməliyyatları davam edir. Tezliklə Vətən torpaqlarını onlardan təmizləyəcəyik".

Ağdamdan olan Qabil Əhmədov da rayonda məskunlaşan məcburi köçkünlərdəndir. O deyib: "Biz ermənilərin məqsədini bilirik. Onlar bizi qorxu altında saxlamaq istəyirlər. Lakin düşmənin bu niyyəti həyata keçməyəcək. Hara raket atsalar da, hansı şəhəri atəşə tutsalar da, bu xalq qorxan deyil. Bizim qətiyyətli Prezidentimiz var, bizim güclü ordumuz var. Düşmənlərimiz bilsinlər ki, biz bütün torpaqlarımızı azad edəcəyik. Ordumuzla döyüşdə məğlub olurlar, əvəzinə şəhərlərimizi, kəndlərimizi atəşə tuturlar. Bununla da əsl erməni xislətini bir daha nümayiş etdirirlər".

# Ermənistanı iqtisadi çöküş, sosial partlayış və siyasi xaos gözləyir

## Törətdiyi müharibəyə görə erməni xalqının Nikol Paşinyanı çarmıxa çəkəcəyi şübhəsizdir

Məlumdur ki, illərdir Ermənistanda iqtisadi durum acınacaqlı vəziyyətdədir. Ölkədə hökm sürən korrupsiya, dövlət məmurları tərəfindən biznesə müdaxilə bu sahənin inkişafına əngəl törədib. Belə vəziyyətdən ən çox əziyyət çəkən kiçik və orta biznesdir. Dövlət məmurları iqtisadiyyatın müxtəlif sahələrini monopoliyaya aldığı üçün kütləvi sahibkarlığın inkişafı mümkün olmayıb. Yəni özünə dolanışıq üçün kiçik biznes qurmaq istəyən erməni vətəndaşı monopolistlərin ciddi təzyiqi ilə üzləşir.

Hər bir ölkə iqtisadiyyatında aparıcı qüvvənin kiçik və orta biznesin olduğu məlumdur. Ən çox işçi də bu sahədə çalışır. Hazırda Ermənistanda əməkqabiliyyətli əhalinin böyük əksəriyyəti bu üzdən işsizdir. İşsizlikdən ölkə vətəndaşları dolanışıq üçün xarici ölkələrə üz tutur. Bu proses Paşinyan iqtidara gəldikdən sonra daha da sürətlənib.

Yeniyetmə və gənclərin xarici ölkələrə üz tutmasının bir səbəbi isə Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağda və ətraf bölgələrdə xidmət etmək istəməməsidir. Erməni valideynlər övladlarını bir qrup siyasətçinin avantürasına qurban vermək istəmirlər. Beləliklə, gənclər və əməkqabiliyyətli əhali ölkəni tərk edir. Digər tərəfdən isə erməni ordusunda əsgər çatışmazlığı yaranır.

Qonşu respublikanın iqtisadiyyatının bu günə düşməsində Ermənistan dövlətinin həyata keçirdiyi işğalçılıq siyasəti xüsusi rol oynayır. Digər tərəfdən, Prezident İlham Əliyevin apardığı düzgün siyasət sayəsində Ermənistan regionda həyata keçirilən bütün nəhəng layihələrdən kənarda qalıb. Beləliklə, qonşu ölkə Cənubi Qafqaz regionunda icra edilən nəhəng layihələrdən kənarda qaldığı üçün əldə edə biləcəyi iqtisadi və siyasi dividendlərdən məhrum olub. Əvvəllər erməni lobbisi və onları dəstəkləyən müxtəlif dövlətlər erməniləri bu layihələrə tərəfdaş qoşmaq üçün cəhd göstərirdilər. Azərbaycan Prezidentinin qəti mövqeyini gördükdən sonra onlar da bu canfəşanlıqdan əl çəkdilər. İndi Ermənistan dalana dirənmiş vəziyyətdədir.

Ermənistanın başı boş baş naziri Nikol Paşinyanın türk mallarının satışı ilə bağlı boykot çağırışı elə 60 min erməni kiçik sahibkarın qəti etirazına səbəb olub. Çünki baş nazirin təkidi ilə türk mallarının satışdan çıxarılması piştaxtaların boşalmasına gətirib çıxarıb. Ermənistan Ticarət Palatasının sədri Vaqram Mirakyan türk mallarının qadağasının bir gecədə gerçəkləşməyəcəyini bildirərək sahibkarları sakitləşdirməyə çalışıb. Ermənistanın kiçik bazarı tərəfindən Türkiyə mallarının satışına qadağa qoyulması dünyanın 20 güclü iqtisadiyyatından birinə sahib olan qardaş ölkəyə, əlbəttə, heç bir təsir göstərməyəcək. Bax, belə yerdə "yel qayadan nə aparar" Azərbaycan atalar sözü yada düşür.

Paşinyana qarşı olan siyasi qüvvələr də artıq hərəkətə keçib. Ermənistan parlamentinin sabiq deputatı Ruben Akopyan: "...ya xahiş edək, ya da zorla izah etmək lazımdır ki, o, Qarabağ məsələsi ilə bağlı, ümumiyyətlə, heç bir fikir bildirməməli, xüsusilə də beynəlxalq media ilə görüşdən çəkinməlidir. "Rossiya-1" kanalına verdiyi müsahibədə o, bunu inadla sübut etdi. Hətta BBC müxbiri tərəfindən alçaldılması ona dərs olmadı" - deyərək, əslində Nikol Paşinyana "kəs səsini" söyləyib. Həmçinin bildirib ki, onun "Qarabağ Ermənistandır" sərsəm bəyanatı sülh danışıqlarının pozulması və hərbi münaqişənin daha da alovlanmasına səbəb olub. Bu, gələcəkdə Paşinyanın çarmıxa çəkiləcəyinə ilk işarədir.

Bilirik ki, erməni cəmiyyətində kilsənin rolu böyükdür. Səbəb tarixən ermənilərin dövlətinin olmaması ilə bağlıdır. Bu millətin siyasi idarəetmə sistemi olmadığı üçün həmin funksiyanı kilsə üzərinə götürüb. Erməni yepiskopu mətbuata açıqlamasında deyib ki, Türkiyənin Ermənistana qarşı vuruşduğuna inanmır. Keşiş bu fikri ona görə söyləyir ki, Nikol Paşinyan erməni ordusunun üzləşdiyi ağır məğlubiyyəti gizlətmək üçün onlara qarşı Türkiyə ordusunun vuruşduğunu bildirməklə məsuliyyətdən yayınmaq istəyir. Buna heç kəs, elə Paşinyanın özü də inanmır. Düşdüyü çətin vəziyyətdən çıxmaq üçün şər-böhtana əl atır.

Azərbaycan Ordusunun apardığı uğurlu döyüş əməliyyatları müharibədə kimin qalib olduğunu müəyyənləşdirəcək. Paşinyan onu gözləyən daha böyük məğlubiyyətlərdən yaxa qurtarmaq üçün yalvarmadığı beynəlxalq təşkilat, dövlət başçısı qalmayıb. Erməni baş naziri atəşkəsə nail olmaq üçün iki dəfə Rusiya Prezidenti Vladimir Putinə yalvarmasına baxmayaraq, ortada bir nəticə yoxdur. Qonşu ölkə rəhbərinin nala-mıxa vuran siyasəti, xəyanət yolunu tutması "Moskva göz yaşlarına inanmır" fikrinə gəlməyə əsas yaradır. Belə deyirlər ki, ən sonda ümid ölür. Bu dəfə isə ermənilərin Moskvaya olan ümidi lap əvvəldə ölüb. Həmişə təriflәyib göylərə qaldırdığı "ən yaxın müttəfiq"i bu dəfə onları pis vəziyyətdə qoyub. Belə hal isə ermənilər üçün qiyamətin başlanması deməkdir.

Dünyanın nüfuzlu hərbi ekspertlərinin yekdil fikri belədir ki, müharibə Azərbaycanın qələbəsi ilə bitəcək. Buna Azərbaycan xalqı da şübhə etmir. Hər bir müharibənin başlandığı kimi, başa çatdığı gün də olur. Azərbaycan tarixində sentyabrın 27-si və Qələbə günümüz qızıl hərflərlə yazılacaq.

Bundan sonra ermənilərin məğlubiyyətlərinin təsdiq edilməsi üçün imza atması gərəkdir. İnanmıram ki, bu sənədi imzalamaq Nikol Paşinyana qismət olsun. Səbəbi budur ki, 2016-cı ilin Aprel döyüşlərindəki məğlubiyyətə görə keçmiş iqtidardakıları vətənə xəyanətdə suçlayıb sorğu-suala çəkdirən, həbsxanalara atdıran baş naziri kimsə bağışlamayacaq. Ondan Ermənistanın hərbi məğlubiyyətinin, sosial problemlərinin pik həddə çatmasının səbəbi soruşulacaq. Ermənistanda xaos və silahlı qarşıdurmalarla müşahidə olunacaq prosesdə diqqət Nikol Paşinyana yönələcək. O, törətdiyi siyasi hərbi avantüraya və cəbhədə olan məğlubiyyətə görə cavab verməli olacaq. Görünən odur ki, Paşinyan ya intihar edəcək, ya da erməni xalqı onu meydanda çarmıxa çəkəcək. Bu, onun öz günahıdır. Prezident İlham Əliyev vaxtında xəbərdarlıq edərək demişdir ki, onun siyasi taleyi Azərbaycan xalqının qərarından asılıdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Azərbaycan əsgəri - qılıncım, qalxanım mənim

Azərbaycan əsgəri bu gün hər birimizin döyünən ürəyi, vuran əlidir. Hər birimiz bu gün bir loxma çörəyi də ağzımıza aparanda Azərbaycan əsgərini, ordunu, qələbəni düşünürük və bu yolda əlimizdən gələni etməyə çalışırıq.

Orduya yardımlardan danışmazdan öncə iki kiçik əhvalatla Azərbaycan əsgərinin rəsmini cızmaq vacibdir ki, onun hansı ürəyə, hansı gücə və hansı əxlaqa sahib olmasını bir də yada salaq.

1992-ci ildə Ağdərə uğrunda qanlı döyüşlər gedirdi. Yaralıları Tərtərdə, Bərdədə və bölgədəki digər səhra hospitallarına daşıyırdılar. Onlara baş çəkib bəzilərinin şəklini çəkəndə yaralılardan biri nəsə dedi, amma halsız olduğundan onu eşitmək mümkün deyildi. Əyilib nə demək istədiyini soruşdum.

- Sifətimi çəkmə ki, anam necə öldüyümü görməsin. Yazıqdı, dözməyəcək, - dedi.

İkinci əhvalatı isə keçmiş briqada komandiri, polkovnik Şair Ramaldanov danışıb. Deyir ki, Horadiz əməliyyatına getdikləri vaxt yolun kənarında ayağını dizdən aşağı mərmi qoparan əsgəri görür. Yaralı kəmərlə ayağını bağlamışdı ki, qan itirməsin. Amma o, polkovniki görən kimi bütün ağrılarını və yaralı olduğunu unudub raport verib: "Komandir, kənd bizdədir!"

Bu iki kiçik xatirə Azərbaycan əsgərinin qüdrət və ləyaqətinin hüdudsuz olduğunu bir daha göstərir. Belə səhnələri hansı rəssam yaradıb tabloya köçürə, hansı bəstəkar nota düzə bilər? Təbii ki, heç biri. Azərbaycan əsgəri ən mükəmməl rəsmini igidliyi və qəhrəmanlığı ilə özü yaradır. Ona görə bu gün hər birimiz ordu üçün əlimizdən gələni etməliyik və edirik. Bacaranlar, qolunda təpər olanlar əlini silah alıb səngərə gedir, qalanları da bacardıqları işin qulpundan yapışır, orduya dəstək verirlər.

Sentyabrın sonunda Qusar rayonundan olan hərbi çağırışçıları yalnız qusarlılar yox, xaçmazlılar, qubalılar birlikdə yola salırdı. Avtovağzala uşaqdan böyüyə minlərlə insan toplaşmış, yola düşənləri üzük qaşı kimi əhatəyə almışdı. Ölkənin şimalındakı rayonlarda azərbaycanlılar, ləzgilər, tatlar bir nəfər kimi çağırışçılarla sağollaşmağa gəlmişdi. Onu da qeyd edək ki, Qusarda səfərbərliyə çağırılanların demək olar ki, hamısı başqa rayonlardan idi. Amma hamı sanki öz övladını yola salırdı. Azərbaycanlısı da, ləzgisi də, tatı da.

Ermənilər Azərbaycanda etnik çaxnaşmalar salmaq, ara qarışdırmaq istəyirdi. Bu izdiham Azərbaycanda yaşayan xalqların möhtəşəm və qırılmaz birliyini ortaya qoyurdu. Ermənilər Azərbaycanda milli zəmində nifaq yaratmaq üçün illərdir ki, əldən-ayaqdan gedirlər, böyük vəsaitlər xərcləyirlər. Amma anlamırlar ki, Azərbaycan tolerantlığı, unikallığı ilə bütün dünyaya örnəkdir. Bu dövlətin ləzgisi də, tatı da, dağlısı da, yəhudisi və rusu da zəncir kimi bir-birinə bağlıdır. Biz bütün millətləri təqib edib qovan monoetnik Ermənistan deyilik. Bir-birimizə ürəkdən və damarlarımızdan axan qanla bağlıyıq. Bu bağları qırmağa kimsənin gücü çatmaz!

Həmin gün əsgərlərimizi yola salmağa gələnlərin heç biri əliboş gəlməmişdi. Hamı çağırışçılar üçün yola azuqə gətirmişdi. Yola düşən hərbi maşın karvanının arxasınca yola onlarla maşın da çıxdı. Əsgərlərin və onları yola salan mülki vətəndaşların karvanı xalqın öz ordusuna sonsuz sevgisinin təzahürü idi. Kənardan bu səhnəni müşayiət edənin ağlına belə gəlməzdi ki, burada kimsə kimsəni tanımır. Çünki hamı yaxşı bilirdi ki, hər kəs öz balasını, qardaşını müqəddəs amal üçün yola salır.

Azərbaycan əsgəri bu gün hər birimiz üçün mərdliyin, igidliyin və cəsurluğun müqəddəs rəmzidir. Ona görə də orduya yardım edənlərin və mənəvi dəstək verənlərin sayı-hesabı yoxdur. Biz isə sizə yalnız birindən yazdıq.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## İki canda bir ürək

# "QARDAŞIN ZƏFƏRİ"

### Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatları Türkiyə mətbuatının əsas mövzusudur




**Azərbaycan qonşu dövlətlərlə milli maraqlar əsasında qarşılıqlı əməkdaşlığını genişləndirməkdə, onlarla əlaqələrini strateji tərəfdaşlıq səviyyəsinə yüksəltməkdədir. Qeyd edilən məqamlar özünü xüsusən eyni tarixi kökə, mədəniyyətə malik olan Azərbaycan-Türkiyə münasibətlərində daha aydın büruzə verir. Azərbaycan və Türkiyə dostluq və qardaşlıq münasibətlərindən irəli gələrək hər iki ölkə bölgədə və dünyada gedən proseslərə münasibətdə həmişə eyni mövqe sərgiləyib, ortaq maraqlardan çıxış edib.**

Bu mənada təmas xəttində erməni təxribatı nəticəsində baş verən hərbi əməliyyatların, Azərbaycanın öz ərazilərini işğaldan azad etməsinin qardaş ölkədə KİV-in xüsusi diqqət mərkəzində yer alması tamamilə təbiidir. Artıq günlərdir ki, Türkiyədə qəzetlərin baş xəbərləri Azərbaycanın uğurları barədədir.

"Sabah" qəzeti "Azərbaycan addım-addım zəfərə gedir", "Atəş açmayın, təslim oluruq" başlıqlı xəbərləri manşetdən verib. Qeyd olunur ki, Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları davam edir. Daha 10 kənd və uzun illərdən sonra Cəbrayıl şəhəri işğaldan azad olunub, Azərbaycan Ordusu Ermənistanın döyüş mövqelərini ələ keçirib. Bu zaman erməni hərbçiləri ağ bayraq qaldıraraq təslim olublar. Təslim olan erməni əsgərlərinin fotoları sosial şəbəkələrdə yayılıb.

"Hürriyet" qəzeti "Azadlığa az qaldı", "İlham Əliyevdən çox sərt açıqlamalar" başlıqlı xəbərlərində Ermənistanın Azərbaycan kəndlərinə hücumu, Azərbaycan Ordusunun mülki əhalini qorumaq üçün cavab tədbirləri və Silahlı Qüvvələrimizin zəfərləri barədə məlumat verir. Qeyd olunur ki, bölgədə Dağlıq Qarabağın işğalı ilə başlayan böhrana son qoyulmalıdır.

"Yeni Şafak" qəzeti "Cəbrayıl işğaldan azad edildi", "Madagizə bayraq sancıldı" başlıqlı xəbərləri manşetdən verib. Bildirilir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlər qəhrəmanlıq göstərir, Ermənistana sarsıdıcı zərbələr endirirlər. Yazılır ki, oktyabrın 3-də Dağlıq Qarabağ uğrunda şiddətli döyüşlərin ardınca Azərbaycan Madagizin azad olunmasını elan edib, bu barədə Prezident İlham Əliyev öz "Twitter" səhifəsində paylaşım edib.

"Milliyet" qəzetində "Madagiz işğaldan azad edildi" başlıqlı xəbərdə Azərbaycan Prezidenti İlham Əliyevin sosial şəbəkədəki "Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!" paylaşımı yer alıb. Bildirilir ki, Madagiz (Suqovuşan) əvvəllər Ağdərə rayonu inzibati ərazisinə aid olub. Madagiz ilk dəfə 1991-1992-ci illərdə Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. Lakin 1994-cü ilin aprelində Ermənistan tərəfindən işğal edilib. Kənd ərazisində Madagiz su anbarı və Madagiz-1 su elektrik stansiyası yerləşir. Ermənilər Madagizi işğal etdikdən sonra burada hərbi hissələr yaradıb. 49971 saylı hərbi hissə Ermənistan ordusunun Qarabağdakı ən yaxşı hərbi hissələrindən biri hesab olunurdu.

"Akşam" qəzeti isə "Cəbhədən qaçır, mülkü əhalini vurur", "30 il daha gözləməyə vaxtımız yoxdur" başlıqlı məqaləni manşetdən verib. Prezident İlham Əliyevin "Bizim daha 30 il gözləməyə vaxtımız yoxdur" fikirlərinin geniş yer aldığı məqalədə qeyd olunur ki, Azərbaycanın uğurlu əks-hücum əməliyyatı ədalətsizliyə və 30 ilə yaxın davam edən işğala son qoyacaq. Cəbrayıl şəhərinin işğaldan azad olunduğunu diqqətə çatdıran nəşr həmçinin yazır ki, Ermənistanın baş naziri Azərbaycanın mülkü vətəndaşlarını hədəfə alır.

"Qarabağda küncə sıxışdı, mülkü əhalini hədəf alır", "Addım-addım azadlığa" başlıqlı məqalələr isə "Karar" qəzetində dərc olunub. Məqalələrdə Cəbrayıl şəhərinin və Azərbaycanın işğal altında olan 10 kəndinin azad edildiyi, bir neçə strateji əhəmiyyətli yüksəkliyin Azərbaycanın nəzarətinə keçdiyi bildirilir.

"Yeni akit" qəzeti isə Azərbaycanın uğurları "Erməni əsgərləri təslim olmağa başladı" başlıqlı məqalədə bəhs olunur. Azərbaycan Ordusunun tarix yazmağa davam etdiyinə toxunan müəllif, döyüşlərdə artıq Ermənistan hərbçilərinin təslim olduqlarını bildirir.

"Qardaşın sevinci", "Ya təmizləyin, ya da biz təmizləyərik" başlıqlı məqalələr "Türkiyə" qəzetində yer alıb. Məqalələrdə mövzu ilə bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışlarına yer ayırılır, Cəbrayıl şəhərinin işğaldan azad olunduğu sevinc hissi ilə yazılır. Müəllif onu da yazır ki, Azərbaycanın uğurlu əks-hücum əməliyyatı ədalətsizliyə və 30 ilə yaxın davam edən işğala son qoyacaq.

"Cumhuriyyət" qəzeti "30 il daha gözləməyəcəyik" başlıqlı məqaləsində Azərbaycan Prezidenti İlham Əliyevin fikirlərinə geniş yer ayırıb. Yazılır ki, hazırkı vəziyyət bölgədəki bütün böyük dövlətlərə real və ədalətli həll üsullarını tətbiq etmək imkanı verir. Otuz ildir bu problemin həlli üçün heç nə edilməyib, ona görə Azərbaycan problemini özü həll etmək məcburiyyətində qalıb və bunun üçün hərəkətə keçib, istədiyi nəticələrə də nail olmaqdadır.

"Milat" qəzeti oxucuları ilə görüşünə "Qardaş tarix yazır", "Paşinyan çox peşimandır" başlıqlı xəbərlərlə gəlib. Müharibənin Ermənistanın məğlubiyyəti ilə başa çatacağını yazan qəzet Milli Qəhrəman Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan Bayrağının sancılmasını sevinc hissi ilə bölüşür.

Qəzetlərdən "Yeni söz" "Əliyev: 30 il daha gözləməyə vaxtımız yoxdur", "Yeni çağ" "30 il daha gözləməyəcəyik", "Sözçü" "Azərbaycan Ermənistan əsgərlərini əsir aldı" və s. başlıqlı xəbərlərdə cəbhə xəttində Azərbaycanın əldə etdiyi uğurlar, əsgərlərimizin şücaəti barədə ətraflı bəhs olunur, prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın Ermənistanın təxribatları ilə bağlı fikirləri, qonşu dövlətlərin prosesə münasibətləri diqqətə çatdırılır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Ermənistanın şəhərlərimizə raket atəşləri ilə bağlı toplanmış faktlar beynəlxalq təşkilatlara göndəriləcək

Ermənistanın Azərbaycan şəhərlərinə raket atəşləri ilə bağlı toplanmış faktlar müvafiq beynəlxalq təşkilatlara təqdim ediləcək.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva oktyabrın 5-də keçirilən brifinqdə söyləyib.

Leyla Abdullayeva qeyd edib ki, Azərbaycan tərəfində olan dəqiq faktlara və məlumatlara əsasən, respublikamızın Gəncə, Mingəçevir şəhərləri, Abşeron və Xızı rayonları Ermənistanın Gorus, Sisyan, Vardenis, Cermuk və Berd şəhərlərindən raket atəşlərinə məruz qalıb. "Əlimizdə olan, xüsusilə həm yerli, həm də beynəlxalq ekspertlərin, hadisə yerində olan reportyorların və xarici jurnalistlərin iştirakı ilə toplanmış faktlar Azərbaycan tərəfindən müvafiq beynəlxalq təşkilatlara təqdim ediləcək", - deyə L.Abdullayeva bildirib.

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və İdarə Heyətinin üzvləri Dağlıq Qarabağa sülh və ədalət tələb edirlər

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və İdarə Heyətinin üzvləri Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş əraziləri boyu uzanan cəbhə xəttində həyata keçirdiyi artilleriya hücumlarını qəti şəkildə qınayan bəyanat yayıblar.

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: "Sentyabrın 27-si səhər tezdən Azərbaycan ilə Ermənistan sərhədindən gələn toqquşma xəbərləri dünyanın gündəmini dəyişdi. Bütün diqqəti BMT Baş Assambleyasının 75-ci ildönümünə yönəlmiş ölkələr bu xəbərdən şok oldular.

BMT-nin Baş katibinin beynəlxalq hüquqla tənzimlənən çoxtərəfli dünya nizamına çağırışını təkrarladığı bir vaxtda Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının işğal olunmuş əraziləri boyu cəbhə xəttində həyata keçirdiyi artilleriya hücumlarını qəti şəkildə qınayırıq.

1994-cü ildə əldə olunmuş atəşkəs rejimi o vaxtdan bəri dəfələrlə pozulub, mülki şəxslər hədəfə alınıb. Dünya bir daha agah olsun ki, Ermənistan bu vaxta qədər işğalçı qüvvələrini zəbt etdiyi Azərbaycan torpaqlarından tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrini yerinə yetirməyib.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri və İdarə Heyətinin üzvləri adından intensiv səkildə beynəlxalq hüquq pozuntuları ilə qarşı-qarşıya qalan Azərbaycan xalqına həmrəyliyimizi ifadə edirik.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü beynəlxalq səviyyədə qəbul edilib, BMT və digər beynəlxalq qurumların qətnamələri ilə dəfələrlə dəstəklənib.

Sərhəd boyunca artmaqda olan son erməni təxribatları nəticəsində həyatını itirənlərin ailələrinə dərin hüznlə başsağlığı veririk.

Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmək üçün göstərdiyi bütün səyləri dəstəkləyirik. Hər iki qonşu dövlətin - Azərbaycan və Ermənistanın prezidentlərini təmkinli olmağa, bütün Cənubi Qafqaz bölgəsinin sabitliyini və təhlükəsizliyini təhlükəyə ata biləcək münaqişənin böyüməsinə yol verməməyə çağırırıq.

Beynəlxalq ictimaiyyəti, xüsusən də Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatını (ATƏT) hazırkı kəskin toqquşmaları aradan qaldırmaq üçün lazımi addımlar atmağa, Azərbaycanın uzun müddətdir qanunsuz işğal olunmuş Dağlıq Qarabağ bölgəsi və digər əraziləri üzrə münaqişənin həlli üçün qanuni öhdəliklərini və mənəvi məsuliyyətlərini yerinə yetirməyə çağırırıq.

Bütün qaçqınlar kimi, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün də torpaqlarına və evlərinə qayıtmağı gözləyirlər. Münaqişə zonasında yaşayan dinc sakinlərin BMT-nin Qoruma Məsuliyyətinə çağırış etməyə hüquqları var. Biz Ermənistan ordusunun Azərbaycanın dinc əhalisini atəşə tutmasını pisləyirik.

# Georgi KUNADZE: "Hər bir dövlətin onun əlindən alınmış ərazini geri qaytarmağa nail olmaq hüququ var və bu, onun birbaşa vəzifəsidir"

Ərazi barədə beynəlxalq mübahisələrdə, adətən, təşəbbüs həmin ərazinin qaytarılmasına (verilməsinə) çalışan tərəfə məxsus olur. Etiraf edirəm ki, həmin əraziyə nəzarət edən tərəfin təşəbbüs göstərməsi halları yadıma gəlmir.



AZƏRTAC xəbər verir ki, bu fikirləri Rusiya Xarici İşlər nazirinin keçmiş müavini Georgi Kunadze söyləyib. Siyasətçi deyib: "Hər hansı xalqa nə qədər hörmət bəsləsək belə, həmin xalq özününkü hesab etdiyi ərazinin ona qaytarılmasını arzu edə bilər, lakin belə vəziyyətdə təşəbbüsü yalnız müvafiq dövlətin siyasi rəhbərliyi irəli sürə bilər. Mən belə başa düşürəm ki, Azərbaycanın siyasi rəhbərliyi məhz bu cür hərəkət edib. Beynəlxalq hüquq baxımından aydın məsələdir ki, həm Dağlıq Qarabağ, həm də onu Ermənistanla əlaqələndirən, belə adlandırılan "Laçın dəhlizi" Azərbaycanın suveren ərazisidir.

Bu da aydındır ki, hər bir dövlət onun əlindən alınmış ərazini geri qaytarmağa nail olmaq hüququna malikdir və bu, hətta onun birbaşa vəzifəsidir. Lakin bundan ötrü heç də hər bir dövlət müharibə etmir. Azərbaycanın siyasi rəhbərliyinin nə üçün məhz indiki anda belə bir qərar qəbul etməsinin səbəbi mənə məlum deyil. Bu barədə çoxlu fərziyyələr söylənilir, lakin kənar müşahidəçilərin heç biri həmin fərziyyələri nə təsdiq, nə də təkzib edə bilir".

"Ermənistan-Azərbaycan müharibəsi genişlənərək regional müharibəyə çevrilə bilərmi?" sualının cavabında G.Kunadze bildirib ki, nəzəri baxımdan belə bir təhlükə mövcuddur, lakin "praktiki baxımdan, əlbəttə, döyüş əməliyyatlarında belə adlandırılan "özəl hərbi şirkətlərin", yəni xarici ölkələrdən gətirilmiş muzdluların iştirakını regional müharibə hesab etməsək, məncə bu təhlükə istisna olunur".

G.Kunadzenin fikrincə, bu müharibədə Azərbaycanın qələbəsindən sonra Paşinyanın taleyi məsələsi heç də birmənalı deyil. O deyib: "Səhv etmirəmsə, Paşinyan bu vəzifəyə isteblişment tərəfindən irəli sürülməyib, küçədən gəlmiş birinci erməni lideridir. Rusiyanın hakimiyyət orqanları belə sistemdənkənar liderlərə çox böyük inamsızlıqla yanaşır və yəqin ki, onun getməsinə təəssüflənməyəcək. Xüsusən ona görə ki, indiki şəraitdə onu əvəz etməyə yəqin ki, daha anlaşıqlı və "Qarabağ müharibəsi" partiyasının Moskvadakı ali kabinetlərdə əyləşənlər üçün daha münasib olan növbəti nümayəndəsi gələcək".

"Azərbaycanın öz torpaqları üzərində nəzarəti geri qaytarması Rusiya-Ermənistan münasibətlərinə necə təsir göstərəcək?" sualının cavabında siyasətçi vurğulayıb ki, döyüş əməliyyatları yalnız Azərbaycan ərazisində aparılan müddətdə Rusiyanın Ermənistana hərbi və hər hansı başqa yardım göstərməsi üçün hətta hüquqi əsaslar da yoxdur. Üstəlik, Rusiya hər iki ölkə ilə öz münasibətlərini qiymətləndirir.

# Çağırışçıların müddətli həqiqi hərbi xidmətə yola salınması davam edir



"Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Sərəncamının icrası uğurla davam edir.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən AZƏRTAC-a bildiriblər ki, 2002-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, yaşı 35-dək olan və möhlət hüququ olmayan vətəndaşlarımız Silahlı Qüvvələrimizin şəxsi heyətlə komplektləşdirilməsi məqsədilə müəyyən edilmiş qrafik əsasında xidmət yerlərinə yola salınırlar.

Bu gün çağırışçıların həyatında əlamətdar gündür. Onlar Konstitusiyada təsbit edilmiş vəzifələrini yerinə yetirmək üçün böyük ruh yüksəkliyi ilə müddətli həqiqi hərbi xidmətə gedirlər. Silahlı Qüvvələrimizin bir parçası olacaq övladlarını, doğmalarını sevərək xidmətə göndərən valideynlər və onların yaxınları ənənələrinə sadiq qalaraq gənclərin hərbi xidmətə yola salınma mərasimində yüksək əhvali-ruhiyyə ilə iştirak edirlər.

Çağırışçılar hərbi xidmət dövründə nizam-intizamlı və ayıq-sayıq olacaqlarını, hərbi texnikanın sirlərinə mükəmməl yiyələnəcəklərini, əcdadlarımızın keçdiyi şərəfli yolu inamla davam etdirəcəklərini, Azərbaycan əsgəri adını uca tutacaqlarını qürurla ifadə edirlər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti bir daha xatırladır ki, gənc əsgərlər cəbhəyə deyil, müvafiq qoşun növlərinin hərbi hissələrinə - təlim mərkəzlərinə göndərilir. Onlar qarşıdakı üç ay müddətində orada təlimlər keçərək hərbin sirlərini öyrənəcək və sonra xidmətlərini təyin olunduqları yerlərdə davam etdirəcəklər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti çağırışçılara hərbi xidmətlərində uğurlar arzulayır.

# Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi dinc əhaliyə qarşı terror əməllərini davam etdirir

Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, işğalçı ölkənin silahlı qüvvələrinin yaşayış məntəqələri və silahsızlaşdırılmış zonalar, habelə hərbi hədəf olmayan, aydın görünən və fərqləndirilən obyektlər, o cümlədən mülki əhalini hədəfə almaqla 5 oktyabr 2020-ci il tarixdə Ağdam rayonunun müxtəlif istiqamətlərində intensiv atəşə tutması nəticəsində 1954-cü il təvəllüdlü Rəhimov Eyvaz Musa oğlu həlak olub, rayonun Üçoğlan kənd sakini 1971-ci il təvəllüdlü Səfərov Mehman Ağalar oğlu isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilib.

Bundan başqa, düşmənin Goranboy rayonunun yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması səbəbindən yaşadığı evə top mərmisinin düşməsi nəticəsində Qızılhacılı kənd sakinləri 1955-ci il təvəllüdlü Abbasova Raziyə Bayraməli qızı həlak olub, eyni zamanda top mərmisinin düşdüyü başqa bir yaşayış evinin sakinləri 1958-ci il təvəllüdlü Həsənov Məşdi İbrahim oğlu, sonuncunun qızı 1984-cü il təvəllüdlü Sevinc Həsənova və azyaşlı nəvəsi 2011-ci il təvəllüdlü Həsənov Elcan Elgün oğlu, boş sahəyə düşmüş top mərmisinin qəlpələrindən 1969-cu il təvəllüdlü Ələkbərov Rasim Nadir oğlu müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdiriliblər.

Hazırda prokurorluq əməkdaşları tərəfindən hadisə yerlərində döyüş şəraitində mümkün olan bütün istintaq-əməliyyat tədbirləri həyata keçirilir.

# Dmitri SAVELYEV: "Gəncənin atəşə tutulması dünya birliyi tərəfindən qətiyyətlə pislənilməlidir"

Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə raket zərbələrinə məruz qalıb. Zənnimcə, cəbhə xəttindən 60 kilometr məsafədə yerləşən şəhərin atəşə tutulması birmənalı olaraq məhz dinc sakinlərə zərbə endirmək, Azərbaycan xalqına ziyan vurmaq niyyəti daşıyır. Mahiyyətinə görə müharibə cinayəti olan bu hücum nəticəsində 1 nəfər ölüb, 32 nəfər yaralanıb.



AZƏRTAC xəbər verir ki, bu barədə RF Dövlət Dumasının deputatı, "Rusiya-Azərbaycan" dostluq qrupunun rəhbəri Dmitri Savelyev bildirib. "Oxşar hadisələrə gələcəkdə yol verilməməsi üçün dünya birliyi buna bənzər hərəkətləri qətiyyətlə pisləməli və Ermənistanın rəsmi hakimiyyət orqanlarına təzyiq göstərməlidir. Rusiya Azərbaycanın ərazi bütövlüyünün tanınması və Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq çərçivəsində dinc yolla həll olunmasının vacibliyi mövqeyində durur. Dinc sakinlərin, eləcə də hərbi əməliyyatların iştirakçılarının ölümü hamı üçün ağrı-acıdır, bütün işğal olunmuş ərazilərdən qoşunların dərhal çıxarılması yolu ilə qan tökülməsinin qarşısını almaq lazımdır", - deyə rusiyalı deputat qeyd edib.

# Naxçıvan Dövlət Təhlükəsizliyi Xidməti Ermənistana aid mühüm sənədlər yayıb

Müharibə dövründə Ermənistan vətəndaşlarının hərbi xidmətdən yayınmaq üçün vətəndaşlıqdan imtina etmələrini sübut edən sənədlər əldə olunub. Həmin sənədlər Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən Ermənistan polis orqanlarına və qondarma "Dağlıq Qarabağ Respublikası"nın Xarici İşlər Nazirliyinə göndərilib.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, bu barədə Naxçıvan Dövlət Təhlükəsizliyi Xidməti məlumat yayıb.



Ermənistan Respublikası Xarici İşlər Nazirliyi Konsulluq İdarəsi
MINISTRY OF FOREIGN AFFAIRS OF THE REPUBLIC OF ARMENIA
CONSULAR DEPARTMENT

№ 1103/21653-20
02.10.2020

Polisin pasportlar və viza idarəsinin
Rəisi
Ara Mkrtçyana

Hörmətli cənab Mkrtçyan

ER vətəndaşlığından çıxmaq xahişi ilə Fransada Ermənistan Respublikasının Səfirliyinə vətəndaş Yura Manukyan müraciət edib.

Xahiş edirəm, vətəndaşın müraciətini araşdırın və nəticələri barədə XİN-in konsulluq idarəsinə məlumat verin.

Qoşma: 11 səhifə.

Hörmətlə,

İdarə rəisinin vəzifələrini icra edən

Artak Avetisyan

Marieta Bağdasaryan
Konsulluq idarəsinin əməkdaşı
Tel: 060820600
Elektron poçt: m.baghdasaryan@mfa.am



MINISTRY OF FOREIGN AFFAIRS OF THE REPUBLIC OF ARMENIA
CONSULAR DEPARTMENT

№ 1103/21649-20
02.10.2020

Məlumatda deyilir: "Azərbaycanın erməni təxribatına qarşı 27 sentyabr 2020-ci il tarixindən etibarən həyata keçirdiyi əks-hücum əməliyyatları zamanı, guya, dünyanın müxtəlif ölkələrində olan erməni əsilli şəxslərin döyüşmək üçün könüllü olaraq Qarabağa gəlməsi barədə Ermənistan tərəfindən mütəmadi olaraq yayılan məlumatların yalan olduğu müəyyənləşmişdir. Belə ki, Naxçıvan Muxar Respublikası Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən düşmən Ermənistanın Xarici İşlər Nazirliyinə məxsus sənədlərin əldə edilməsi nəticəsində döyüş əməliyyatlarının başlanılmasından sonra bir çox erməninin orduya çağırılmamaq məqsədilə vətəndaşlıqdan imtina etməsi və bu barədə Ermənistanın xarici ölkələrdə yerləşən səfirlik və konsulluqlarına müraciət etməsini sübut edən sənədlər əldə edilmişdir".

Həmin sənədləri Azərbaycan və erməni dilində təqdim edirik.

# Azərbaycan Həmkarlar İttifaqları Ermənistanın son təxribatları ilə əlaqədar beynəlxalq təşkilatlara müraciət edib

Azərbaycan Həmkarlar İttifaqları Ermənistanın son təxribatları ilə əlaqədar beynəlxalq təşkilatlara müraciət edib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından AZƏRTAC-a bildirilib ki, müraciətdə deyilir: "Sentyabrın 27-dən hərbi təxribatlara başlayan işğalçı Ermənistanın faşist xislətli rejimi "ənənəsinə" sadiq qalaraq yenə də çirkin simasını göstərir, kəndlərimizi, dinc əhalini nişan almaqdan çəkinmir. Təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini dayandırmaması, Azərbaycanı özünümüdafiə hüququndan yararlanaraq, nəhayət, düşməni sülhə məcbur etmək, Ermənistanın təxribatlarının, hərbi avantüralarının, ölkəmizə qarşı işğalçılıq siyasətinin qarşısını almaq məqsədilə əks-hücum əməliyyatlarına başlamağa vadar edib.

Ordumuzla döyüş meydanında rüsvayçı məğlubiyyətlər yaşayan Ermənistan silahlı qüvvələri Azərbaycan əhalisinin sıx yaşadığı yaşayış məntəqələrini, mülki obyektləri, fərdi və çoxmənzilli yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutaraq dağıntı və yanğınlar törədir, dinc əhalini qətlə yetirir.

Ermənistan silahlı qüvvələri 2020-ci ilin oktyabrın 4-də səhər saatlarından başlayaraq münaqişə zonasından xeyli kənarda yerləşən, Azərbaycanın qədim tarixə malik, ikinci böyük şəhəri, çoxsaylı mədəniyyət turizm obyektləri olan, əhalinin sıx məskunlaşdığı Gəncə şəhərinə raketlər ataraq 1 mülki vətəndaşın ölümünə, 35 nəfərin yaralanmasına səbəb olub. Dağılan yaşayış binaları, tarixi abidələrin uçqunları altında xeyli insan xəsarət alıb.

Ermənistan silahlı qüvvələri qəsdən və hədəflənmiş şəkildə Beyləqan və Tərtər şəhərlərini, Füzuli rayonunun Horadiz şəhərini, Bərdə, Ağdam, Ağcabədi, Cəbrayıl, Xızı və Bakı ətrafındakı Abşeron rayonlarını, habelə mülki əhalinin sıx məskunlaşdığı digər yaşayış məntəqələrini də ağır artilleriyadan və raketlərdən istifadə etməklə atəşə tutub. Nəhəng su anbarının və elektrik stansiyasının yerləşdiyi Azərbaycanın iri sənaye mərkəzlərindən olan Mingəçevir şəhəri də atəşə məruz qalıb. Ermənilər tərəfinin məqsədyönlü atəşləri nəticəsində bu günədək 24 azərbaycanlı mülki şəxs qətlə yetirilib, 121 nəfər yaralanıb, 300-dən çox yaşayış binası və mülki obyektlər dağıdılıb. Halbuki, beynəlxalq humanitar hüquq əsas prinsip kimi hərbi əməliyyatların gedişində döyüşçülərin və mülki şəxslərin, hərbi və mülki obyektlərin aydın şəkildə fərqləndirilməsini tələb edir. Xüsusi raket sistemlərindən istifadə etməklə mülki əhalini hədəf seçən işğalçı Ermənistan dövləti isə BMT Nizamnaməsini, beynəlxalq hüququn norma və prinsiplərini, beynəlxalq humanitar hüquq normalarını, Cenevrə konvensiyalarını, xüsusilə müharibə zamanı "Mülki əhalinin müdafiəsi haqqında" 1949-cu il 12 avqust tarixli Konvensiyanı, "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" 1954-cü il 14 may tarixli Haaqa Konvensiyasının və insan hüquqları sahəsində digər beynəlxalq sənədlərin müddəalarını kobud şəkildə pozmaqla öz təcavüzkar siyasətini, müharibə cinayətlərini davam etdirir.

Azərbaycan Ordusu dinc əhaliyə silah tuşlamır, bir güllə, mərmi belə atmır. Azərbaycan döyüşçüləri yad torpaqlarda deyil, öz qədim yurdunda sülhün bərqərar olması uğrunda erməni terrorçularına qarşı savaşır. Azərbaycan mülki əhaliyə zərər dəyməməsi üçün səy göstərməklə beynəlxalq hüququn tələbləri çərçivəsində özünü müdafiə hüququndan istifadə edir.

Təəssüflər olsun ki, Azərbaycan hökuməti, hüquq müdafiə və qeyri-hökumət təşkilatları, ayrı-ayrı vətəndaşlar tərəfindən erməni silahlı qüvvələri tərəfindən dinc əhaliyə qarşı törədilən cinayətlərlə bağlı dünyanın aparıcı beynəlxalq təşkilatlarına, o cümlədən Birləşmiş Millətlər Təşkilatına, ATƏT-ə, Avropa İttifaqına, Avropa Şurasına və digər beynəlxalq təşkilatlara etdikləri müraciətlər cavabsız qalmaqdadır. Dinc əhali qırılır, tarixi abidələr, mədəniyyət obyektləri dağıdılır, lakin başda Birləşmiş Millətlər Təşkilatı olmaqla, beynəlxalq təşkilatlar, eyni zamanda, münaqişənin nizamlanmasının birbaşa məsuliyyətini daşıyan ATƏT-in Minsk qrupu susmaqda davam edir. İkili standartlar sayəsində Ermənistanın cinayətlərinə göz yumulur, Azərbaycanın haqlı səsi eşidilmir.

Biz həmkarlar ittifaqları olaraq dünyanın aparıcı dövlətlərini, beynəlxalq qurumları, eləcə də beynəlxalq əməkçi təşkilatlarını Ermənistanın Azərbaycan ərazisində törətdiyi cinayətlərə seyrçi qalmamağa, eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində mülki əhalinin pozulmuş hüquq və azadlıqlarının bərpası istiqamətində üzərlərinə düşən zəruri addımları atmağa və müvafiq tədbirlər görməyə çağırırıq".

# Beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli mübarizəsini müdafiə edir




"Azərbaycanın qədim Gəncə şəhərinə hücum etmək Ermənistanın hüquq tanımayan və işğalçı simasının son nümunəsidir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopa məxsusdur. Parlamentin rəhbəri məlum cinayət hadisəsi ilə bağlı sosial media hesabından paylaşımında bu sözləri yazıb: "Mülki əhaliyə qarşı törədilən bu hücumu şiddətlə qınayır, Vətən naminə qəhrəmancasına mübarizə aparan Azərbaycan Ordusuna müvəffəqiyyətlər diləyirəm. Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖




"Qardaş Azərbaycan xalqına keçmiş olsun diləklərimi çatdırır, haqlı davalarında yanlarında olduğumuzu xatırladıram".

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin Cümhuriyyət Xalq Partiyasının (CHP) rəhbəri Kamal Kılıçdaroğlu özünün rəsmi "Twitter" səhifəsində paylaşıb.

K.Kılıçdaroğlu bildirib: "Ermənistanın beynəlxalq hüquq normalarını pozaraq Azərbaycanın Gəncə şəhərinə və oradakı dinc əhalini hədəf alan xain hücumlarını şiddətlə qınayıram. Qardaş Azərbaycan xalqına keçmiş olsun diləklərimi çatdırır, haqlı davalarında yanlarında olduğumuzu xatırladıram".

❖ ❖ ❖



"Ermənistanın Azərbaycanın ən böyük şəhərlərindən biri olan Gəncəyə xaincə hücum etməsi, dinc və günahsız soydaşlarımızı hədəf alması insanlığa qarşı cinayət, beynəlxalq hüququn açıqca tapdanması və inkar edilməsidir. Ermənistan zülm saçan üzünü bir daha göstərdi".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı bildirib.

D.Baxçalı deyib: "Bundan əlavə, Füzuli, Ağdam və Tərtərin yaşayış əraziləri Ermənistan tərəfindən artilleriya və raket atəşinə tutulub. Erməni dəstələri Azərbaycan qarşısında sıxışdıqca münaqişə bölgələrini mülki yaşayış məntəqələrinə qədər genişləndirirlər. Qatil erməni zehniyyəti əvvəllər etdiyini bu gün də vəhşicəsinə təkrarlayır. Ermənistan qəddardır, qatildir və töküldüyü qana qərq olacaq.

Cənubi Qafqazdakı sülh və sabitliyin yeganə düşməni Ermənistandır. Beynəlxalq ictimaiyyət artıq mülki vətəndaşlara qarşı qanlı və alçaq hücumlara biganə qalmamalıdır. Buradan şəhidlərimizə Allahdan rəhmət, yaralı soydaşlarımıza şəfa diləyirəm.

Unutmaq lazım deyil ki, Dağlıq Qarabağ türk yurdudur. Bu hüququn haqq sahibi ilə birləşməsi həyat bahasına olsa belə təmin edilməlidir. Qatil və terrorçu bir dövlət olan Ermənistanı nifrətlə qınayıram. İlanın başının mütləq əziləcəyinə inanıram.

Ayrı olan heç nəyimiz yoxdur, uzağımız yaxınımız yoxdur, iki dövlət bir millətik, eyni damarda axan qan, eyni bədəndə döyünən ürəyik. Birik, bərabərik, Türkiyə ilə Azərbaycanıq. Birlikdə biz böyük bir Türk millətiyik".

❖ ❖ ❖



"Münaqişə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti ilə ortaya çıxıb. Münaqişənin həllinin və uzunmüddətli sülhün yeganə və sadə yolu budur ki, təcavüzkar qüvvələr Azərbaycanın işğal altında olan torpaqlarından çıxmalıdır".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidentinin müşaviri İbrahim Kalın yerli mediaya müsahibəsində ifadə edib. Gündəlikdə duran məsələləri dəyərləndirən dövlət rəsmisi Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və onun acı nəticələrinə geniş yer ayıraraq fikirlərini belə ifadə edib: "Ədalətə dayanmasa, uzunmüddətli sülhə nail olmaq mümkün deyil".

Beynəlxalq münasibətlərdə bir böhranın illərlə davam etməsinin mütləq bundan bəhrələnmək istəyən bəzi qüvvələrə sərf etdiyini vurğulayan prezidentin müşaviri deyib ki, mövcud problem sadəcə Ermənistan ilə Azərbaycan arasında olsaydı, böyük ehtimalla münaqişə fərqli şəkillərdə daha əvvəl həllini tapa bilərdi.

Qarabağ məsələsinin həllinin Ermənistanın işğal altında olan Azərbaycan torpaqlarından qeyri-şərtsiz çəkilməsində olduğunu və bölgədə uzunmüddətli sülhün yaranmasının da buna bağlı olduğunu diqqətə çatdıran İbrahim Qalın deyib: "Azərbaycan Prezidenti İlham Əliyevin ortaya qoyduğu mövqeyi düzgün hesab edir və dəstəkləyirik. Çünki bu günlərdə dedi ki, əgər Ermənistan işğal etdiyi torpaqlardan çəkilərsə, dərhal atəşkəs olar, humanitar yardımlar çatdırılar və bölgəyə sabitlik gələr. Biz də Azərbaycanı bu təməl bazasında dəstəkləyirik və dəstəkləməyə davam edəcəyik".

BMT və ATƏT-in qərar və qətnamələrində Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu, eləcə də Ermənistanın Türkiyəyə əsasız iddia və ittihamlarının yersiz olduğunu, saxta təbliğat işləri fasiləsiz olaraq apardıqlarını vurğulayan İbrahim Kalın deyib: "Ermənilər belə bir rəy formalaşdırmağa çalışırlar ki, Qarabağda hər şey güllük və Gülüstanlıq içində olub. Türkiyə araya girməklə döyüşlər başlayıb. Bu deyilənlər tam əksindədir. Qarabağda illərdən bəri davam edən erməni işğalı var. Buna qarşı hər zaman Azərbaycan müqaviməti olub. Burada Türkiyənin mövqeyi və niyyəti bəllidir".

Azərbaycanda F-16 qırıcılarının olması barədə xəbərləri uydurma, eləcə də Azərbaycan Ordusunun arsenalında pilotsuz silahlı aparatların (SİHA) mövcudluğunu normal hal kimi dəyərləndirən dövlət rəsmisi bildirib ki, başqa ölkələr milyardlarla dollar məbləğində silah satanda heç kəsin səsi çıxmır, Azərbaycanın öz müdafiəsi üçün silah almasında günah axtarmaq yersizdir.

İbrahim Kalın məntiqi mülahizələr və faktlarla əsaslandırıb ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və Türkiyəyə yersiz iddialarının təcavüzkar dövləti inkişafdan saxlayıb, rəzil və səfil halına salıb.

❖ ❖ ❖



Avropa Parlamentinin Latviyadan olan deputatı Sandra Kalniete sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı törətdiyi növbəti hərbi təxribatlar barədə Latviyanın "TV24" telekanalına müsahibə verib.

AZƏRTAC xəbər verir ki, müsahibəsində xanım deputat böyük enerji infrastrukturunun mövcud olduğu regionda yaşanan son hadisələrin narahatlıq doğurduğunu bildirib.

O, Ermənistanın Dağlıq Qarabağla yanaşı, Azərbaycanın bir sıra digər rayonlarını da işğal etdiyini vurğulayıb. Qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyünün Minsk qrupu ölkələri, Avropa İttifaqı və BMT Təhlükəsizlik Şurası tərəfindən dəstəklənməsi beynəlxalq hüquqa uyğundur.

❖ ❖ ❖



Oktyabrın 3-də Azərbaycana həsr edilmiş silsilə proqramlar çərçivəsində Braziliya Konqresində Parlamentlərarası dostluq qrupunun rəhbəri, deputat Klaudio Kajadu "REBE TV" kanalına müsahibə verib.

Azərbaycanın Braziliyadakı Səfirliyindən AZƏRTAC-a bildirilib ki, müsahibədə deputat Parlamentlərarası diplomatiyanın rolu və əhəmiyyəti, Braziliya və Azərbaycanın qanunverici orqanları arasında münasibətlərin tarixi və mövcud vəziyyəti, iqtisadi əlaqələr, turizm potensialı və ölkəmizə səfərləri haqqında danışıb. Deputat Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar son vəziyyətlə bağlı bəyan edib ki, Dağlıq Qarabağ Azərbaycanın ərazisidir və münaqişə sülh yolu ilə, BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə əsasında həll edilməlidir. Son hərbi əməliyyatlar zamanı Azərbaycan tərəfindən mülki əhali və hərbçilər arasında itkilərin olduğunu təəssüflə qeyd edən deputat Minsk qrupu və beynəlxalq təşkilatların işinin fəallaşmasını və bir daha münaqişənin beynəlxalq qanunvericilik və BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə əsasında həll olunmasını tələb edib. Müsahibə zamanı xüsusi ilə qeyd olunub ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin qəbulunda o zaman Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olan Braziliya da fəal iştirak edib. Sonda münaqişəyə həsr edilmiş klip nümayiş edilib.

❖ ❖ ❖



Latviya Seyminin deputatı, Latviyanın ATƏT Parlament Assambleyasında daimi nümayəndə heyətinin üzvü Roman Naudinş 27 sentyabr tarixində törədilmiş erməni təxribatları ilə əlaqədar bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda Azərbaycanın Dağlıq Qarabağ və yeddi ətraf rayonunun 30 ilə yaxın işğal altında qalması, Azərbaycana qarşı həyata keçirilən etnik təmizləmə siyasəti, bir milyona yaxın soydaşımızın öz torpaqlarından qaçqın düşməsi, Xocalı soyqırımı, uzun illər sülh danışıqlarının bir nəticə verməməsi və münaqişəyə dair BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilməməsi, habelə Ermənistanın hərbi-siyasi rəhbərliyinin son təxribatları, Azərbaycanın öz suverenliyi və beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün bərpası uğrunda əks-hücum əməliyyatlarına başlaması, Aİ-nin Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsində passivlik göstərməsi kimi fikirlər yer alıb, Ermənistanın işğalçılıq siyasəti dayandırılanadək bu ölkəyə beynəlxalq sanksiyaların tətbiqinə dair çağırış edilib.

❖ ❖ ❖



"Ermənistan silahlı birləşmələri Azərbaycanın qədim şəhərlərindən olan Gəncəni və dinc əhalinin raket atəşinə tutması çox acınacaqlı haldır. Ermənilər ön cəbhə ilə arxa cəbhə arasında fərq görmürlər, dinc əhalini əsgərdən ayıra bilmirlər, qadın, uşaq və qocaları öldürürlər. Bu terrordur, vəhşilik və insanlığa yaraşmayan, heç bir müharibə qanunlarına sığmayan qanlı cinayətdir".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Qafqaz üzrə araşdırmaçı, tarixçi alim Quram Marxuliya söyləyib.

Onun sözlərinə görə, Ermənistan bu hərəkəti ilə beynəlxalq hüququn bütün norma və prinsiplərinin kobud şəkildə pozub.

Bunun da əsas səbəbi Ermənistan hakimiyyətinin bu günədək cəzasız qalmasıdır. Cəzasız qaldığı üçün Ermənistan daha da azğınlaşıb, insanlıq əleyhinə belə qanlı cinayətlər törədir.

Q.Marxuliya deyib ki, dinc insanları öldürmək erməni millətinin çoxdankı milli adətidir. Döyüşdə sarsıdıcı məğlubiyyətə uğrayan ermənilər geri çəkilərkən belə iyrənc əməllər törədir, dinc Azərbaycan əhalisini atəşə tutur.

"İndi əsas maraq doğuran məsələ ondadır ki, beynəlxalq ictimaiyyət, BMT və digər beynəlxalq təşkilatlar məsələyə necə münasibət bildirəcəklər. Əgər onlar yenə də sussalar, Azərbaycan rəhbərliyi adekvat addımlar atmağa məcbur olacaq və buna da haqqı var", - deyə Q.Marxuliya vurğulayıb.

❖ ❖ ❖




Rusiya Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun elmi işçisi, politoloq Aleksandr Karavayev AZƏRTAC-a müsahibəsində ATƏT-in Minsk qrupunun fəaliyyəti, Türkiyə və Rusiyanın Qarabağ münaqişəsinin həllindəki rolu ilə bağlı fikirlərini bölüşüb.

- ATƏT-in Minsk qrupundan nəticə gözləmək olarmı?

- Demək çətindir. Ermənistanın yeni rəhbərliyi tərəfindən əvvəlki bütün razılaşmalar pozulub. Onlar yekun nəticələri tam düşünməyərək, işğal olunmuş ərazilərdəki sərhəddə və təmas xəttində sərt əməliyyatlarla uğur qazanmaq məqsədilə prosesi sürətləndirmək qərarına gəldilər. Əslində bu, Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, hərbi əməliyyatları şərtləndirdi.

İndi ATƏT-in Minsk qrupu ölkələrinin fəaliyyəti göz qabağındadır. Cümə günü Cenevrədə Rusiya Təhlükəsizlik Şurasının rəhbəri N. Patruşev problemi ABŞ Prezidentinin Milli Təhlükəsizlik üzrə köməkçisi ilə müzakirə edib. Lakin nəticə yenə də ikitərəfli danışıqların bəhrəsi olacaq.

Bu gün deyil, 2000-ci illərin əvvəllərində BMT, ATƏT vasitəsilə danışıqların əvvəlki formalarının gücünü və kollektiv sənədlərin təsirini itirdiyi bir vəziyyət yarandı. İndi reallıqlar fərqlidir və bunlar ya əvvəlkilərin düzəldilməsini, ya da yeni parametrlərin, ehtimal ki, hərtərəfli razılaşma çərçivəsində qeyd edilməsini tələb edir.

- Sizcə Türkiyə və Rusiya münaqişənin həllində hansı rol oynayır?

- Rusiya, Türkiyə, Azərbaycan müxtəlif səviyyəli və miqyaslı üç dövlətdir, lakin üçlükdə maraqlarını genişləndirməkdədirlər. Bu münaqişəni yalnız onlar həll edə bilər.

Əslində, Yerevanda belə bir üçlü formatın güclənməsindən qorxurlar, buna görə də münaqişə problemləri ilə tanış olmayan rus publisistlərinin də bu mesajı tez bir zamanda götürüb inkişaf etdirəcəyini bildikləri üçün sivilizasiya toqquşması, "yaxşı və işıq" müharibəsi fikrini hiyləgərliklə gündəmə gətirdilər.

Paşinyanın başladığı ikinci iş isə Avropada yeni dəstək axtarmaq idi. Ən əlverişlisi Makron oldu. Fransa lideri Sarkozinin 2008-ci ildə Fransa Baş Nazirinin Gürcüstan və Rusiya arasında atəşkəs razılaşmasının uğurlu vasitəçisi və təşkilatçısı kimi çıxış etdiyi zaman Qafqazdakı uğurunu təkrarlamaq istətdi.

Lakin Makronun kifayət qədər təcrübəsi yox idi və dərhal reallıqları və ağırlaşma şərtlərini nəzərə almadan Prezident İlham Əliyevə tələblər irəli sürməyə başladı.

Bundan əlavə, Fransız nəşrləri Fransa Prezidentinin ofisinə istinadən Prezident Vladimir Putinin Navalnı ilə bağlı açıqlamalarından fraqmentlər dərc etdikdən sonra Makronun Rusiya ilə münasibətləri indi çox gərgindir. Bu amil ATƏT-in Minsk qrupunun işində ixtilaf rolunu oynayacaq.

Buna görə də, qabaqcadan düşünmədən, çıxış yolu tapmaq və Bakıya təklif irəli sürmək üçün əsl prosesin yalnız Ankara və Moskvadan gələ biləcəyini anlamaq çətin deyil. Əlbəttə ki, Qərb dünyasında və Yaxın Şərqdə hələ də əsas oyunçu kimi ABŞ-ın da rolu var.

- Rusiyada geniş media məkanında Azərbaycana münasibət dəyişibmi?

- Media hələ də bitərəfliyini mümkün qədər saxlamağa çalışır, çünki bu prinsipcə çətindir, amma fərqli motivlər və geniş məlumat axını yayılır, sadəcə təhlil etməyə vaxtları olmur.

Digər məsələ, türkofobiyanın nəzərəçarpacaq dərəcədə artmasıdır. Bu, ümumiyyətlə, bu mövzu ilə heç bir əlaqəsi olmayan, əvvəllər, ümumiyyətlə, fikirlərini ifadə etməyən publisistlərdən irəli gəlir. İndi də onların məhz daxili şüur istiqamətlənməsinin dərc edilməsi üçün əsas tapılıb. Bu, o deməkdir ki, son illər Rusiya cəmiyyətində Azərbaycanın imicini formalaşdırmaq üçün işlər davam etdirilməlidir. Bu da uzun yoldur.

❖ ❖ ❖



Məşhur erməni blogger Tiqran Köçəryan Ermənistanın baş naziri Nikol Paşinyanı Gəncəni vurmaq əmrini verməkdə ittiham edib.

AZƏRTAC xəbər verir ki, blogger özünün http://pigh.tv/?p=13 səhifəsində yerləşdirdiyi çağırışda Ermənistanın baş naziri Nikol Paşinyanı kəskin tənqid edərək, onu, faktiki olaraq Ermənistanın Dağlıq Qarabağ savaşında uduzmasında ittiham edib. O, Rusiyanın artıq Ermənistanı dəstəkləmədiyini bildirərək, Paşinyan hökumətinin Stepanakertdə (red. Xankəndi) rus hərbçilərinin olması barədə yalan şayiələr yaydığını iddia edib. Tiqran Köçəryan öz mənbələri vasitəsilə bu şayiələrin yalan olduğunu təsdiqləyib.

Blogger, həmçinin Dağlıq Qarabağın cənub cəbhəsində (red. Füzuli-Cəbrayıl istiqaməti nəzərdə tutulur) ermənilərin tam iflasa uğraması, yaralıları daşımaq üçün maşınların olmaması səbəbindən bir çoxunun ölməsi, cəbhənin şimal tərəfində (red. Ağdərə istiqaməti nəzərdə tutulur) isə döyüşlərə cəlb olunmuş muzdluların Azərbaycanın artilleriya həmləsinə tab gətirməyərək qaçması barədə yazıb. Ən maraqlısı isə, Tiqran Köçəryanın Nikol Paşinyanı Gəncəni vurmaq əmrini verməkdə ittiham etməsidir. Tiqran Köçəryan anlayır ki, bunun nəticəsində Ermənistanın şəhərlərini işğal olunmuş Xankəndinin bombalanması kimi aqibət gözləyə bilər.

❖ ❖ ❖

Azərbaycanın Belarusdakı səfirliyində Azərbaycan İcmaları Konqresi, Belarusda yaşayan vətəndaşlarımız və təhsil alan tələbələrimizin iştirakı ilə Ermənistan silahlı qüvvələrinin Azərbaycana hərbi təcavüzü ilə bağlı görüş keçirilib.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, səfir Lətif Qəndilov görüşün Belarusda yaşayan Azərbaycan diasporunun müraciəti əsasında keçirildiyini deyib, hər kəsdən konkret təkliflərini və fikirlərini söyləməyi xahiş edib.

Tədbirdə Azərbaycan İcmalar Konqresinin rəhbəri Natiq Bağırov çıxış edərək konqresin adından Silahlı Qüvvələrimizə dəstəyini ifadə edib, torpaqlarımızın azad olunmasından çox sevindiyini bildirib və bunun üçün Prezident İlham Əliyevə təşəkkürünü ifadə edib. O, Belarusda yaşayan azərbaycanlıların daim Silahlı Qüvvələrimizə imkanları çərçivəsində əllərindən gələn bütün köməyi göstərməyə hazır olduqlarını söyləyib. Belə ki, o, bir sıra azərbaycanlıların Silahlı Qüvvələrə Yardım Fonduna maliyyə vəsaiti köçürmək və orduya könüllü yazılmaq istədiklərini söyləyib.

Tədbirdə çıxış edən Dərya Hüseynova, Vüsal Qarayev, Cəmil Abbasov, Olesya Kasokina, Asəf Yusifov, Roman Lukasayev və Zakir Məmmədov Silahlı Qüvvələrə Yardım Fonduna maliyyə vəsaitinin toplanılmasının təşkil olunması ilə bərabər, orduya qida və dərman vasitələrinin göndərilməsini, Minskdə təhsil alan azərbaycanlı tələbələr və gənclərin ordu sıralarına könüllü yazılmaq istədiklərini qeyd edib, eyni zamanda, informasiya məkanında ermənilərin apardığı yalan təbliğatın qarşısını almaq məqsədilə "YouTube" və "Telegram" kanallarının yaradılması təşəbbüsü ilə çıxış ediblər. Digər iştirakçılar isə bir sıra mətbuat orqanlarında Dağlıq Qarabağda gedən döyüşlər barədə informasiyanın qeyri-obyektiv işıqlandırılmasına etirazlarını bildiriblər. Onlar azərbaycanlı ekspertlərin, təcrübəli politoloqların Belarus mətbuatında çıxış etmələrini təklif ediblər.

Səfirliyin hərbi attaşesi Elşən Rəhimov çıxış edərək cəbhədəki vəziyyət barədə məlumat verib.

L.Qəndilov orduya könüllü yazılmaq istəyənlərin səfirliyin hərbi attaşeliyinə müraciət etməsini, Belarus ictimaiyyətini Dağlıq Qarabağda gedən döyüşlərlə bağlı məlumatlandırmaq üçün IT sahəsində təcrübəsi olan 4-5 nəfərdən ibarət qrupların təşkil olunmasını təklif edib və bu məqsədlə "YouTube" və "Telegram" kanallarının yaradılması tövsiyə edib. Səfir, eyni zamanda, Belarus mətbuatında Ermənistan silahlı qüvvələrinin Azərbaycana hücumuna dair yayılmış məlumatlarda qeyri-obyektivliyə görə Belarus vətəndaşlarına informasiya vasitələrinə, müvafiq qurumlara etirazlarını bildirməyi tövsiyə edib. Bir Belarus vətəndaşı kimi bunun onların haqqı olduğunu söyləyib. Səfir L.Qəndilov hər kəsə yüksək vətənpərvərlik nümayiş etdirdiklərinə görə təşəkkürünü bildirib, orduya dərman və ərzaqla kömək etməkdənsə, Silahlı Qüvvələrin müvafiq hesablarına maliyyə vəsaitinin köçürülməsinin daha məqsədəuyğun olacağını söyləyib.

Tədbirin sonunda iştirakçılar hamı bir nəfər kimi Azərbaycanın Prezidenti İlham Əliyevə işğal olunmuş ərazilərimizin azad olunmasında göstərdiyi qətiyyətə və cəsarətə görə təşəkkürlərini bildirib, ona möhkəm cansağlığı diləyib və bu hərbi əməliyyatların sona qədər davam etdirilməsini arzu ediblər.

❖ ❖ ❖




"Torpaqlarımız azad olandan sonra danışıqlar mümkündür.

TV5-in aparıcısı: "Deməli siz qalib gələndən sonra?"

Səfir: "Bəli, şübhəsiz".

TV5-in aparıcısı: "Deməli atəşkəs gözlənilmir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın TV5 Monde televiziya kanalında Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayevlə aparılan sual-cavabda səslənib.

"Bu gün müharibədir. Münaqişə yox, əsl müharibədir. Azərbaycan üçün Vətən müharibəsidir.

Azərbaycanın əks-hücum müharibəsinin məqsədi 1992-ci ildən işğal olunan torpaqlarımızı azad etməkdir. 1992-ci ildən Azərbaycanın 20 faiz ərazisi işğal altındadır. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməsi var ki, onların hər biri erməni silahlı qüvvələrinin Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayondan dərhal, tam və qeyd-şərtsiz çıxmasını tələb edir", - deyə səfir vurğulayıb.

R. Mustafayev bildirib ki, bu gün Azərbaycan beynəlxalq hüquq çərçivəsində hərəkət edir. Azərbaycanın məqsədi işğal altında olan torpaqlarını azad etməkdir. Torpaqlarımız azad olduqdan sonra Dağlıq Qarabağ tərəqqi edəcək və onun müxtəlif xalqlardan olan əhalisi Azərbaycanın vətəndaşlardır.

Qeyd edib ki, ATƏT-in Minsk qrupunun həmsədrləri olan Rusiya, ABŞ və Fransanın münaqişənin həllinə nail ola bilməməsi vəziyyəti bu dərəcəyə çatdırıb.

Rusiya ölkəmizin strateji tərəfdaşıdır və regionda stabilliyin olmasında maraqlıdır.

Türkiyəyə gəldikdə isə bu gün onun ölkəmizə dəstəyi beynəlxalq hüquq çərçivəsini aşmır. Türkiyə bizi mənəvi, siyasi baxımdan dəstəkləyir. Ancaq bu gün hələ hərbi dəstəkdən söz getmir. Əlbəttə, Türkiyə də strateji tərəfdaşımızdır. Ermənistandan fərqli olaraq Azərbaycan danışıqlar prosesinin formatına heç vaxt mane olmayıb. Ermənistan isə hər dəfə danışıqlar prosesinə mane olub.

Aparıcının danışıqlara başlamaq və atəşkəslə bağlı suallarına cavabında səfir deyib: "Azərbaycan işğal altında olan ərazilərini azad etməkdədir. Torpaqlarımız azad olduqdan sonra danışıqlara hazır olarıq.

Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayonumuz azad olduqdan sonra atəşkəsdən danışmaq olar".

Qeyd edək ki, Dağlıq Qarabağ haqqında məlumatla başlayan verilişdə səfir məlumatların səhv olduğunu bildirib.

❖ ❖ ❖

"Dağlıq Qarabağdakı vəziyyətin ağırlaşması bir sıra suallar doğurdu. Xüsusilə, Moskva niyə Ermənistana qoşulmağa tələsmir və niyə Azərbaycanı kəskin tənqid etmir. Cavab ondadır ki, Moskva ilə Bakını çox sıx münasibətlər bağlayır, özü də bu təkcə iqtisadi münasibətlər deyil. Bəs Azərbaycanın Rusiya üçün əhəmiyyəti və əvəzolunmaz xüsusiyyəti nədən ibarətdir?"

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiyanın "VZQLYAD" şəbəkə nəşri yazır. Məqalədə Dağlıq Qarabağdakı münaqişənin Moskvada ciddi narahatlıqlara səbəb olduğunu qeyd edən Rusiyanın BMT-dəki daimi nümayəndəsi Vasili Nebenzinin sözlərindən sitat gətirilir. "Bəli, Türkiyə birmənalı şəkildə Azərbaycanı dəstəkləyir. Ancaq bu o demək deyil ki, qarşı tərəfdəyik, Ermənistanı Azərbaycana qarşı dəstəkləyirik", -deyə Rusiyanın BMT-dəki nümayəndəsi qeyd etdi.

"Rusiya Qarabağ münaqişəsində bitərəf, bərabər məsafəli bir mövqe tutur. Azərbaycan bizim üçün strateji baxımdan Ermənistandan daha az dəyərli deyil", - deyə "VZQLYAD" qəzetinə verdiyi şərhdə hərbi ekspert, "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko vurğulayıb. Bundan əlavə, həmsöhbət qeyd etdi ki, prezidentlər Vladimir Putin və İlham Əliyev arasındakı yaxşı şəxsi münasibətlər Rusiya-Azərbaycan təmaslarında mühüm amil oldu.

"İki dövlətin başçıları arasındakı münasibətlərdə "qarşılıqlı kimya" deyilən bir şey var - beynəlxalq təmaslarda vacib olan simpatiya, dəstək və mehribançılıq. Prezidentimiz təmkinli və diqqətli siyasətçidir, beynəlxalq siyasətdəki tərəfdaşlarının əksəriyyətini məsafədə saxlayır, buna görə də Əliyevlə yaxşı münasibətlər çox şeyə dəyər", - deyə ekspert qeyd etdi. Buna misal olaraq, keçən ilin oktyabr ayında "Valday" Diskussiya Klubunda iki liderin səmimi ünsiyyəti və ortaq çıxışlarını göstərmək olar.

"Burada bioqrafik məqam vacibdir", - deyə həmsöhbət ehtimal etdi. İndiki Azərbaycan Prezidentinin atası, respublikanın uzun illər ərzində lideri olan Heydər Əliyev və Vladimir Putinin ortaq iş yeri var idi. Heydər Əliyeviç kiçik leytenantdan Azərbaycan SSR DTK sədrinə qədər yüksələn dövlət təhlükəsizliyi zabiti idi, bundan sonra Siyasi Büroda və SSRİ Nazirlər Sovetində dövlət xadimi olaraq işə başladı.

"İlham Əliyev MDBMİ məzunudur, rus və ingilis dillərini mükəmməl dərəcədə bilir. Başqa bir şey, 2018-ci ilin "rəngli inqilabı" dalğasında hakimiyyətə gələn Ermənistanın lideri, baş nazir Nikol Paşinyandır", - deyə ekspert hesab edir. Məncə, Əliyevlə Putin arasındakı şəxsi təmaslar, Putin və Paşinyan arasındakı təmaslardan bir pillə daha üstündür. Söhbət məhz ölkələrin liderləri səviyyəsində şəxsi qarşılıqlı əlaqədən getdiyini və dövlətlərarası münasibətlərdə Moskvanın həm İrəvan, həm də Bakıdan bərabər məsafədə uzaqda olduğunu (və ya əksinə, eyni məsafədə yaxın olduğunu) vurğuladı.

"Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvüdür, lakin, yeri gəlmişkən, Azərbaycan da bu təşkilatda müşahidəçi olmaq istəyini bildirib. İrəvan bu qərarı müzakirə edilmədən çox əvvəl blokladı", -deyə ekspert qeyd etdi. "Ermənistan Rusiya silahlarını alır, amma Azərbaycan daha böyük həcmdə silahlarımızı alır. Bakının canlı pul ödəyən az sayda tərəfdaşlardan biri olması da az əhəmiyyət kəsb etmir. Azərbaycanın bu satınalmalar üçün maliyyə bazası var", - deyə İ.Korotçenko qeyd edib. Ermənistan isə İrəvana Moskvanın verdiyi məqsədli kreditlər hesabına ödəyir.

"Son illərdə Rusiya Azərbaycana ümumilikdə dəyəri 5 milyard dollardan çox olan silah satıb. Bunlar reaktiv yaylım atəş sistemləri, ağır alovsaçan sistemləri, çoxlu miqdarda müasir tanklar və zirehli transportyorlar, həmçinin yeni nəsil S-300 kompleksləridir. Bir neçə ay əvvəl Rusiyanın yeni Su-35 və MiQ-35 qırıcılarının alınmasına Azərbaycanın maraq göstərdiyi barədə xəbərlər yayılmışdı", - deyə ekspert xatırladıb.

Bundan əlavə, avqust ayının sonunda tərəflər qarşılıqlı səfər ediblər. Müdafiə naziri Sergey Şoyqu Bakıya, Azərbaycan Xarici İşlər Nazirliyinin yeni rəhbəri Ceyhun Bayramov ertəsi gün Moskvaya səfər edib.

❖ ❖ ❖




Avstriyadakı səfirliyimiz "Twitter" mikrobloqunda Avstriya Parlamentində Cənubi Qafqaz üzrə qrupun hazırda Azərbaycanda baş verən hadisələrlə bağlı düzgün məlumatlı olmamaqda qınayıb.

AZƏRTAC xəbər verir ki, səfirliyin tvitində ilk olaraq son günlərdə baş verən hadisələrə nəzər salınıb, sentyabrın 27-dən bəri Ermənistanın təcavüzü nəticəsində 20 mülki şəxsin həlak olduğu və 70-dən artıq şəxsin yaralandığı, yaşayış məntəqələri və mülki infrastruktura ciddi zərər dəydiyi qeyd edilib.

Həmçinin bildirilib ki, BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə hüququndan istifadə edərək regional sülh və sabitliyə böyük təhlükə törədən Ermənistanın hərbi təcavüzü və Ermənistan qoşunlarının Azərbaycanda mövcudluğuna son qoymaq məqsədilə müvafiq tədbirlər görməyə məcbur oldu. Azərbaycan daha öz ərazilərinin Ermənistan tərəfindən işğalına və onun apardığı təxribatlara dözmək istəmir. Azərbaycanın bu məqsədə nail olmaq üçün peşəkar və yüksək təlim görmüş ordusu vardır və öz ərazilərini erməni işğalçı qoşunlarından təmizləmək üçün Azərbaycanın nə muzdlulara, nə də digər dövlətlərin yardımına ehtiyacı yoxdur.

Daha sonra qeyd edilib ki, oktyabrın 4-də Ermənistan döyüş meydanlarından uzaqda yerləşən Azərbaycanın ikinci böyük şəhəri Gəncəni raketlərlə atəşə tutub. Bu zaman Ermənistanın məqsədi döyüşləri öz dövlət ərazisinədək genişləndirmək və bu yolla da üçüncü dövlət və təşkilatları münaqişəyə cəlb etməkdir. Bu addım beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə pislənməlidir.

Səfirliyin məlumatında Avstriya-Cənubi Qafqaz parlament qrupunun rəhbəri Qudrun Kuqlerin Ermənistan və Azərbaycan münaqişəsinə dair bəyanatının da təəssüf doğurduğu qeyd edilib. Bildirilib ki, deputat Q. Kuqlerin bəyanatının onun həqiqətən də nə baş verməsi barədə ətraflı məlumatının olmadığı təəssüratını yaradır. Səfirlik Ermənistanla əlaqədar Kuqlerin təqdim etdiyi tarixi fiksiya və siyasi dəyərləndirmənin qəbuledilməz olduğunu ifadə edib.

Parlamentarinin diqqətinə çatdırılıb ki, ondan fərqli olaraq Alman Bundestaqında Cənubi Qafqaz üzrə parlament qrupunun rəhbəri Barbara Hendriks bu münaqişədə beynəlxalq hüququn birmənalı şəkildə Azərbaycanın tərəfində olduğunu və Ermənistanın bu münaqişə ilə əlaqədar regionda beynəlxalq hüququn tətbiqini qəbul etmir.

Yekunda qeyd edilib ki, Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilov dəfələrlə deputat Q. Kuqlerə baş verən ən yeni hadisələr barədə ilkin mənbədən məlumatın əldə edilməsi üçün Avstriya-Cənubi Qafqaz parlament qrupunun üzvləri ilə videokonfrans keçirilməsini təşkil etmək təklifini verib. Səfirlik bu təklifi ictimai şəkildə elan etməklə, parlament qrupunu videokonfransa dəvət edib.

# Azərbaycanın haqq savaşı xarici mətbuatda



Prezident İlham Əliyevin oktyabrın 4-də Azərbaycan xalqına müraciəti Türkiyənin aparıcı telekanalları vasitəsilə tam formada yayılıb.

AZƏRTAC xəbər verir ki, "TRT Haber", "A Haber", "Haber Global" və digər telekanalların birbaşa yaydığı müraciət Türkiyə ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanıb.

Türkiyənin aparıcı kütləvi informasiya vasitələri dövlətimizin başçısının qələbə müjdəli açıqlamalarını, eləcə də Cəbrayıl rayonunun düşmən tapdağından azad olunması xəbərini, həmçinin təcavüzkar Ermənistan rəhbərliyinə xəbərdarlıq mesajlarını və işğalçı tərəfə ünvanlandığı şərtləri ayrı-ayrı başlıqlarla video-format və mətn şəklində təqdim ediblər.

"İlham Əliyev atəşkəsin yaranması üçün Azərbaycanın şərtlərini açıqladı", "Cəbrayıl işğaldan azad oldu", "Azərbaycan Ordusundan möhtəşəm zəfər", "Addım-addım zəfərə doğru" və sair sərlövhəli məlumatlar sürətlə Türkiyə mediasının baş xəbərinə çevrilib. Məlumatların yayılması və müraciətin təhlili ilə bağlı materiallar davam edir.

Məlumatlarla Anadolu Agentliyi, "TRT Haber", "Haber Türk", TGRT, "A Haber", "Haber Global", NTV, BENGÜ TV telekanallarının, habelə "Sabah", "Yeni şəfəq", "Aydınlıq", "Təqvim" və digər nüfuzlu qəzetlərin saytlarında tanış olmaq mümkündür.

❖ ❖ ❖




Milli Məclisin Sədr müavini Adil Əliyevin Ermənistanın Azərbaycanda mülki əhaliyə və şəhərlərə hücum etməsi barədə məqaləsi Almaniya mətbuatında işıqlandırılıb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, məqalədə Adil Əliyev Ermənistanın son 30 ildir ki, Azərbaycanın əbədi və əzəli torpaqlarını işğal altında saxlaması, bu işğalın nəticəsində minlərlə insanı qətl etməsi və bir milyondan çox şəxsin öz doğma yurd-yuvalarını məcburi şəkildə tərk etməsi əks olunub.

Məqalədə Ermənistanın hazırkı hakimiyyətinin əsas hədəfinin Azərbaycanda yaşayan mülki əhali olduğu, həyata keçirdiyi hücumlar zamanı xüsusilə təmas xəttindən kənarda yerləşən mülki əhalinin hədəf seçməklə, evlərə, xəstəxanalara, habelə digər mülki obyektlərə zərər yetirdiyi bildirilir.

Yazıda Ermənistan tərəfinin bu ilin iyul ayından başlayan müntəzəm təxribatı zamanı 76 yaşlı mülki şəxsin, habelə bu ilin 27 sentyabr tarixindən başlayan növbəti təxribat zamanı isə bir ailənin həlak olduğu, onların arasında 7-ci və 9-cu sinifdə təhsil alan iki məktəblinin də olduğu qeyd edilir. Ermənistan hakimiyyətin təcavüzkar siyasətini alman mediasına çatdıran Adil Əliyevin məqaləsində dəfələrlə Azərbaycan tərəfinin Ermənistanın təcavüzkar siyasətini dayandırmasını və işğal altında olan torpaqlardan çəkilməsini tələb etməsinə baxmayaraq, düşmən tərəfin öz təcavüzkar siyasətindən çəkinmədiyi vurğulanır. Bildirilir ki, bütün bunların əksinə olaraq Ermənistan tərəfi daha kütləvi şəkildə silahlanmağa başlamış, başqa ölkələrdən insanları Dağlıq Qarabağa köçürmüş və mütəmadi olaraq təxribata əl atmışdır. Ermənistan tərəfinin həyata keçirdiyi siyasətin Cenevrə Konvensiyasının tələblərinə zidd olduğu, BMT-nin Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən, ölkəmizə məxsus ərazilərin qeyd-şərtsiz boşaldılmasını tələb edən qətnamələrinə baxmayaraq, həmin qətnamələrin bu vaxta qədər icra edilmədiyi, Ermənistan tərəfinin beynəlxalq hüququn bütün prinsiplərini kobud şəkildə pozduğu ictimaiyyətin diqqətinə çatdırılır.

❖ ❖ ❖

Meksikanın çoxmilyonlu izləyici kütləsinə malik "Canal Once" dövlət telekanalında və nüfuzlu "ABC" radiosunda səfir Məmməd Talıbovun Ermənistanın son hərbi təcavüz aktı ilə bağlı xarici siyasət üzrə tanınmış beynəlxalq şərhçi Federiko Lamonta verdiyi müsahibələr efirə gedib.

Azərbaycanın Meksikadakı səfirliyindən AZƏRTAC-a verilən məlumata görə, müsahibələrdə ilk olaraq, Dağlıq Qarabağ münaqişəsinin tarixindən danışan M.Talıbov, 30 ilə yaxındır Dağlıq Qarabağ ərazisi və 7 ətraf rayonu işğal altında saxlayan, bu ərazilərdə etnik təmizləmə apararaq orada yaşayan 1 milyona yaxın insanı öz doğma torpaqlarından qovmuş Ermənistanın növbəti dəfə Azərbaycana qarşı hərbi təcavüzə əl atdığını, bu xüsusda 27 sentyabr tarixindən başlayaraq atəşkəs rejimini kobud şəkildə pozaraq iri ölçülü artilleriya qurğularından bütün təmas xətti boyu ordumuzun mövqelərini atəşə tutduğu, habelə beynəlxalq hüquq və beynəlxalq humanitar hüququ kəskin şəkildə pozaraq dinc əhalini və mülkü infrastrukturu hədəfə aldığını, nəticədə əhali arasında iki nəfər azyaşlı uşaq da daxil olmaqla onlarla ölü və yaralıların olduğu bildirib.

Azərbaycanın BMT Nizamnaməsi çərçivəsində öz ərazilərini azad etmək və əhalisinin təhlükəsizliyini təmin etmək hüququ olduğunu deyən M.Talıbov, hazırda silahlı qüvvələrimizin bu məqsədlə əks-hücum əməliyyatları həyata keçirdiyini qeyd edib.

Şərhçinin suallarına cavab olaraq, BMT Təhlükəsizlik Şurasının 26 ildən sonra ilk dəfə bu münaqişəni müzakirə etmək üçün bağlı qapılar arxasında toplantı keçirdiyini deyən səfir, qurumun münaqişə ilə bağlı 1993-cü ildə qəbul edilmiş dörd məlum qətnaməsini qeyd edərək, bu sənədlərin Ermənistanın işğalçı qüvvələrinin bütün Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını və məcburi köçkünlərin öz evlərinə qaytarılmasını tələb etdiyini və hazırda şuranın bu qətnamələrin tətbiq edilməsi üçün tədbirlər görməli olduğunu söyləyib.

Sonra M.Talıbov Ermənistanın hərbi-siyasi rəhbərliyinin son 2 il ərzində aqqresivliyinin daha da artdığını, bu ölkənin baş nazirinin anneksionist çıxışları və "yeni müharibələr, yeni ərazilər" siyasəti, Ermənistanın iyul ayında Tovuz rayonu istiqamətindəki hərbi təxribatı, işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasəti, baş nazirin öz ailə üzvlərini işğal olunmuş ərazilərdə hərbi təlimlərə göndərərək bunu ictimailəşdirməsi ilə, habelə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqların format və mahiyyətini dəyişməyə cəhd etməklə onu iflic vəziyyətə saldığını bildirib. Bütün qeyd olunanların Ermənistanın yeni müharibəyə köklədiyinin sübutu olduğunu və Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasındakı çıxışı zamanı Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzə hazırlaşdığına dair dünya ictimaiyyətini öncədən xəbərdarlıq etdiyini deyib.

Sonda M.Talıbov beynəlxalq ictimaiyyətin Ermənistandan təcavüzkar siyasətinə son qoymağı, Azərbaycan ərazilərini azad etməyi və regionda sülh və təhlükəsizliyin bərqərar olmasına mane olmaqdan əl çəkməyi tələb etməsinin vaxtı çatdığını vurğulayıb.

❖ ❖ ❖




"Ermənistan ordusunun Azərbaycanın ikinci şəhəri olan Gəncəyə raket və artilleriya hücumu müharibənin genişlənməsinə səbəb ola bilər".

AZƏRTAC xəbər verir ki, bu barədə Yaponiyanın nüfuzlu JIJI RESS agentliyi və NHK telekanalı məlumat yayıb. Məlumatlarda Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə istinadla hücum nəticəsində bir nəfərin həlak olduğu və bir neçə nəfərin yaralandığı qeyd edilib. Vurğulanıb ki, Gəncə şəhərinin Ermənistan ordusu tərəfindən bombardman edilməsi Dağlıq Qarabağ uğrunda münaqişənin genişlənməsi məqsədi daşıyır.

Bununla yanaşı, məlumatlarda Ermənistan ordusunun Azərbaycanın döyüş bölgəsinə yaxın ərazilərdə yerləşən digər şəhərlərini də ağır artilleriyadan və raketlərdən atəşə tutduğu əksini tapıb.

❖ ❖ ❖




Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın işğalı altında olan Cəbrayıl şəhərini və ətraf kəndləri düşməndən azad etməsi Türkiyənin bütün kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb. Əvvəlcə Prezident İlham Əliyevin sosial şəbəkə paylaşımlarına istinad edən media orqanları sonrakı mərhələdə xəbəri dövlətimizin başçısının canlı yayımla Azərbaycan xalqına müraciəti əsasında yayıblar.

AZƏRTAC xəbər verir ki, hazırda ölkənin aparıcı telekanallarında cəbhə xəttindəki vəziyyət ekspertlər tərəfindən qızğın müzakirə olunur, Cəbrayıl şəhərinin işğaldan azad olunmasının strateji əhəmiyyəti təhlil edilir.

Məlumatlarla Anadolu Agentliyi, TRT HABER, HABER TÜRK, TGRT, A HABER, BENGÜ TV telekanallarının, habelə "Akşam", "Təqvim" və s. nüfuzlu qəzetlərin saytlarında tanış olmaq mümkündür.

❖ ❖ ❖



Misirin "Nile1" informasiya portalı və "Asiaelyoum" xəbər agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətindən sitatları yayıblar.

AZƏRTAC-a istinadla yayılan xəbərlərdə qeyd olunur ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev atəşkəs rejiminin bərpasının şərtlərindən danışarkən deyib: "Bu gün Cəbrayılın işğaldan azad edilməsi Ermənistana, onun havadarlarına dərs olmalıdır. Mən hadisələrdən əvvəl demişdim. Orada təxribat törətdi, dərs verdik, dərs olmadı. Burada təxribat törətdi, dərs verdik, dərs olmadı. Nəhayət, bu dəfə təxribat törətdi, dərs verdik, indi dərs oldu".

Misir mətbuatı yazıb ki, Azərbaycanın dövlət başçısı müraciətini aşağıdakı sözlərlə tamamlayıb: "Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Qırğızıstanın goldenbridgenews.com və turktoday.info portalları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi "Twitter" səhifəsinə istinadla Cəbrayılın və bir neçə kəndin işğaldan azad edilməsi barədə xəbər paylaşıb.



Azərbaycanın dövlət başçısı yazır: "Bu gün Azərbaycan ordusu Cəbrayıl şəhərini və rayonun bir neçə kəndini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

AZƏRTAC xəbər verir ki, eyni zamanda, portallar Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "Ermənistanın insanların kütləvi şəkildə yaşadığı ərazilərə raketlər atması bu ölkənin terrorçu dövlət olduğunu göstərir", - fikrinə də yer ayırıb.

Hikmət Hacıyev vurğulayıb ki, Ermənistan terrorçu dövlətdir, faşizm xisləti daşıyır. Azərbaycan Ermənistanın hücumlarının heç birini cavabsız qoymur və bu hücumlar adekvat cavabını alır.

Portallar yazır: Prezidentin köməkçisi bildirib ki, ordumuzun dəqiq zərbəsi nəticəsində qondarma "Dağlıq Qarabağ respublikası"nın rəhbəri Araik Arutunyan ağır yaralanıb.

❖ ❖ ❖




Gürcüstanın report.ge və 24news.ge, aktual.ge və dalgatv.ge portalları Azərbaycanın Cəbrayıl rayonunun erməni işğalından azad olunması barədə məlumatlar yayıblar.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə istinadən yayılan xəbərlərdə Cəbrayıl şəhərinin və rayonun daha bir neçə kəndinin işğaldan azad olunması barədə oxuculara sevincli məlumatlar çatdırılır.

Qeyd edək ki, bu xəbər Gürcüstanda yaşayan soydaşlarımız tərəfindən də yüksək sevgi və coşqu ilə qarşılanıb.

❖ ❖ ❖




Ukraynanın nüfuzlu "RBK-Ukrayna" informasiya agentliyi Ermənistan ordusu tərəfindən Azərbaycanın ikinci böyük şəhəri Gəncənin raketlərlə vurulması barədə ətraflı məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, məlumatda Ermənistan tərəfindən Gəncənin mülki obyektlərinin raketlə vurulması qeyd edilib.

"Gəncə şəhərinin raket hücumuna məruz qalması nəticəsində bir mülki şəxs ölüb, dörd nəfər isə xəsarət alıb. Eyni zamanda Gəncənin tarixi binaları raket hücumuna məruz qalıb", - deyə Ukrayna mətbuatı yazır.

❖ ❖ ❖




"Ermənistan ordusu raketlərdən və ağır artilleriyadan istifadə edərək Azərbaycanın şəhərlərini atəşə tutub".

AZƏRTAC xəbər verir ki, bu barədə Avstraliyanın "Westernmagazine.com", "Camdencourier.com", "Yarrawongachronicle.com", "Denipt.com" saytları və digər KİV-lər məlumat yayıb. Bildirilir ki, Ermənistan ordusu Azərbaycanın ikinci böyük şəhəri Gəncədə mülki obyektləri, o cümlədən yaşayış binalarını raket atəşinə tutub. Dinc əhali arasında ölən və yaralananlar var.

Qeyd edilir ki, Azərbaycan bunun cavabında Ermənistan ərazisindəki hərbi obyektləri vuracağını bəyan edib. Bu barədə Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin sözləri sitat gətirilib: "Azərbaycan ölkə ərazisindəki yaşayış məntəqələrinə yönəlmiş atəşin qarşısını almaq üçün birbaşa Ermənistan ərazisindəki hərbi obyektləri dağıdacaqdır".

Bildirilir ki, Ermənistan tərəfi bu məlumatı təkzib etsə də, qondarma "Dağlıq Qarabağ respublikası"nın lideri Gəncə şəhərindəki hərbi aeroportun vurulması barədə göstəriş verdiyini deyib.

Xəbərlərdə Ermənistan ordusunun Azərbaycanın digər şəhərlərinə atəş açaraq mülki vətəndaşları hədəfə alması barədə məlumatlar da öz əksini tapıb.

❖ ❖ ❖




Misirin "Egyptonline", "Alwaseela", "Gomhoriaonline", "Rayetmisr" informasiya portalları Azərbaycanın ikinci böyük şəhəri Gəncədə mülki obyektlərin, o cümlədən yaşayış binalarının ermənilər tərəfindən raket atəşinə tutulması, dinc əhali arasında ölən və yaralananların olması barədə xəbərlər yayıblar.

AZƏRTAC-ın Gəncədən yaydığı xəbər və fotoşəkillərə istinadla bildirilib ki, Ermənistan silahlı qüvvələri Cenevrə Konvensiyası ilə qadağan edilmiş silahlardan istifadə edərək Azərbaycanın ikinci böyük şəhərində mülki obyektləri və dinc əhalini hədəfə alıblar.

Xəbərlərdə vurğulanıb ki, Azərbaycan Prezidentinin köməkçisi-Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın bu addımını müharibə cinayəti adlandırıb və Azərbaycan Ordusu qarşısında aciz qalan düşmənin xaincəsinə mülki əhalini atəşə tutduğunu bəyan edib.

❖ ❖ ❖




"Azərbaycanın ikinci böyük şəhəri Gəncə və Dağlıq Qarabağ regionuna yaxın olan şəhərlər Ermənistan tərəfindən raket hücumuna məruz qalıb".

AZƏRTAC xəbər verir ki, bu barədə oktyabrın 4-də İndoneziyanın ANTARA dövlət informasiya agentliyi və nüfuzlu "Republika.co.id" portalı məlumat yayıb.

Bildirilir ki, Azərbaycan ərazisi olan Dağlıq Qarabağda yerləşən erməni hərbi qüvvələrinin rəhbərləri Azərbaycanın digər şəhərlərinin də onların hədəfləri olduğunu bəyan ediblər. Bu addım münaqişənin daha da böyüməsinə səbəb ola bilər və bu, böyük risk daşıyır.

Məqalələrdə Azərbaycanın Müdafiə naziri Zakir Həsənovun sözləri də sitat gətirilib: "Ermənistanın Azərbaycan ərazilərinə hücumu açıq-aşkar təxribatdır və münaqişənin ərazisinin genişlənməsinə xidmət edir".

Dağlıq Qarabağın dırnaqarası "rəhbəri" Araik Arutunyanın Azərbaycanın digər şəhərlərinə zərbə endirməyi hədəflədiyini açıqladığına vurğu edilib, onun "Azərbaycanın digər şəhərlərində yerləşən hərbi mövqeləri bundan sonra bizim hədəfimizdir" sözləri yazılarda yer alıb.

Bundan əlavə, məqalələrdə Ermənistan rəsmilərinin bütün vasitələrlə erməni xalqını müdafiə edəcəklərinə dair fikirlərinə də yer verilib.

❖ ❖ ❖

Misirin nüfuzlu "Şuruq" qəzetində Ermənistanın sülh danışıqlarına məhəl qoymaması, daim hərbi təxribatlara əl atması və status-kvonu saxlamağa çalışması ilə əlaqədar Azərbaycanın mövqeyi öz əksini tapıb.

Qəzetin dərc etdiyi məqalədə AZƏRTAC-a istinadla Azərbaycan XİN-in Ermənistanın öz silahlı qüvvələrinin məruz qaldığı ciddi itkiləri kompensasiya etmək niyyəti ilə xarici ölkələrdə yaşayan erməni mənşəli diaspora üzvlərini müvəqqəti işğal altındakı Azərbaycan ərazilərində qanunsuz yerləşdirilmiş hərbi birləşmələrinə cəlb etmək üçün addımlar atdığı, Ermənistan və erməni diaspor təşkilatlarının Azərbaycan və onun mülki əhalisinə qarşı terror fəaliyyəti həyata keçirdiyinə görə beynəlxalq hüquqi məsuliyyət daşıdığı barədə bəyanatları da yer alıb.

Misir ictimaiyyətinin diqqətinə çatdırılıb ki, Azərbaycan XİN düşmən ölkəyə BMT Təhlükəsizlik Şurasının 2178 (2014) saylı qətnaməsinə əsasən "yaşadıqları və ya vətəndaşlıq mənsubiyyəti olan ölkələri tərk edərək terror əməlləri törətmək, planlaşdırmaq, buna hazırlıq və ya həmin əməllərdə iştirak etmək və ya silahlı münaqişələrlə əlaqəli vəziyyətlər də daxil olmaqla terrorçuluq təlimi keçmək və ya almaq məqsədilə digər ölkə ərazisinə səfər edən şəxslərin əcnəbi terrorçu döyüşçülər" olaraq müəyyən edilməsini xatırladıb.

❖ ❖ ❖

Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində Gəncə şəhərinin Ermənistan tərəfindən atəşə tutulması barədə xəbər yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Xarici İşlər Nazirliyinin açıqlamasına istinadla hazırlanan xəbərdə ermənilərin Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə raket hücumu nəticəsində mülki şəxslərdən bir nəfərin öldüyü, 4 nəfərin isə yaralandığı qeyd olunub. Xəbərdə bildirilir ki, Azərbaycan Ermənistanı beynəlxalq hüququn norma və prinsiplərinə əməl etməyi, Azərbaycanın işğal edilmiş ərazilərindən erməni silahlı birləşmələrinin dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmək barədə xəbərdarlıq edib.

Qeyd olunur ki, ermənilər Gəncəyə raket hücumunu etiraf ediblər.

Bütün dünyada geniş oxucu kütləsi olan CGTN kanalının saytında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı digər materialda isə bildirilir ki, Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 3-də sosial mediada Azərbaycan Ordusunun Suqovuşan da daxil olmaqla, bir neçə yaşayış məntəqəsini azad etdiyini bildirib. Azərbaycan Prezidenti bu münasibətlə hərbi birləşmə komandirini təbrik edib.

Xəbərdə Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibinin Azərbaycan Ordusunun bir neçə mövqeni ələ keçirdiyini dolayı yolla etiraf etdiyi bildirilib.

Xəbərdə habelə, Ermənistanın baş naziri Nikol Paşinyanın televiziya ilə xalqa müraciətində döyüşlər nəticəsində Ermənistanın çoxlu sayda hərbi texnikasının sıradan çıxması barədə etirafı da əksini tapıb.

Münaqişənin tarixindən söz açılan materialda qeyd olunub ki, sovet dövründə Dağlıq Qarabağ Azərbaycanın tərkibində muxtar bölgə olub. Keçmiş SSRİ-nin dağılması dövründə yaranan müharibə erməni silahlıları təkcə Dağlıq Qarabağı deyil, Soqovuşan da daxil olmaqla onun ətrafındakı bir neçə rayonu da tutublar. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi bir neçə qətnamədə qoşunların həmin ərazilərdən çıxarılması tələb olunsa da, erməni tərəfi bu tələbləri qulaqardına vurur.

Məqalədə Prezident İlham Əliyevin "Əl-Cəzirə" televiziya kanalına müsahibəsində Ermənistan həmin ərazilərdən çıxmayanadək döyüşlərin dayandırılmayacağı ilə bağlı fikrinə də yer verilib. Qeyd olunub ki, Azərbaycan Prezidenti müsahibəsində münaqişənin həlli üçün vasitəçilik edən ATƏT-in Minsk qrupunun onilliklər boyu səyləri bir nəticə vermədiyini deyib. Azərbaycan Prezidenti bunun əsas səbəblərindən biri BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına başlamaq üçün vasitəçilər tərəfindən təkid göstərilməməsini və təzyiqin olmamasını göstərib. "Bizim daha 30 il gözləməyə vaxtımız yoxdur. Münaqişə indi həll olunmalıdır",- deyə Prezident İlham Əliyev bildirib.

CGTN-in materialında, həmçinin Ermənistanın Suriya, Livan və digər ölkələrdən terrorçu qrupların üzvlərini Azərbaycanın işğal edilmiş ərazilərinə cəmləşdirdiyi qeyd olunub.

❖ ❖ ❖




Ərəb ölkələrinin nüfuzlu KİV-i - Qətərin "Aljazeera" televiziya kanalı və Misirin "Al Ahram" qəzeti Azərbaycanın ikinci böyük şəhəri Gəncədə mülki obyektlərin, o cümlədən yaşayış binalarının ermənilər tərəfindən artilleriya atəşinə tutulması, dinc əhali arasında ölən və yaralananların olması barədə xəbərlər yayıblar.

AZƏRTAC-ın Gəncədən yaydığı xəbər və fotoşəkillərə istinadla bildirilib ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci böyük şəhərində, həmçinin Dağlıq Qarabağla yanaşı ərazidə yerləşən Beyləqanda mülki obyektləri və dinc əhalini hədəfə alıblar.

Xəbərlərdə vurğulanıb ki, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Ermənistanın bu addımını müharibə cinayəti adlandırıb və Azərbaycan Ordusu qarşısında aciz qalan düşmənin xaincəsinə mülki əhalini atəşə tutduğunu bəyan edib.

❖ ❖ ❖

Qırğızıstanın "goldenbridgenews.com" və "turktoday.info" portalları "AZƏRTAC Gəncənin Ermənistan tərəfindən atəşə tutulması nəticəsində mülki şəxslərə, infrastruktura və tarixi tikililərə dəyən ziyanla bağlı video və fotoları təqdim edir" sərvövhəli materialını, Özbəkistanın "fikr.uz" saytı isə Azərbaycan televiziyasına istinadla Ermənistan silahlı qüvvələrinin Gəncəni atəşə tutması haqqında rus dilində məqalə verib.

Portallarda işğalçı Ermənistanın silahlı qüvvələrinin oktyabrın 4-də saat 10:00 radələrindən başlayaraq Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin mülki əhalisinin sıx yaşadığı məntəqələrini ağır artilleriyadan atəşə tutduğunu yazıb.

Qırğızıstan portalları AZƏRTAC-a istinadla yazır ki, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" hesabındakı paylaşımında bildirib ki, Azərbaycan mülki şəxsləri müdafiə etmək və Ermənistanı sülhə məcbur etmək üçün legitim hərbi hədəflərə qarşı adekvat tədbirlər görmək hüququnu saxlayır.

Portallar bununla bağlı Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun fikirlərinə də yer ayırıb. Nazir deyib ki, Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəş açılması açıq təxribat xarakteri daşıyır və döyüş bölgəsini genişləndirir.

❖ ❖ ❖




Yaponiyanın kütləvi informasiya vasitələri Azərbaycan Ordusunun Ermənistan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ regionunda apardığı uğurlu əməliyyatlardan yazır.

AZƏRTAC xəbər verir ki, bu barədə Yaponiyanın nüfuzlu "Yomiuri simbun" qəzeti, "Yahoo Japan", "MSN", "Huffingtonpost" saytları oktyabrın 4-də məlumat yayıblar. Çoxsaylı fotoların da əlavə edildiyi məqalələrə Azərbaycan Ordusunun uğurlu əməliyyatlarında İsrail istehsalı olan "Harop" pilotsuz uçan aparatlarının (PUA) mühüm rol oynadığı qeyd edilir. Bildirilir ki, haqqında Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin də məlumat verdiyi bu PUA-lar düşmən obyektlərinə zərbələrin endirilməsində çox səmərəli rol oynayır. H.Hacıyevin sözlərini sitat gətirən nəşrlər yazır: "Əgər Ermənistan Azərbaycanın istifadə etdiyi dronlardan qorxursa, onda işğal etdiyi əraziləri tərk etsin".

Məqalələrdə Yaponiya ordusunda olmuş kamikadze korpusunun adına uyğun olaraq həm də "kamikadze dron" adını almış bu PUA-ların lazım olan hədəfə tam dəqiqliklə zərbə endirmək qabiliyyətində olduğu xüsusi qeyd edilir.

Bildirilir ki, Azərbaycan Ordusu həmin dronlardan cari il sentyabrın sonlarında aparılan əməliyyatlarda xüsusi uğurla istifadə etməyə başlayıb. Qeyd edilir ki, həmin əməliyyatlar beynəlxalq təşkilatlar və dünya dövlətləri tərəfindən Azərbaycan əraziləri hesab edilən, lakin 1994-cü ildən Ermənistan tərəfindən işğal edilən Dağlıq Qarabağ regionunda aparılır.

Məqalələrdə bu dronların taktiki-texniki göstəriciləri barədə də ətraflı məlumatlar öz əksini tapıb. Qeyd edilib ki, bu aparatlar "İsrail Aerokosmik Sənaye" (IAI) şirkəti tərəfindən istehsal edilir və onların uzunluğu 2,5, qanadlarının eni isə 3 metrə bərabərdir. Radarlar tərəfindən aşkar edilməyən bu PUA-lar böyük sürətə malikdir. Onların 23 kiloqram ağırlığında partladıcı maddə daşıdığı və aşkar etdiyi hədəfi vurarkən özünü də partladığı qeyd edilir. Bu aparatların 1000 kilometr məsafəni əhatə etdiyi və havada 6 saat fasiləsiz qalmaq qabiliyyətində olduğu da bildirilir.

❖ ❖ ❖

Böyük Britaniya "The London Post" portalı Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin açıqlamasını yayıb.

AZƏRTAC xəbər verir ki, yayımlanan materialda Ermənistan silahlı qüvvələrinin qəsdən və hədəflənmiş şəkildə yaşayış məntəqələrini artilleriyadan atəşə tutması nəticəsində mülki şəxslərin xəsarət aldığı və həlak olduğu, dövlət və özəl mülkiyyətə zərər dəydiyi qeyd olunub.

Məqalədə qeyd olunub ki, hərbi əməliyyatlar şəraitində mülki insanların hədəfə alınması və ya qəsdən öldürülməsi cinayətdir. Ermənistan dövləti və Ermənistanın siyasi-rəhbərliyi buna görə məsuliyyət daşıyır. Ermənistan tərəfinə xəbərdarlıq edilib ki, Ermənistan ərazisindən Azərbaycana qarşı hücumlar dayandırılmadığı halda, atəşi həyata keçirən legitim hərbi hədəflərə qarşı adekvat tədbirlər görüləcək.

❖ ❖ ❖




Latviyada fəaliyyət göstərən "Baltikyanı ölkələrin səsi" (Baltijas Balss) xəbər portalında "Qarabağ alov içində" sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixinə qısa nəzər salınıb, bu bölgənin Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu bildirilib.

Yazıda Azərbaycan ərazilərinin işğalı nəticəsində bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün düşdüyü, sülh danışıqları prosesinin nəticə vermədiyi, qondarma "Dağlıq Qarabağ respublikası"nın beynəlxalq səviyyədə tanınmadığı BMT Təhlükəsizlik Şurasının, münaqişəyə dair müvafiq qətnamələrinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyi, habelə Ermənistanın baş naziri Nikol Paşinyanın hakimiyyətə gəlməsindən sonra danışıqlar prosesinin dalana dirəndiyi kimi məlumatlar yer alıb.

❖ ❖ ❖

Çinin ən çox oxunan internet media holdinqlərindən sayılan "Caixin Media"nın resurslarında Azərbaycanın bu ölkədəki səfiri Əkrəm Zeynallı ilə geniş müsahibə əsasında Dağlıq Qarabağ münaqişəsinə aid məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, məqalədə sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini, habelə yaşayış məntəqələrini atəşə tutması ilə başlayan təxribatından, ümumilikdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən ətraflı bəhs olunub.

"Caixin Media"nın redaktorları müsahibədən əvvəl öz şərhlərində qeyd ediblər ki, bu münaqişənin səbəbi beynəlxalq səviyyədə tanınmış sərhəd bölgüsündə Azərbaycanın ərazisi kimi tanınan və separatçı meyilli Dağlıq Qarabağ bölgəsidir. Hərbi əməliyyatların başlamasından sonra Ermənistanın baş naziri Paşinyan "Azərbaycan erməni xalqına müharibə elan etdi" deyərək çıxış etdi və ölkədə milli səfərbərlik əmri verdi. Azərbaycan Prezidenti İlham Əliyev isə Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində əsgərlərin və mülki vətəndaşların həlak olduğunu, Azərbaycan Ordusunun müdafiə tədbirlərini gücləndirərək, Ermənistan silahlılarına qarşı əks-hücum əməliyyatı həyata keçirdiyini bildirib.

Səfir Ə.Zeynallı holdinqin jurnalistlərinin suallarını cavablandırarkən Dağlıq Qarabağın tarixən Azərbaycan torpağı olması, ermənilərin oraya XIX əsrdən başlayaraq kütləvi şəkildə köçürülməsi, münaqişənin tarixi, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və etnik təmizləmə siyasəti, Xocalı faciəsi, Ermənistanın atəşkəs dövründə törətdiyi təxribatlardan bəhs edib. Qeyd edib ki, Dağlıq Qarabağdakı separatçı rejimi Ermənistan da daxil olmaqla heç bir ölkə tanımayıb.

Ermənistanın təmas xəttində törətdiyi sonuncu təxribatdan sonra Azərbaycan Ordusunun başladığı əks-həmlə əməliyyatından söz açan diplomat qeyd edib ki, Azərbaycanın Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır.

Qeyd edək ki, "Caixin Media" internet holdinqinin platformalarının aylıq 280 milyon oxucusu var. Bu platformalar Çin elitası və idarəçiləri üçün beynəlxalq məsələlərə dair əsas məlumat mənbəyi hesab edilir. Belə bir vacib informasiya resursunda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə aydın və ədalətli mövqeyin işıqlandırılmasının əhəmiyyəti böyükdür. Sözügedən material "tencent news", "163.com", "toutiao news" kimi əsas internet portallarında yerləşdirilib, Çinin "weiboo" və "wechat" kimi əsas sosial şəbəkələrində, o cümlədən "Caixin Media"nın 7 milyon 630 mindən çox izləyicisi olan internet hesablarında da geniş paylaşılıb. Sözügedən məqalə Çinin internet resurslarında ən çox oxunan 10 məqalədən biri olub.

# “Biz artıq köçkün deyilik”





1991-ci ilin qarlı-şaxtalı soyuq günləri idi. Dağlıq Qarabağda, eləcə də ətraf rayonlarda yaşayan dinc azərbaycanlı əhali erməni işğalçılarının, onlara havadarlıq edən silahlı hərbi birləşmələrin amansız hücumu nəticəsində öz dədə-baba ocaqlarından, yurd-yuvalarından qovularaq çıxarıldı. 1992-ci ildə proses gücləndi, Qarabağa daxil olan rayonların əhalisi Azərbaycanın nisbətən dinc bölgələrinə, şəhər və kəndlərinə üz tutmalı oldu. 1993-cü ilin avqustunda Cəbrayıl rayonundan olan köçkünlərin bir hissəsi isə müvəqqəti olaraq Muğan zonasına - Biləsuvara yerləşdirildi. Bir yandan isti yay günləri, digər tərəfdən evsiz-eşiksizlik, yaşamaq üçün minimum şəraitin olmaması ucbatından adamlar əzab-əziyyət çəkirdilər. Qarşıda soyuqlar - payız-qış ayları gəlirdi. Odur ki, hər bir ailə özü üçün qamışdan, çiy kərpicdən kiçik daxmalar tikməli oldu.

Səmədabad ərazi nümayəndiliyinin Arazbari kənd ərazisində - Biləsuvar-Bəhrəmtəpə şose yolunun kənarında salınan həmin şəhərciyin ovaxtkı görüntülərini əks etdirən fotoşəkillərə baxdıqca həmin məşəqqətli günlər göz önündən gəlib keçir. Canı-qanı ilə Azərbaycana bağlı olan Heydər Əliyev ömrü boyu xalqla nəfəs almış, onun sevincinə sevinmiş, çətin günlərində yanında olmuşdur. Odur ki, o, 1998-ci ildə Biləsuvardakı cəbrayıllı köçkünlərə baş çəkərək onların həyat şəraiti, problemləri ilə maraqlandı. Çox yox, bir ildən sonra - 1999-cu ilin mart ayında Novruz bayramı ərəfəsində yenidən buraya gələrək ailə quran cəbrayıllı gənclərin toy məclisində iştirak etdi.

2003-cü ildə Biləsuvar rayonu ərazisindəki cəbrayıllı qaçqınlar üçün bütün infrastrukturu olan 6 qəsəbə, 2007-ci ildə daha 5 qəsəbə inşa olundu. Həmin qəsəbələrə əhalinin köçürülməsi mərasimində Prezident İlham Əliyev iştirak etdi.

